ISSN 2079-4150

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ
KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Elmi-nəzəri, metodik və təcrübi jurnal

**№ 2 (39) * 2016**

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 2010-cu il 30 aprel tarixli (protokol №10-R) qərarı ilə təsdiq olunmuşdur.*

**1997-ci ilin oktyabrından çıxır**

**BAKI – 2016**

*KBT – 78*
*K 73*

**Təsisçi və baş redaktor:**

*Professor Xəlil İSMAYILOV*
*Dosent Nadir İSMAYILOV (Baş redaktorun müavini)*

**Redaksiya heyəti:**

1. *Professor Abuzər XƏLƏFOV*
2. *Professor Zöhrab ƏLİYEV*
3. *Professor Bayram ALLAHVERDİYEV*
4. *F.e.d. Aybəniz ƏLİYEVA-KƏNGƏRLİ*
5. *Professor Kərim TAHİROV*
6. *Dosent Knyaz ASLAN*
7. *Dosent Sevda XƏLƏFOVA*
8. *Tamella İSMİXANOVA*
9. *Mələk HACIYEVA*
10. *Rəşad QARDAŞOV (Məsul katib)*

K 73 **Kitabxanaşünaslıq və biblioqrafiya:** ***elmi-nəzəri, metodik və təcrübi jurnal.*** – Bakı: Mütərcim, 2016. – № 2 (39). s.

*Redaksiyanın ünvanı:*

AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23,
2 №-li tədris korpusu, IV mərtəbə, Kitabxanaçılıq-informasiya fakültəsi,
“Kitabxanaşünaslıq və biblioqrafiya” jurnalının redaksiyası
Telefon: 510-17-60

**© “Kitabxanaşünaslıq və biblioqrafiya”, 2016**

ISSN 2079-4150

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ
БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫЙ ФАКУЛЬТЕТ

# БИБЛИОТЕКОВЕДЕНИЕ И БИБЛИОГРАФИЯ

Научно-теоретический,
Методический и практический журнал

**№ 2 (39) * 2016**

*Утвержден решением
Президиума Высшей Аттестационной Комиссии
при Президенте Азербайджанской Республики
от 30 апреля 2010 года (протокол № 10-R)*

**Выходить с октября 1997 года**

**БАКУ – 2016**

*ББК – 78*
*К 73*

**Учредитель и главный редактор:**

*Профессор Халил ИСМАИЛОВ*
*Доцент Надир ИСМАИЛОВ (зам главного редактора)*

**Редакционная коллегия:**

1. *Профессор Абузар ХАЛАФОВ*
2. *Профессор Зохраб АЛИЕВ*
3. *Профессор Байрам АЛЛАХВЕРДИЕВ*
4. *Д.ф.н. Айбениз АЛИЕВА-КЕНГЕРЛИ*
5. *Профессор Керим ТАХИРОВ*
6. *Доцент Князь АСЛАН*
7. *Доцент Севда ХАЛАФОВА*
8. *Тамелла ИСМИХАНОВА*
9. *Мелек ГАДЖИЕВА*
10. *Рашад ГАРДАШОВ (овт. секретарь)*

К 73 **Библиотековедение и библиография:** ***научно-теоретический, методический и практический журнал.*** – Баку: Мутарджим, 2016. – № 2 (39). с.

*Адрес редакции:*

AZ-1073/1 г.Баку, ул. Захида Халилова 23,
учебный корпус №2, этаж IV, Библиотечно-информационный факультет,
редакция журнала «Библиотековедение и библиография»
Тел.: 510-17-60

**© «Библиотековедение и библиография», 2016**

ISSN 2079-4150

MINISTRY OF EDUCATION
OF AZERBAIJAN REPUBLIC

BAKU STATE UNIVERSITY
LIBRARIANSHIP AND INFORMATION DEPARTMENT

# LIBRARIANSHIP AND BIBLIOGRAPHY

Scientific and theoretical, methodical
and practical journal

## № 2 (39) * 2016

*Approved by the decision*
*of the Presidium of the Supreme Attestation Commission*
*Under the President of the Republic of Azerbaijan from 30 April 2010*
*(protocol № 10-R)*

**Publishing since October 1997**

**BAKU – 2016**

*LBC – 78*
*K 73*

**Founder and editor in chief:**

*Professor Khalil ISMAILOV*
*Docent Nadir ISMAILOV (assistant editor in chief)*

**Editorial board:**

1. *Professor Abuzar KHALAFOV*
2. *Professor Zohrab ALIYEV*
3. *Professor Bayram ALLAHVERDIYEV*
4. *Ph.D. Aybeniz ALIYEVA-KANGARLI*
5. *Professor Karim TAHIROV*
6. *Docent Knyaz ASLAN*
7. *Docent Sevda KHALAFOVA*
8. *Tamella ISMIKHANOVA*
9. *Melek HAJIYEVA*
10. *Rashad GARDASHOV (executive secretary)*

K 73 **Librarianship and bibliography:** ***The scientific-theoretical, methodical and practical journal.*** – Baku: Mutarjim, 2016. – № 2 (39). p.

*Editorial address:*

AZ-1073/1, Baku, st. Zahid Khalilov, 23, an educational building №2,
Floor IV, Librarianship and information department,
Edition of "Librarianship and bibliography" journal;
Tel.: 510-17-60

**© "Librarianship and bibliography", 2016**

## MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| **X.İsmayılov** | Müasir kitabxana fondlarının yaradılması və inkişafının bəzi məsələləri............................................ | 13 |
| **B.Allahverdiyev** | Azərbaycan Respublikasının nəşriyyat sistemi və onun problemləri.................................................... | 19 |
| **S.İsmayılova** | Arxiv materiallarının təsviri biblioqrafik informasiya mənbəyi kimi............................................................... | 25 |
| **X.Ağayeva** | Azərbaycanda sahəvi biblioqrafik informasiya resurslarının inkişafı..................................................... | 30 |
| **İ.Bayramova** | Bakı şəhərinin məktəb kitabxanalarında kitabxana-informasiya resurslarının yerləşməsi və kadr təminatının müasir vəziyyəti................................. | 38 |
| **V.Məmmədova** | Müasir akademik kitabxana-informasiya xidmətinin təşkili metodikası: ada universiteti kitabxanasının iş təcrübəsi əsasında.............................. | 46 |
| **D.Məhəmmədli** | Kitabxanalar cəmiyyətin ilkin sosial kommunikasiya institutları kimi............................................................ | 55 |
| **A.Hacıyeva** | Bibliometrik təhlil üsullarinin kitabxana təcrübəsində tətbiqi, onlarin kitabxananin reytinqinin formalaşmasına təsiri .................................................... | 61 |
| **S.Kərimova** | Azərbaycanda iqtisadiyyata dair ilkin informasiya resurslarının yaranması və inkişafı................................ | 66 |
| **G.Hacıyeva** | Azərbaycan memarlıq və inşaat universiteti kitabxanasının 2005-2015-ci illər üzrə fondunun təhlili ......................................................................... | 73 |
| **A.Səfərova** | Akademik kitabxanalar milli elmi irsin qorunması sistemində................................................................... | 81 |
| **N.Nəbiyeva** | İnformasiya əsrində innovativ biblioqrafiya xidmətləri....................................................................... | 86 |
| **R.Qasımova** | Mərkəzləşdirilmiş kitabxana sistemlərində informasiya- axtarış işinin təşkili.................................... | 93 |

| | | |
|---|---|---|
| **V.Xudiyeva** | Şirvan şəhər mərkəzləşdirilmiş kitabxana sistemində biblioqrafik fəaliyyətin müasir vəziyyəti........................ | 97 |
| **A.Çələbi** | Azərbaycanda ölkəşünaslıq və diyarşünaslıq üzrə biblioqrafik fəaliyyətin bəzi məsələləri.......................... | 109 |
| **N.Əlibəyli** | M.F.Axundov adına Milli Kitabxanada sənəd axınının tədqiqinin bəzi məsələləri................................ | 116 |
| **E.Nəzərəliyev** | Müasir kitabxana-informasiya fəaliyyətində layihə menecmenti.................................................................... | 123 |
| **N.İsmayılov**, **V.Əliyeva** | Əsaslı biobiblioqarfik göstərici...................................... | 134 |

# СОДЕРЖАНИЕ

| | | |
|---|---|---|
| **Х.Исмаилов** | Некоторые вопросы формирования и развития фондов современной библиотеки................................ | 13 |
| **Б.Аллахвердиев** | Издательская система в Азербайджанской Республике и проблемы................................................ | 19 |
| **С.Исмаилова** | Описания архивных материалы как источник библиографической информации.................................. | 25 |
| **Х.Агаева** | Отраслевая развитие библиографических информационных ресурсов в Азербайджане............... | 30 |
| **И.Байрамова** | Современное состояние размещения библиотечно-информационных ресурсов и кадрово4е обеспечение школьных библиотека в города Баку............................. | 38 |
| **В.Мамедова** | Методика организования современных Академических библиотеко-информационных обслуживаний: на основе практики Библиотеки Университета АДА........................................................ | 46 |
| **Д.Мамедли** | Библиотеки институтов общества как основной социальной коммуникации.......................... | 55 |
| **А.Гаджиева** | Применение библиометрических методов анализа в библиотечной практике и их влияние на формирование рейтинга библиотеки...................... | 61 |
| **С.Керимова** | Происхождениеи развитие первоначальных информационных ресурсовоб экономикев Азербайджане.............................................................. | 66 |
| **Г.Гаджиева** | Анализ Библиотечный фонд университета архитектуры и строительство за годы 2005-2015..................................................................... | 73 |
| **А.Сафарова** | Академические библиотеки в системе сохранения национальной научнойнаследии.................................. | 81 |
| **Н.Набиева** | Инновационные библиографические услуги в век информации.......................................................... | 86 |
| **Р.Гасымова** | Организация поиска Центральная библиотека системы информационного....................... | 93 |

| | | |
|---|---|---|
| **В.Худиева** | Современного состояния библиографической деятельность централизованная библиотечная система города Ширван................................................ | 97 |
| **А.Челеби** | Некоторые вопросы библиографической деятельности по страноведение и краеведения в Азербайджане............................................................ | 109 |
| **Н.Алибейли** | Некоторые вопросы исследование документального потока в Национальной Библиотеки имени М.Ф.Ахундова.................................................. | 116 |
| **Э.Назаралиев** | Коммерческий характер информационного обслуживание науки и оброзование............................. | 123 |
| **Н.Исмаилов, В.Алиева** | Фундаментальных биобиблиографических указатель........................................................................ | 134 |

# CONTENTS


| | | |
|---|---|---|
| **X.Ismayilov** | Some issues of the formation and development of the Modern Library funds.......................................... | 13 |
| **B.Allahverdiyev** | The publishing system of Azerbaijan Republic and its problems............................................................ | 19 |
| **S.Ismayılova** | Description of archival documents as a source of bibliographic information........................................... | 25 |
| **X.Aghayeva** | Development of branch bibliographic information resources in Azerbaijan................................................... | 30 |
| **I.Bayramova** | Contemporary conditions of the settle of library information resources and present situation of it staff provision in the school libraries of the Baku city............................................................ | 38 |
| **V.Mammadova** | The methods of organizing modern academic library - information services: on the basis of the work practice of the ADA University Library................ | 46 |
| **D.Mahammadli** | Libraries as the primary social communication institutions of the society of society................................. | 55 |
| **A.Hajiyeva** | The application of bibliometric analysis methods in library practice and their influence on the formation of the rating library......................................... | 61 |
| **S.Karimova** | Origin and development of initial information resources about economics in Azerbaijan....................... | 66 |
| **G.Hajiyeva** | Comparative analyzes to the Library fund of University of Architecture and Construction during the period of 2005-2015....................................... | 73 |
| **A.Safarova** | Academic libraries in the system of preservation of the national heritage.................................................... | 81 |
| **N.Nabiyeva** | İnnovative bibliographic services in the information age............................................................... | 86 |
| **R.Gasimova** | Organization of Central Library Systems Information retrieval...................................................... | 93 |

| | | |
|---|---|---|
| **V.Khudiyeva** | Centralized Library System of the city of Shirvan modern state of bibliographic.............................. | 97 |
| **A.Chalabi** | Some issues on country study and local lore bibliographic activity in Azerbaijan.................................. | 109 |
| **N.Alibayli** | Some research issues of document flow at Azerbaijan National Library named M.F. Akhundov.......................... | 116 |
| **E.Nazaraliyev** | Project management in library-information activity.......................................................................... | 123 |
| **N.Ismayilov, V.Aliyeva** | Basic biobibliographical index......................................... | 134 |

# MÜASİR KİTABXANA FONDLARININ YARADILMASI VƏ İNKİŞAFININ BƏZİ MƏSƏLƏLƏRİ

***Xəlil İsmayılov***
*BDU-nun Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müdiri, Əməkdar mədəniyyət işçisi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor*

***Некоторые вопросы формирования и развития фондов современной библиотеки***
***Резюме:*** *В статье анализируются об установлении приоритетных аспектов и основных характеристик библиотечных фондов в современных условиях. Кроме того, правильно, что существуют теоретические обобщения о базах и комплектация характеристик библиотеки и информации в требованиях в современном обществе информатизации.*
***Some issues of the formation and development of the Modern Library funds***
***Abstract:*** *The article is analyzed about establishment of the priority aspects and main characteristics of the library funds in modern conditions. Also there were theoretical generalization about the complectation bases and characteristics of the library and information.*

***Açar sözlər:*** *kitabxana, fond, informasiya resursu, infomasiya prosesi, sənəd, sənəd-informasiya fondu, maddi-texniki baza, elektron sənəd*
***Ключевые слова:*** *библиотека, склад, информационный ресурс обработки информации, документ, документ и информационного фонда, материально-технической базы, электронный документ*
***Keywords:*** *library, fund, information resources, information process, document, document and information fund, material and technical base, electronic document*

Əhəmiyyətinə görə kitabxana fondu bütövlükdə çox mühüm üstünlüklərə malik informasiya resurs kompleksi kimi uzun illərdir ki, bütün xalqlar və millətlər arasında praktiki olaraq formalaşmış və kitabxana kolleksiyası, fond terminləri kimi qəbul olunmuşdur. İstifadəçilər, kitabxana işçiləri, maddi-texniki baza (kitabxana binalarının avadanlıqları və s.) illər və yüz illər keçdikcə köhnəlir, sıradan çıxır, lakin toplanmış və qorunub saxlanmış sənədlər hansı formada saxlanılmasından asılı olmayaraq qorunub saxlanılır və insanların köməyinə çatır, onlardan istifadə edilir.

Kitabxana fondu təkcə kitabxanalar tərəfindən deyil, həmçinin bütün cəmiyyət tərəfindən çox yüksək qiymətləndirilir. Kitabxanalar çox güclü informasiya potensialına malik olduqlarına görə bütün sənəd kütləsi, kitabxana fondları, arxivləri, muzeylər və s. müəssisələr içərisində daha böyük əhəmiyyət kəsb edir.

Kitabxana fondları cəmiyyətdə informasiya resurslarının müasir tərkib hissəsi kimi başa düşülür və qiymətləndirilir. Lakin bu informasiya resursları xüsusi əhəmiyyətli olmaqla mühüm spesifik vəzifələri yerinə yetirir.

Sənədlər hansı tipdə və formada toplanmasından asılı olaraq qeydiyyata alındıqdan sonra fonda daxil olan rəsmi sənəd hesab olunur.

Sənədləşdirilmiş informasiya o vaxt sənəd ehtiyatı (bazası) hesab edilir ki, bu sənədlər bütün formalarda: kağız üzərində, maqnit diskdə, daş üzərində və s. nümunələrdə qəbul oluna bilər. Həmçinin sənədləşdirilmiş informasiya məcburi deyildir ki, hansı formada kitabxanaya daxil olmuşdur. Bütün sənəd formaları və nümunələr sistemdə qeydiyyatdan keçməli, məlumat-axtarış sisteminə daxil edilməlidir.

Fond olmadan kitabxananın özü fəaliyyət göstərə bilməz, belə ki, fond kitabxananın əsasını təşkil edir, onun fəaliyyəti üçün özül hesab olunur.

Fonda görə kitabxana imkan əldə edir ki, özünün sosial vəzifələrini həyata keçirsin. Bütün imkanlardan istifadə etməklə oxucuları tam və əhatəli oxuya cəlb etsinlər. Məzmun və forma baxımdan fondda olan bütün sənədlər onun tipini və növünü əhatə etməklə onun əsas istiqamətlərini müəyyənləşdirir. Daha sonra onu müəyyən edir ki, fondun formalaşması düzgün həyata keçirilir və ya əksinə. Əks əlaqə ondan ibarət olmalıdır ki, ilk növbədə, kitabxana fondu digər elementlərlə yanaşı, bütün kitabxana yarımsistemləri ilə əlaqəli fəaliyyət göstərməlidir.

Kitabxana fondundan istifadə birbaşa istifadəçilərlə bağlıdır. Fondun hərəkəti (kitab verilişi) bütövlükdə fondun fəaliyyətini, sənədlərdən istifadəni reallaşdırır. İstifadəçilərin sayı və onların tələbatı kitabxana fondunun tərkibinə öz təsirini göstərir, həm də kitabxana fondunun yaradılmasında tələbatçıların sorğularını nəzərə almaqla sonrakı proseslər, yəni sənədlərin forması və məzmunu mövcud qaydalara uyğun həyata keçirilir, sistemləşdirilir.

Fonda aid bütün problemlər və göstəricilər istifadəçi kontingenti ilə əsaslandırılır və onların oxucuları və istifadə etdikləri materiallara uyğun hesablanır, yəni oxunuş, sənəd verilişi, sorğuların dolğunluğu, tamlığı və s.

Fondun formalaşmasının müxtəlif problemlərinin həllində oxucuların kitabxanalardan istifadə etməsinin bir sıra nəzəri aspektləri, müxtəlif konsepsiya və anlayışlar, yəni “tələbat”, “maraq”, “sorğu”, “rədd cavabı”, sorğunun strukturu və “onun mürəkkəbliyi”, oxucu marağının müxtəlif aspektli olması nəzərə alınmalıdır.

Fondun idarə olunmasında kitabxana kollektivi demək olar ki, bütün işlərdə iştirak edir. Sənədlə oxucu arasında əlaqəni mütəxəssislər yaradır. Kitabxana işçiləri və sənədlər arasında mütəxəssislərin çox böyük rolu vardır. Mütəxəssislər tələbatçılar üçün uyğun sənədlərin toplanmasında, qaydaya salınmasında, oxucu və sənəd arasında əlaqə yaradılmasında, məlumat-sorğu aparatı vasitəsilə məlumatın seçilib yerləşdirilməsini təmin edir, sənədlərin aktiv və analitik istifadəsinə şərait yaradır. Fondun təşkilində onun nəzəri aspektlərindən danışarkən maddi-texniki bazanın olması çox vacib

məsələlərdən biridir. Xüsusilə fondun avtomatlaşdırılması və mexanikləşdirilməsində onun əhəmiyyəti olduqca böyükdür. Fondun yerləşdirilməsində kitabxana binalarının böyüklüyü, quruluşu və ümumi konfiqurasiyası, texniki vasitələri, texnoloji şərait, komplektləşdirmənin həyata keçirilməsi, uçot kitabişləmə, yerləşdirmə, sənədlərin saxlanılması şəraiti, sifarişlər əsasında sənədlərin tələbatçılara çatdırılması vasitələri, həmçinin tələbatçı kontingentlər üçün kitabxana fondunun açıq təqdim olunması vasitələri, sənədlərin mexanikləşdirilmiş qaydada işlənməsi əl əməyinin aradan qaldırılmasını nəzərdə tutur. Əgər kitabxana fondundan tələbatçılar səmərəli istifadə edirlərsə, ümümi sənəd dövriyyəsi normalara uyğundursa, deməli, kitabxanada bütün informasiya prosesləri müasir tələblər səviyyəsində qurulmuşdur və texnoloji proseslər məqsədəuyğun fəaliyyət göstərir, eləcə də texnoloji sistemin köməyi ilə həm oxucular, həm də tələbatçılar qısa müddət vaxt sərf etməklə öz istəklərinə nail olurlar. Texnoloji fəaliyyətin köməyi ilə əmək məhsuldarlığı yüksəlir. Lazım gəldikdə bütün materiallardan sənədlərin surətini əldə etmək imkanı yaranır. Hazırda kitabxana fondlarının əksəriyyətində fondun dolğunluğu və onun çoxsahəli olması mühüm şərtlərdən biri kimi qiymətləndirilir və oxucular qarşısında fondun məzmunun açılması və onun keyfiyyəti, məzmunun müxtəlif aspektlərinin öyrənilməyə və istifadəyə yararlığını göstərir. Kitabxana fondu və sistemli kataloq arasında əlaqə kitaba verilən indeks və şifrələrlə müəyyənləşir, kitabsaxlayıcı sənədin yerini tapmağa imkan verir.

Beləliklə, kitabxana fondu kitabxananın lazımi elementlərindən biri olmaqla sistem kimi fəaliyyət göstərir, eyni hüquqlu olmaqla digər üç vacib elementlərdən də qarşılıqlı istifadə olunur. Lakin bir məsələni qeyd etməliyik ki, kitabxana fondunun açılmasında və tələbatçılara istənilən sənədin çatdırılmasında kataloq və kartotekalar daha aparıcı struktur olmaqla alt sistem və ya əsas üç elementdən biri kimi daha vacib hesab olunur.

Kitabxana fondu ilə sistemli kataloq arasında əlaqə bilavasitə indeks və sənədə verilən şifrə ilə əlaqələndirilir və kitabsaxlayıcıda sənədin yerini müəyyənləşdirir.

Beləliklə, sənəd, yəni kitabxana fondu məntiqi olaraq digər elementlə və yarımsistemlərlə (alt sistemlərlə) kitabxananın bütün sistemlərini özündə birləşdirir, kitabxana fəaliyyəti bütövlükdə təmin edilir. Bununla da kitabxana bir sistem kimi özünəməxsusluğu ilə digər sosial institutlardan fərqli olaraq bütövləşir, tələbatçılara xidmət göstərmək məqsədilə bütün struktur bölmələr birləşir, əlaqəli şəkildə fəaliyyət göstərir. Belə bir fəaliyyət prosesində kitabxana fondu şöbələr və bölmələr arasında özünəməxsusluğu ilə fərqlənir. Yəni əhatə dairəsinə, fiziki gücünə və fondun tərkibinə, həmçinin obyektinə görə fərqlənir. Kitabxana fondu ərazi baxımından bütün növdən və tipdən olan kitabxanaların ən çox ərazisini tutur. Təxmini hesablamalara görə, ərazinin 35-40%-i təkcə fondun payına düşür. Kitabxana fondu informasiyanın material kimi toplanması, dialektik vəhdətdə fondsaxlayıcı kimi yerləşməsi, fondun

komplektləşdirilməsi, fonddan çıxarılması kimi başa düşülür. Kitabxana fondu həmçinin özündə sənədlərin hərəkət dövriyyəsi və sənəd resurslarını birləşdirir. Kitabxana fondunun yerləşdirilməsində ərazi baxımından (kitabxanadaxili ərazi) kvadrat metrə görə daha çox fondun payına düşür. Təxmini hesablamalara görə, Rusiyada 34.2%, Azərbaycanda isə 40-42% ərazidə fondsaxlayıcı yerləşir.

Bizə elə gəlir ki, respublikanın bütün kitabxanaları üçün kitabxana binaları, xüsusilə respublika əhəmiyyətli kitabxanalar üçün layihələşdirmə zamanı fondsaxlayıcı üçün binanın birinci mərtəbəsində xüsusi reyslər üzərində quraşdırılan, əllə hərəkət edən stellajlar quraşdırılmalıdır. Kitabxana fondu əlaqələndirici, əsas və lazımi struktur elementlərindən biridir və 3 elementdən biri olmaqla sistemi təşkil edən aparıcı qurum hesab olunur. O, kitabxana kontingentini, tələbatçıları, kitabxana personalını özündə birləşdirir və maddi-texniki bazanın struktur elementləri ilə funksiya proseslərini bütün elementlər üzrə idarə olunmasını birbaşa yerinə yetirir. Fondun struktur quruluşu dedikdə onun bütün elementləri, yəni fondun anatomiyası başa düşülür. Yəni bütün elm sahələri üzrə ədəbiyyatın toplandığı məkan təsəvvürə gətirilir. Fondun daxilində ikinci bir struktur elm sahələri ayrı-ayrı bölmələrdən ibarət olmaqla sistemləşdirilir, bir sıra kitabxanalarda elektron versiyada bu sahələr kodlaşdırılır və avtomatik axtarış sistemi yaradılır, axtarış kompüter vasitəsilə aparılır. Digər kitabxanalarda isə hansı ki, elektron kitabxanalar yaradılmamışdır - onlarda axtarış sistemi kataloq vasitəsilə həyata keçirilir və axtarış aparılır.

Kitabxana fondu bir sistem kimi formalaşaraq yarımsistemləri, müxtəlif elm sahələri üzrə sənəd toplusunu birləşdirərək ümumi kitabxana fondunu yaradır, yəni sənəd sahələrini özündə birləşdirir. Bütövlükdə fondda olan bütün elementlər və yarımsistemlər arasındakı əlaqələr struktur adlanır. Bu struktur bir növ fondun anatomiyası adlanır və fondun qaydaya salınmasına və inkişafına xidmət edir. Fondun düzgün struktur quruluşunun düzgün təşkilindən kitabxanaların işinin müvəffəqiyyətli olması xeyli asılıdır. Xüsusilə indiki zamanda kitabxanalarda yeni texnologiyaların tətbiqi kitabxanalarda yeni proqramların köməyi ilə informasiya sistemlərinin avtomatlaşdırılması zamanı fondun ayrı-ayrı elementlərinin, bütövlükdə onun struktur quruluşunun düzgün qurulması olduqca vacibdir və fondun struktur elementlərinin düzgün yerləşdirilməsi bütün kitabxanaların fəaliyyətinə müsbət təsir edə bilər.

Azərbaycan kitabxanalarında qeyd olunan fondun struktur quruluşunun eynitipli olması olduqca vacib məsələlərdəndir.

Görkəmli kitabxanaşünas alim Y.N.Stolyarovun fikrincə, sistemli yanaşmanın bütün şərtləri kitabxana fonduna da aid oluna bilər. Ona görə ki onun xarici görünüşü, digər tərəfdən fondun özü yarımsistemlərə və elementlərə bölünür. Həm də ona görə ki kitabxana fondu açıq sistem kimi müstəqil struktura malik olmaqla öz əlaqələri və funksiyalarına uyğun

fəaliyyət göstərir (1,s.5). Sənədlərdən ibarət olan yarımsistemlər fondun tərkib sistemi kimi özü bütövlükdə kitabxana fondu adlanır.

Kitabxana fondunun strukturunun düzgün quruluşu kitabxanaların bütün proseslərinin həyata keçirilməsinə olduqca müsbət təsir göstərir, axtarış sistemlərini asanlaşdırır, fondun formalaşması texnologiyasını tənzimləyir, nəinki bir kitabxananın, hətta bir tipli kitabxanaların fəaliyyətinə müsbət təsir göstərir. Son dövrlərdə kitabxana fondu mütəxəssislər tərəfindən haqlı olaraq sənəd fondu kimi işlədilir. Bir sıra rus alimləri sənəd sözünü bir termin kimi öz əsərlərində daha çox işlədirlər. Xüsusilə kitabxana fondları fikrini sənəd fondları kimi işlədirlər. Doğrudan da sənəd fondu müəyyən sənədləri və materialları əhatə edir, sənəd material kimi təqdim edilir, özünün varlığını bildirir.

Bütün kitabxana fondları faktiki olaraq material kimi özündə informasiyanı əks etdirir. Bəzən fondsaxlayıcısı fondun hərəkətini, fonddan istifadəni, əsasən, terminlərlə ifadə edir. Kitabxana fondu özlüyündə eyni zamanda oxucu və sənəd resurslarını əks etdirir.

Bir sıra görkəmli kitabxana mütəxəssisləri kitabxana fondunu çox mürəkkəb bir proses adlandırırlar. Əlbəttə, fondun bütün mahiyyətini, məzmununu və strukturunu diqqətlə nəzərdən keçirdikdə bu qənaətə gəlmək olur ki, bu proseslər, doğrudan da, çox mürəkkəb proseslərdir və kitabxananın əsas strukturlarından biridir. İlk növbədə, kitabxana fondu sənəd resurslarından istifadəyə şərait yaradır. (5,s.200).

Birinci növbədə, sənəd kommunikasiyalarına müraciət edilməsi və fiziki olaraq həmin sənədlərin əldə edilməsi, fonddan götürülməsi, ikincisi isə müəyyən kitabxana fondlarından telekommunikasiyalar vasitəsilə sənədlərlə tanış olur və məsafədən istifadə etməklə sənədlər əldə edilir.

Kitabxana fondu, demək olar ki, bütöv kitabxana sistemində başqa bir sıra yarımsistemləri özündə birləşdirir, ilk növbədə, tələbatçı kontingentini, kitabxana işçilərini, maddi-texniki bazanı və digər yarımsistemləri özündə birləşdirir.

Fondun formalaşması baxımından məlumat-axtarış aparatının təşkili də mühüm əhəmiyyət kəsb edir. Beləliklə, qeyd etmək lazımdır ki, kitabxana fondu bütün yarımsistemlər və strukturlarla əlaqəli fəaliyyət göstərir.

Bir məsələni qeyd etmək lazımdır ki, kitabxana fondunda olan sənədlərin sayından və onun məzmunundan asılı olaraq oxucuların tərkibinə və onların ixtisasına güclü təsir göstərir.

Belə olan təqdirdə kitabxana işçilərinin qarşısında mühüm vəzifə müəyyənləşir. Kitabxanada fondun komplektləşdirilməsi üçün optimal şərait yaratmaq və fondun qorunması və ya saxlanması üçün, həm də istifadəsi üçün lazımlı şərait yaratmaqdan ibarət olmaqdır. Son illərdə dünya kitabxanalarında elektron kitabxanalar yaradılmış və sözsüz ki, onlar elektron sənədləri toplayır və elektron kataloqlardan istifadə edirlər. Azərbaycan Respublikasında da elektron sənədlərdən istifadə olunur. Doğrudur, bu sistemin yaradılması

özünün formalaşma dövrünü yaşayır. Respublika əhəmiyyətli bir neçə kitabxanalarda bu sahədə müəyyən işlər görülsə də, inkişaf etmiş ölkələrdə olduğu kimi mükəmməl qaydada tələbatçıların sorğularını ödəmək imkanlarına malik deyillər. Uzun müddət vaxt keçməsinə baxmayaraq, kitabxana proseslərinin avtomatlaşdırılması və yeni texnologiyanın tətbiqi olduqca ləng inkişaf etdirilir. Bizə belə gəlir ki, respublika səviyyəsində innovativ tədbirləri həyata keçirməli bir qurum yaradılmalı, bu quruma müəyyən səlahiyyətlər verilməklə məsul şəxslər bu işə güclü təkan verməlidirlər.

**Ədəbiyyat**


1. Həsənov M.M. Kitabxana resurslarının qorunmasının bəzi məsələləri. Elmi əsərlər: kitabxanaşünaslıq və biblioqrafiya seriyası, BDU, 1979.-s.16-27
2. Həsənov M.M. Kitabxana fondunun yaranması formalaşması və idarə edilməsi.-Dərs vəsaiti.-B.; 2004, 143 s.
3. Маестрович Ф.В Електронный документ библиотеке: научно методическиий пособий пособия Н.Либерия – бибинформ, 2007. - 1939 с.
4. Столяров У.Н. Формирование библиотечного фонда: Санкт-Петербург: Профессия, 2015. - с. 34-76
5. Гриханов У.А. Бибилиотечные фонд: стратегия развития. - Монографиия, Москва: Расков дом. - 2008. - 144 с.
6. Менеджмент формирования и учота библиотечных фондов: современный подход. Прак.пособие. Москва: Литература, 2012. - 300 с.
7. Столяров У.Н. Эволюция бибилотечного фонда введения. Москва: Издательство «Фаиг». -2007. - 688 с.
8. Григорев Ф Н. Теоретическоеосноиы формирования библиотечных фондов. - М. МГУК, 1973. - 88 с.
9. Морева О.М. Документные фонды библиотек и информационных - Санкт-Петербург: Профессия, 2010. - с. 90-116

# AZƏRBAYCAN RESPUBLİKASININ NƏŞRİYYAT SİSTEMİ VƏ ONUN PROBLEMLƏRİ

***Bayram Allahverdiyev***
*Kitabşünaslıq və Nəşriyyat işi kafedrası*
*professoru, tarix üzrə elmlər doktoru*

***Проблемы издательская система в Азербайджанской Республике***
***Резюме:*** *В данной статье рассказывается, как с начиная с XIX века поставлена издательское дело, которая развивается по сей день и превращается в систему. Одновременно, освящается проблемы издательской системы в Азербайджане.*
***The publishing system of Azerbaijan Republic and its problems***
***Abstract:*** *The creation, development and transformation of the system the publishing houses since XIX century to the present time are reflected in the article "The publishing system of Azerbaijan Republic and its problems". At the same time the problems of publish ing system of Azerbaijan Republic highlighting in the article.*

***Açar sözlər:*** *mətbəə, nəşriyyat, kitab, sistem, inkişaf.*
***Ключевые слова:*** *типография, издательство, книга, система, развитие.*
***Keywords**: printing, publishing house, books, systems, development.*

Nəşriyyatların fəaliyyəti nəşriyyat işinin kompleks məsələlərini özündə cəmləşdirir. Nəşriyyatların əsas fəaliyyəti müxtəlif növlü çap əsərlərini: kitab, qəzet, jurnal, not, təqvim, təsviri sənət nəşr etməkdən ibarətdir.

Nəşriyyat işi milli mədəniyyətin ən vacib sahəsidir. Nəşriyyatlar tarixən insanlara, daha geniş mənada cəmiyyətə xidmət edir.

Azərbaycanda dövlət və özəl nəşriyyatlar yaranmış və sistemə çevrilmişdir. Dövlət və özəl nəşriyyatlarla bərabər müxtəlif elmi idarələr, müəssisələr, universitetlər və sair də çap məhsulunun buraxılmasında və inkişafında fəal iştirak edirlər.

Bütövlükdə nəşriyyat sisteminin əsas vəzifəsi cəmiyyətin müxtəlif növlü, tipli və nəşr tipli çap nəşrlərinə daim artan tələbatını ödəməkdən ibarətdir.

Nəşriyyatların müəyyən hissəsi dövlət tərəfindən maliyyələşdirilir və tənzimlənir.

Nəşriyyatların çox böyük hissəsi özünü maliyyələşdirməklə fəaliyyət göstərir.

Ölkəmizdə fəaliyyət göstərən nəşriyyat sisteminin fəaliyyəti insanlara, müəyyən mənada oxuculara, daha geniş mənada cəmiyyəti yüksək ideyanı, dərin elmi səviyyəsi, zəngin məzmunu olan, milli və bəşəri dəyərlərə cavab verən nəşrlərlə təmin etməyə istiqamətlənmişdir.

Azərbaycan Respublikasının nəşriyyat sisteminin özünəməxsus spesifik xüsusiyyətləri vardır.

Nəşriyyatlar çapdan buraxdıqları müxtəlif növlü, tipli və nəşr tipli kitab və kitabçalarla cəmiyyətdə insanların tərbiyəsi və əxlaqının formalaşmasında, dünyagörüşünün zənginləşməsində və inkişafında böyük rol oynayır.

Nəşriyyatların fəaliyyətlərinin digər bir istiqaməti elmin və mədəniyyətin, habelə təhsilin təşkilinə və inkişafına istiqamətlənmişdir.

Nəşriyyatların müəyyən hissəsinin strukturu redaksiyalar əsasında fəaliyyət göstərir. Bu redaksiyalar çap məhsulunun nəşrə hazırlanmasını və buraxılmasını təşkil edir. Redaksiyaların mövcudluğu və fəaliyyəti kitab çeşidinin zənginləşməsinə güclü təsir göstərir.

Bu da öz növbəsində müəyyən qədər nəşriyyatların rentabelli işləməsinə kömək edir.

Əlbəttə, nəşriyyatlar uzun bir dövr ərzində inkişaf edərək sistemə çevrilib.

Azərbaycanda və dünya ölkələrində kitaba olan tələbat tədricən artmağa başlamışdır.

Bu proses XV-XVI əsrlərdə başlanmış, sonrakı dövrlərdə daha da genişlənmişdir.

Müxtəlif məktəblərin: ümumtəhsil, sənət, ali və s. artması və tədricən məktəblər şəbəkəsinin genişlənməsi kitaba tələbatın yaranmasını və tədricən artmasını şərtləndirmişdir. Bu vəziyyət dünya ölkələrində, o cümlədən Azərbaycanda kitab nəşrinin təşkilini və inkişaf etdirilməsini qarşıya qoymuşdur.

Bu vəziyyət mətbəələrin çoxalmasını, iri mətbəələrin nəşriyyatlara çevrilməsini zərurətə çevirmişdir.

İri mətbəələrin nəşriyyatlara çevrilməsi ilə bərabər, XVIII əsrdən dünya ölkələrində müstəqil nəşriyyatlar da meydana gəlmiş və tədricən sürətlə inkişaf etməyə başlamışdır.

XIX əsrdən nəşriyyatlar universal və sahəvi olmaqla iki istiqamətdə yaranmış və inkişaf etmişdir.

XVIII və XIX əsrlərdə nəşriyyatlarla bərabər, mətbəələrdə kitab nəşrinin həyata keçirmişlər.

Azərbaycanda da mətbəələr və nəşriyyatlar kitab nəşrini həyata keçirmişlər. Azərbaycanda mətbəələr XIX əsrin II yarısından fəaliyyətə başlamışdır. 1900-cü ildə yalnız Bakı şəhərində 16 mətbəə fəaliyyət göstərmişdir.

Azərbaycanda XX əsrin əvvəllərindən iri mətbəələr və bir universal nəşriyyat (Orucov qardaşlarının nəşriyyatı) müxtəlif elm sahələrinə aid müxtəlif tiplərdə və janrlarda kitab nəşrini həyata keçirmişlər.

İri mətbəələr sırasında Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadənin "Qeyrət" (1905-ci il aprelin 22-də işə başlamışdır), H.Z.Tağıyevin "Kaspi", H.Vəzirovun "Sədа", İsabəy Aşurbəyovun "Kaspi" (H.Z.Tağıyevə məxsus olan bu "Kaspi" mətbəəsini İsabəy Aşurbəyov 6 il müddətinə icarəyə götürüb (1912-ci ildən) mətbəəsini və s. qeyd etmək olar.

Bu iri mətbəələrin hər biri müxtəlif elm sahələrinə və müxtəlif kitab tipləri üzrə 50-yə qədər adda kitab nəşr etmişlər.

Orucov qardaşlarının nəşriyyatı isə 1906-1919-cu illərdə fəaliyyət göstərmiş və müxtəlif elm sahələrinə dair 333 adda kitab və kitabça, 18 adda dövrü mətbuat (jurnal və qəzet) çap etmişdir (1336-89). Nəşriyyatın çap etdiyi kitablar müxtəlif dillərdə: Azərbaycan, ərəb, fars və rus - olmuşdur.

Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər dövrdə nəşriyyat sistemi çox bir neçə iri mətbəə ("Qeyrtə", "Səda", "Kaspi" və s.) və xeyli sayda kiçik (cəmi 20-yə qədər) mətbəə fəaliyyət göstərirdi. Həmin dövrdə yalnız bir universal nəşriyyat (Orucov qardaşlarının nəşriyyatı) var idi.

Nəşriyyat sistemi Azərbaycanda Sovet hakimiyyəti illərində formalaşmış (1920-1940-cı illərdə) və inkişaf etmişdir (1940-1990-cı illər).

Azərbaycanda nəşriyyat sisteminin formalaşması və inkişafı kitab nəşrinə, onun inkişaf etməsinə güclü təsir göstərdi. Təkcə belə bir faktı qeyd etmək kifayətdir ki, 1970-1980-ci illərdə Azərbaycanda hər il müxtəlif elm sahələri üzrə müxtəlif növlərində, tiplərində və nəşr tiplərində, müxtəlif seriyalarda 1200-1300-dən çox adda, 14-15 milyon nüsxə kitab və kitabça nəşr edilirdi.

Nəşriyyat sisteminə dövlət qayğısı onun inkişafına və möhkəmlənməsinə əsaslı təsir göstərir.

1998-ci ilin avqust ayında Prezident Heydər Əliyevin dövrü mətbuata senzura nəzarətinin ləğv edilməsi haqqında sərəncamın nəşriyyat sisteminə daxil olan bütün nəşriyyatların fəaliyyətlərinin genişlənməsinə kömək etdi.

Nəşriyyatların sərbəst fəaliyyət göstərməsinə imkan verdi. Bu sərəncam kitabın məzmununa, onun rəngarəngliyinə müsbət təsir göstərdi.

Müasir dünyada kitab nəşri daha da genişlənir. Cəmiyyətdə yeni problemlər artır. Belə vəziyyət öz növbəsində kitabın məzmununa və mövzusuna, onun genişlənməsinə əsas olur. Nəticədə yeni hadisələrə, yeni mövzulara aid yeni əsərlər meydana gəlir. Yeni mövzulara aid əsərləri nəşriyyatlar çapdan buraxır. Beləliklə də yeni nəşrlər, kitablar oxuculara yeni biliklər, məlumatlar çatdırır.

Dünya ölkələrində, o cümlədən Azərbaycanda redaksiya-nəşriyyat prosesinin genişlənməsi, nəşriyyat fəaliyyətinin güclənməsi, özəl nəşriyyatların yaranması və inkişaf etdirilməsi, dövrün qarşıya qoyduğu aktual tələblərdir. Bu prosesi nəzərə alan Heydər Əliyev nəşriyyatların inkişaf etdirilməsini vacib hesab edirdi.

Azərbaycanın Prezidenti Heydər Əliyevin aşağıdakı sərəncamı bu mənada xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyinin (indi fəaliyyət göstərmir) tabeçiliyində olan bir sıra müəssisələrin özəlləşdirilməsi haqqında Azərbaycan Respublikasının keçmiş Prezidentinin sərəncamında deyilir: "İqtisadiyyatın liberallaşdırılması, sahibkarlığın genişləndirilməsi və investisiyaların cəlb olunması yolu ilə iqtisadiyyatın daha sürətlə inkişafına

nail olmaq və onun səmərəsinin artırılmasını təmin etmək məqsədilə və “Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı”na uyğun olaraq qərara alıram:

1. Azərbaycan Respublikası Mətbuat və İnformasiya nazirliyinin tabeçiliyində olan aşağıdakı müəssisələr özəlləşdirilməyə açıq elan edilsinlər:

– “İşıq” nəşriyyatı;
– “Şərq-Qərb nəşriyyatı;
– “Yazıçı” nəşriyyatı;
– İstehsalat, təchizat və satış idarəsi;
– Sumqayıt icra mətbəəsi;
– Lənkəran mətbəəsi;
– Bərdə rayon poliqrafiya mətbəəsi;
– Yevlax rayon icra mətbəəsi;
– Mingəçevir poliqrafiya mətbəəsi;
– Şəki icra mətbəəsi və s. (2, 6).

Heydər Əliyevin kitab və kitabçılıq işinin inkişafı ilə əlaqədar qəbul etdiyi bir sıra digər sərəncamlarda kitab nəşrinin genişlənməsinə, nəşriyyatların inkişaf etdirilməsinə təkan verdi.

Müstəqillik dövründə nəşriyyatların yenidən qurulması, nəşriyyat və poliqrafiya müəssisələrinin özəlləşdirilməsi kitab nəşrinin genişlənməsinə imkan verdi. “Kitabxana işi haqqında” (25 dekabr 1998-ci il); “Nəşriyyat işi haqqında” (30 may 2000-ci il) və s. qəbul edilmiş prezident sərəncamları kitab nəşrinin genişlənməsində, nəşriyyatların fəaliyyətlərinin təşkilində və inkişaf etdirilməsində böyük əhəmiyyət kəsb etdi.

“Nəşriyyat işi haqqında” Azərbaycan Respublikasının Qanununun (30 may 2000-ci il) nəşriyyat işi sahəsində dövlət siyasətinin əsas prinsipləri: nəşriyyat işi sahəsində sərbəstliyin təmin edilməsi; nəşriyyat işinin maddi-texniki bazasının, təşkilati və hüquqi elmi əsaslara söykənməsi; milli kitab nəşrinin inkişafına yardım edilməsi; nəşriyyat işinin inkişafına dair dövlət proqramının hazırlanması və həyata keçirilməsi; Azərbaycan xalqının klassik irsi və milli-mənəvi sərvətləri sayılan əsərlərin dövlət sifarişi əsasında nəşrinin həyata keçirilməsi; nəşriyyatın maddi-texniki bazasının genişləndirilməsinin, poliqrafiya sənayesinin inkişafının, nəşriyyat məhsullarının satılmasının stimullaşdırılması və s. respublikamızda nəşriyyat fəaliyyətinin hərtərəfli inkişafına kömək etdi.

Nəşriyyatlara dövlət qayığısı özəl nəşriyyatların yaranmasına və inkişafına təsir göstərdi.

İndi respublikamızda 400-dən çox nəşriyyat qeydiyyatdan keçmişdir. Bu nəşriyyatlardan 200-ə qədəri geniş fəaliyyət göstərir (6,5).

İndi Azərbaycanda hər il təxminən müxtəlif elm sahələrinə dair 5000 addan çox kitab və kitabça nəşr olunur.

Son illərdə latın qrafikalı nəşrlər hesabına kitabxanaların fondlarının zənginləşdirilməsində xeyli əhəmiyyətli iş görülmüşdür. Bu işlər Prezident

İlham Əliyevin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 2004-cü il 12 yanvar tarixli sərəncamından sonra həyata keçirilmişdir. Sərəncama əsasən son illərdə 400 adda 10 milyondan çox ədəbiyyat nəşr edilərək ölkə kitabxanalarına hədiyyə olunmuşdur.

Prezident İlham Əliyevin 150 cildlik “Dünya ədəbiyyatı kitabxanası” seriyasının buraxılmasına dair sərəncamı kitab və kitabçılıq işinə dövlət qayğısının təzahürüdür.

Azərbaycan Respublikasının nəşriyyat sisteminin inkişafı və genişləndirilməsi sahəsində əldə edilən bu nailiyyətlərlə yanaşı, bəzi problemlər və çatışmazlıqlar da vardır. Onlar aşağıdakılardır:

- Azərbaycan Respublikasının nəşriyyat sistemində nəşriyyatların əsaslı şəkildə ixtisaslaşdırmasının zəruriliyi.
- Müxtəlif elm sahələrinin, aktual problemləri, mövzuları üzrə kitabların tirajının artırılmasının həyata keçirilməsi;
- Nəşriyyatların fəaliyyətilərinin yaxşılaşdırılması, onların arasında əlaqənin (koordinasiyanın) yaradılması:
- Kitab nəşrində disproposiyanın aradan qaldırılması;
- Azərbaycan kitabının dünya standartlarına uyğun şəkildə buraxılması təşkilinin zəruriliyi;
- Kitabların buraxılmasında nəşriyyat standartlarının həyata keçirilməsinin vacibliyi;
- Mətbuat və kitab statistikasının təşkilinin həyata keçirilməsi;
- Nəşriyyatların, (əsasən) özəl nəşriyyatların bir neçəsinin birləşərək kitab mağazası açmaqla kitab yayımının təşkilinin həyata keçirilməsi;
- Nəşriyyatlar öz kitab məhsulunu təbliğ və yaymaq üçün nəşriyyat və kitab ticarəti kataloqlarının buraxılmasına səy göstərmək;
- Kitabın təbliği və redaktəsi üçün kütləvi informasiya vasitələrində radio və televiziyadan, hətta internetdən, sosial şəbəkələrdən istifadə edilməsinin təşkili və s.
- Zaman tələb edir ki, hər bir oxucunun zövqünə, bilik səviyyəsinə, tələbatına uyğun kitab nəşr edilsin.

Bu qeyd edilən problemlər aradan qaldırılarsa, nəşriyyatların işində, ümumiyyətlə Azərbaycan Respublikasının nəşriyyat sistemində daha böyük nailiyyətlər əldə etmək olar.

Belə olan tərzdə Azərbaycan kitabı öz funksiyalarını lazımi səviyyədə yerinə yetirə bilər.

**Ədəbiyyat**


1. Allahverdiyev B.V. Azərbaycan kitab nəşri mədəniyyəti 1920-1940-cı illərdə (elmi-texniki ədəbiyyatın nəşri üzrə)// “Dil və ədəbiyyat” beynəlxalq elmi-nəzəri jurnal, 2006, №6 (54), s.162-167.
2. Allahverdiyev B.V. Heydər Əliyev və Azərbaycan kitab nəşri mədəniyyəti// Kitabşünaslıq və nəşriyyat işi: elmi-nəzəri və təcrübi jurnal, 2008, № 2, s.3-15.

3. Allahverdiyev B.V. Azərbaycan kitab nəşri problemləri (1920-1940-cı illər)// Kitabşünaslıq və nəşriyyat işi: elmi-nəzəri və təcrübi jurnal, 2010, № 1, s.18-38
4. Allahverdiyev B.V. Bakı Dövlət Universitetinin nəşriyyatçılıq fəaliyyəti. – Bakı: UniPrint, 2010. -144s.
5. Allahverdiyev B.V. "Azərbaycan" nəşriyyatının kitab və dövri mətbuat nəşrində yeri// Kitabşünaslıq və nəşriyyat işi: elmi-nəzəri və təcrübi jurnal, 2009, №1, s.26-33.
6. Allahverdiyev B.V. Müstəqillik şəraitində kitabçılıq işinin müasir problemləri// Kitabşünaslıq və nəşriyyat işi: elmi-nəzəri və təcrübi jurnal, 2011, №2, s.3-10.
7. Allahverdiyev B.V. Nəşriyyat sistemi Azərbaycan kitabının seriyalı nəşrləri// Kitabşünaslıq və nəşriyyat işi: elmi-nəzəri və təcrübi jurnal, 2010, №2, s.28-40.
8. Allahverdiyev B.V. Azərbaycan kitab nəşri mədəniyyəti (1941-1960-cı illərdə) (elmi-texniki ədəbiyyatın nəşri üzrə)// Kitabşünaslıq və nəşriyyat işi: elmi-nəzəri və təcrübi jurnal, 2012, №1, s.10-31
9. Azərbaycan kitabı: (biblioqrafiya): 3 cilddə. I c. 1780-1920. Bakı: Azərbaycan SSR kitab palatası, 1963, 219 s.
10. Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (12 yanvar 2004-cü il)// "Respublika" qəz., 2004, 13 yanvar.
11. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2004-cü ildə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısı// çapı nəzərdə tutulan əsərlərin Siyahısı// "Respublika" qəz., 2004, 13 yanvar.
12. Birinci Bakı kitab sərgi-yarmarkasında 20 ölkənin çap məhsulları nümayiş etdirilir// "Xalq qəzeti" qəz., 2009, 11 sentyabr.
13. Əfəndiyev Ə. Əliyeva Z. Orucov qardaşlarının mətbəəsi. Bakı: Qartal, 1999, 98 s.
14. Nəşriyyat işi haqqında Azərbaycan Respublikasının Qanunu (30 may 2000-ci il)// Azərbaycan Respublikasının Qanunlar külliyyatı. III Kitab. – Bakı: Qanun, 2001, 501-559 s.
15. Zeynalov Ə. XX əsrin əvvəllərində Azərbaycanda kitab nəşri (Orucov qardaşları nəşriyyatının fəaliyyəti. Bakı: Azərbaycan, 1997, 90 s.

# ARXİV MATERİALLARININ TƏSVİRİ BİBLİOQRAFİK İNFORMASİYA MƏNBƏYİ KİMİ

***Sima İsmayılova***
*BDU, Biblioqrafiyaşünaslıq kafedrası, Dosent*
*simabdu@email.ru*

***Описания архивных материалы как источник библиографической информации***
***Резюме:*** *В статье рассматривается общая характеристика архивные дело, описание архивных документов как источник библиографической информации.*
***Description of archival documents as a source of bibliographic information***
***Abstract:*** *This paper discusses the general characteristics of archival activity, and description of archival documents as a source of bibliographic information.*

***Açar sözlər:*** *Arxiv işi, biblioqrafiya, biblioqrafik informasiya mənbəyi, arxiv materiallarının təsviri.*
***Ключевые слова:*** *Архивные дело, библиография, источники библиографической информации, описание архивние документов.*
***Keywords:*** *Archival activity, bibliography, bibliographic information source, description of archival documents.*

Azərbaycanda ədəbi-bədii biblioqrafik informasiya sisteminin zənginləşməsində arxiv sənədlərinin biblioqrafik göstəricilərinin xüsusi yeri vardır. Ədəbiyyatşünaslığın elmi-köməkçi biblioqrafiyasının bir tipi olan arxiv sənədlərinin biblioqrafik göstəriciləri respublikamızda 1950-1960-cı illərdə görkəmli şair və yazıçıların yaradıcılığına həsr edilmişdir. Arxiv sənədlərinin biblioqrafik göstəricilərinin tərtibi metodikası digər biblioqrafik göstəricilərin biblioqrafiyalaşdırılmasından əsaslı şəkildə fərqlənir. Arxiv sənədlərinin biblioqrafik mənbələrinin yaradılmasında daha çox həmin şəxsin şəxsi arxivinə müraciət olunur, ancaq onun tərcümeyi-halı, əsərləri deyil, əlyazmaları, xatirələri, yazışmaları, məktubları, əsərlərinə verilmiş rəylər, fotoşəkilləri daxil edilir. Arxiv sənədlərinin təsviri mütəxəssis tələbatçı sorğularının ödənilməsində zəngin biblioqrafik informasiya mənbəyi kimi əhəmiyyətlidir.

Arxiv sənədlərinin biblioqrafik təsvirinə dair ilk nümunə 1955-ci ildə görkəmli dramaturq M.F.Axundova həsr edilmişdir. "M.F.Axundov arxivinin təsviri" həm rus, həm də Azərbaycan dilində çap olunmuş biblioqrafik göstəricinin müəllifi Ağəli İbrahimov olmuşdur. (1)

1961-ci ildə müəllifi Mərziyə Paşayeva olan "Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) arxivinin təsviri", Cənnət Nağıyevanın müəllifi olduğu "S.S.Axundov arxivinin təsviri" 1962-ci ildə, "Cəfər Cabbarlı arxivinin təsviri" adlı vəsait isə 1965-ci ildə Mərziyə Paşayevanın tərtibi ilə çap edilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının M.Füzuli adına Əlyazmalar İnstitutunda nadir, qədim əlyazmaları və çap kitabları ilə yanaşı, Azərbaycan

xalqının görkəmli alim, yazıçı və şairlərinin zəngin arxivləri də vardır. Bu arxivlər içərisində Azərbaycan dramaturgiyasının banisi, böyük mütəfəkkir M.F.Axundovun arxivi öz zənginliyi və səliqəsi ilə diqqəti cəlb edir. Arxivdə 1300-dən artıq material əhatə edilmişdir. Bu materialların əksəriyyətini müəllif özü səliqəyə salmış, onların gələcəkdə elmi-tədqiqat üçün lazım olacağını nəzərə alaraq bir neçə dəfə üzünü köçürmüş və bəzi materialları ayrıca dəftər şəklində tərtib edərək öz arxivinə son dərəcə yüksək qayğı ilə yanaşaraq mühafizə etmişdir. M.F.Axundov arxivinin təsviri, müəyyən bölmələr üzrə, əlifba sırası ilə, materiallar xronoloji qaydada tərtib edilmişdir.

M.F.Axundov bütün dramlarını özü toplayaraq onları "Təmsilat" adı ilə bir cild içərisində yazdırmış və çapa hazırlamışdır. Sonralar həmin tərtib üzrə "Təmsilat" həm rus, həm də fars dilinə tərcümə edilmişdir. "Təmsilat"ın əvvəlində teatrın əhəmiyyəti, Azərbaycan dilinin imlası və aktyorların danışıq qaydaları haqqında M.F.Axundovun məşhur qeydləri vardır.

Yazıçının arxivində onun "Hindistan şahzadəsi Kəmallüdövlənin öz dostu İran şahzadəsi Cəlalüddövləyə üç məktubu və Cəlalüddövlənin ona cavabı" adlı fəlsəfi əsəri, "Aldanmış Kəvakib" adlı hekayəsi, "Bir İranlı tacir ilə müsahibə" və sair nəsr əsərlərinin əlyazmaları vardır. Arxivdə "Kəmalüddövlə məktubları"nın Azərbaycan dilində iki, fars dilində beş, rus dilində bir (cəmi səkkiz) nüsxəsi vardır.

M.F.Axundov "Kəmallüddövlə məktubları" əsərinin əhəmiyyəti haqqında öz dostlarına və dövrünün qabaqcıl alimlərinə məktublar yazmış və bu əsərin bir çox nüsxələrini köçürtdürüb onlara göndərmişdir. Həmin əsər rus dilində nəşr edildikdən sonra M.F.Axundov onu öz xərci ilə fransız, ingilis və alman dillərinə də tərcümə etdirmişdir.

M.F.Axundovun arxivində "Aldanmış Kəvakib" hekayəsinin dörd nüsxə əlyazması saxlanılır ki, onların ikisi rus, ikisi isə Azərbaycan dilindədir.

Arxivdə olan sənədlərdə Axundovun bəzi kiçik qeydləri də vardır ki, bunlar olduqca boyük əhəmiyyətə malikdir. Məsələn, bu qeydlərdən birində M.F.Axundov qadınlara rus dilini öyrənməyin lazım olduğundan danışır (inv.№139). Gələcəkdə mühüm bir əsərin mövzusu ola biləcək belə qeydlərdə M.F.Axundov "Qadın azadlığı" (inv. №13), "Din və fanatizm əleyhinə" (inv. №292), "Dram əsərlərinə dair" (inv. №251), Cənubi Azərbaycanda (Savalan dağında) filiz mədənləri və onlardan isifadədən bəhs etmişdir.

M.F.Axundovun müxtəlif şəxslərə, görkəmli dövlət xadimləri və nüfuzlu adamlara yazdığı məktublar öz miqdarı və məzmunu etibarilə arxivin mühüm hissəsini təşkil edir. Arxivdə olan məktublardan Axundovun öz ideyaları uğrunda mübarizədə son dərəcə inadkar və barışmaz bir mütəfəkkir olduğu anlaşılır. Arxivdə M.F.Axundovun müxtəlif şəxslərə yazdığı 154 məktubun surəti saxlanılır. Məktubların məzmunları Axundovun əsas mübarizə məsələlərinin həllinə xidmət edir. Bunların içərisində onun ən çox öz məsləkdaşı Mirzə Məlkumxana məktub yazdığı görünür. Mirzə Məlkumxana yazdığı məktublardan 23-nün surətini Axundov öz arxivində saxlamışdır.

Arxivdə Axundova gələn 124 məktubun əsli və surətləri vardır. Müxtəlif şəxslərdən gələn bu məktublarda Axundovun böyük bir alim və müəllim olduğu təsdiq edilir.

Arxivdə həmçinin Axundovun müxtəlif idarələrə yazdığı ərizə və təliqələrin surətləri, şəxsən özünə, ailəsinə aid çoxlu sənəd, foto şəkillər vardır ki, bu sənədlər müəllifin həyat və fəaliyyətini öyrənmək işində böyük əhəmiyyətə malikdir. M.F.Axundovun arxivində onun öz əli ilə yazdığı tərcümeyi-halı və tərcümeyi-halına dair pərakəndə qeydləri də vardır (inv. №490). Onun əmək kitabçasında (inv. №865) 1834-cü ildən ömrünün sonuna qədər harada, nə vəzifədə işlədiyi göstərilmişdir. Arxivdə yaxşı işlədiyinə görə Axundovun rus dövlətindən aldığı orden vəsiqələri və s. şəhadətnamələr də vardır ki, bunlar Mirzə Fətəlini hələ öz dövründə nə qədər yüksək hörmətə malik olduğunu sübut edir.

"M.F.Axundov arxivinin təsviri" adlı vəsaitin daha bir əhəmiyyətli cəhətlərindən biri odur ki, M.F.Axundov arxivində Azərbaycan, rus və Şərq dillərində saxlanılan kitabların müəllifi, yazılma və ya çap olunduğu il və inventar nömrəsi göstərilməklə təsviri verilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının M.Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə edilib saxlanılan və öz mükəmməlliyi, səliqəsi ilə seçilən arxiv sənədlərindən biri də görkəmli yazıçı Y.V.Çəmənzəminlinin arxiv materiallarıdır. Y.V.Çəmənzəminlinin arxiv materialları ona görə qiymətlidir ki, buradakı əlyazmaların əksəriyyətini müəllifin avtoqrafları təşkil edir. Cənnət Nağıyeva tərəfindən tərtib edilmiş "Yusif Vəzir Çəmənzəminli arxivinin təsviri" adlı bu qiymətli vəsait 1999-cu ildə nəşr edilmişdir. (2)

Şəxsi arxiv tərtib etmək işini Y.V.Çəmənzəminli yazıçının birinci və ən vacib işi, yazıçı mədəniyyətinin meyarı hesab edirdi. Arxiv yaratmaq işinə laqeydlik göstərən Azərbaycan yazıçı və şairlərinin səhlənkarlığını tənqid edən ədib bu sahədə ilk təşəbbüskar olan M.F.Axundovun səyini təqdirəlayiq hesab edərək onun arxivi ilə yaxından tanış olmuş və özü də arxiv yaratmaq niyyəti ilə bütün əlyazmalarını və şəxsi sənədlərini bir yerə toplamış, göz bəbəyi kimi sevdiyi bu əlyazmalarını əvvəllər özü, sonralar isə həyat yoldaşı qoruyub saxlaya bilmişdir.

Yusif Vəzirin arxivi onun tərcümeyi-halı, xatirə dəftərləri, öz əli ilə düzəltdiyi dəftərləri, öz əli ilə düzəltdiyi albomlar, romanları, hekayə və felyetonları, şeirləri, elmi-publisistik əsərləri, kinossenariləri, yazıçının müxtəlif şəxslərə yazdığı məktubların surətləri, ona göndərilmiş məktublar, əsərlərinə verilmiş rəylər, şəxsiyyətinə aid sənədlər, müxtəlif fotoşəkillər, çap kitablarından ibarətdir.

Yusif Vəzirin həyatı haqqında yazdığı və arxivinə daxil etdiyi əlyazmaları və müxtəlif qeydləri ədibin həyatını dərindən öyrənmək üçün ən yaxşı əyani vəsaitdir. Görkəmli yazıçı əgər həyatının müəyyən dövrünə dair az xatirə yazmışdırsa, əvəzində müxtəlif arayış, təliqə, ərizə, qeydlər, şəxsi sənədlər və

s. qoyub getmişdir ki, bunlar vasitəsilə yazıçının həyatı haqqında geniş məlumat əldə etmək mümkündür.

Əlyazmaları göstərir ki, ədibin həyatında ən çətin dövrlərdən biri Bakı realnı məktəbində oxuduğu illərə təsadüf edir. Ağır maddi vəziyyət keçirməsinə baxmayaraq o, bütün çətinliklərə dözmüş, "Ya ölüm, ya məqsəd" deyərək təhsilini davam etdirmişdir. Yusif Vəzir Bakı realnı məktəbini bitirdikdən sonra 1909-cu ilin iyun ayında Peterburqa gedir, lakin xatirələrindən göründüyü kimi, daxil olmaq istədiyi fakültə zövqünə uyğun olmadığından oradan qayıdıb Kiyev darülfününün hüquq fakültəsinə daxil olmuşdur.

Y.V.Çəmənzəminlinin həyatının son dövrlərinə aid arxivdə saxlanan sənədlər də xeyli maraqlıdır. Gözlərinin zəifləməsinə və ürəyinin xəstəliyinə baxmayaraq yazıçı öz tərcümeyi-hal və şəxsi sənədlərindən əlavə, köhnə əlyazmalarını da mühafizə edib saxlamış, ona qarşı çıxan şəxslərin mətbuatda nəşr edilmiş çıxışlarını nəzərdən qaçırmamış, bunları xüsusi qeydə almış, bəzilərini isə bütünlüklə qəzetdən kəsib arxivinə daxil etmişdir.

Yusif Vəzirin əmək fəaliyyəti və həyatının mühacirət dövrləri haqqında avtoqraf tərcümeyi-halları, ərizələr ilə birlikdə arxivdə fransız dilində olan müxtəlif arayış, təliqə, qəbz və başqa sənədlər də diqqəti cəlb edir.

Arxivindəki sənədlər yazıçının təkcə həyat və əmək fəaliyyətini deyil, eyni zamanda onun ədəbi fəaliyyətini öyrənməkdə də böyük əhəmiyyət kəsb edir. Yazıçı öz tərcümeyi-halında ilk əsərinin "Şaqqulunun xeyir işi", sonra "Saranın hekayəsi" olduğunu söyləyir. "Şaqqulunun xeyir işi"ndən əvvəl yazdığı bir sıra əsərlərinin surəti də müəllifin xatiratlarında öz əksini tapmışdır.

Müəllifin çap olunmuş əsərlərindən əlavə, onun arxivindəki əlyazmaları, qeyd, qaralama və konspektlərindən məlum olur ki, o, yaradıcılığının çox hissəsini Azərbaycan qadınının azadlıq işinə sərf etmiş, yazdığı əsərlərinin əksəriyyətində qadın məsələsinə toxunmuş, ailədə, məişətdə olan nöqsanlı cəhətlərin səbəblərini, əsasən dini mövhumatın təsirində görmüş və qadın azadlığı uğrunda mübarizəsini mövhumata qarşı mübarizə ilə birləşdirmişdir.

Yazıçının həyatının aynası olan tərcümeyi-hal, xatirə dəftərləri və müxtəlif albomlardan əlavə, arxivdə saxlanılan məktublar da onun ədəbi fəaliyyətini öyrənmək üçün çox əhəmiyyətlidir. Yazıçının əlyazmalarının ilk nümunələrinin, ilk nüsxələrinin yazılış tarixi, yazıldığı yeri, əsərin yazılma tarixi, əsərin yazılma səbəbini, məqsədini və s. müəyyənləşdirmək üçün yenə arxiv materiallarına müraciət etmək lazım gəlir. Bütün bu cəhətlər vəsaitin biblioqrafik mənbə kimi, biblioqrafik informasiyanın ilkin ünsürləri kimi müvafiq elmi-tədqiqat sahəsinin biblioqrafik informasiya təminatında rolunu şərtləndirən amillərdir.

Arxiv materialları mütəxəssislərin elmi-tədqiqat fəaliyyətində, hər bir yazıçı və şairin, ictimai xadimin həyat və fəaliyyətinin tədqiqində, hərtərəfli araşdırılmasında, şəxsiyyətin bir fərd kimi şəxsi xarakterinin, keyfiyyətlərinin açılmasında mühüm vasitə kimi həmişə gərəkli olacaqdır.

**Ədəbiyyat**


1. İbrahimov A.Ə. M.F.Axundov arxivinin təsviri .-B.: “Elm”.- 1955.- 292s.
2. İsmayılova S.P. Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq biblioqrafiyası (1965-2000-ci illər).-B.:Nurlan.-2009.-184s.
3. Nağıyeva C. Yusif Vəzir Çəmənzəminli arxivinin təsviri .-B.:”Örnək”.-1999.-201s.

# AZƏRBAYCANDA SAHƏVİ BİBLİOQRAFİK İNFORMASİYA RESURSLARININ İNKİŞAFI

***Xuraman Ağayeva***
*BDU, Biblioqrafiyaşünaslıq kafedrası, Dosent əvəzi*
*khuraman_v@mail.ru*

***Отраслевая развитие библиографических информационных ресурсов в Азербайджане***
***Резюме:*** *В статье в зависимости от объекта библиографии универсальные и отраслевые характеристики библиографии участвуют в научных исследованиях и пытается определить роль отраслевой библиографии в области системы библиографических материалов, опубликованных крупными библиотеками Азербайджана в 1991-2010 годах.*
***Development of branch bibliographic information resources in Azerbaijan***
***Abstract:*** *This paper investigates the characteristics of universal and branch bibliography and demonstrates the role of branch bibliography in bibliographic materials system published by large libraries of Azerbaijan in the years of 1991-2010.*

***Açar sözlər:*** *biblioqrafik informasiya, biblioqrafik axtarış, sahəvi biblioqrafiya, universal bioblioqrafiya, biblioqrafik vəsait, biblioqrafiyalaşdırma, çoxsahəli, kompleks, şəxsi, diyarşünaslıq və ölkəşünaslıq biblioqrafiyası*
***Ключевые слова:*** *библиографическая информация, библиографический поиск, отраслевая библиография, универсальный биобиблиография, библиографический материал, многопрофильная, комплексная, личный, региональные и страновые библиография.*
***Keywords:*** *bibliographic information, bibliographic retrievel, branch bibliography, universal bibliography, bibliographic tool, bibliography process, multidisciplinary, comprehensive, personal, country study and local lore bibliography.*

## Giriş

Hər il dünyada 150 min yeni elmi kitab, 3 milyon məqalə və 35 min elmi-texniki jurnal çap olunur. Bu fenomenə bəzən "informasiya partlayışı" da deyilir. Bundan əlavə, ötən əsr ərzində elm, texnologiya və mədəniyyətin inkişafını əks etdirən, kitablar, broşuralar, jurnal, qəzet və digər çap materialların və əlyazmaların miqdarı artmışdır. Bu proses bu gün də davam edir. Bəs bu sərvətdən necə istifadə etmək olar?

Biblioqrafiya - elmin və sosial kommunikasiyanın ən mühüm komponentlərindən biridir. Biblioqrafiya insan fəaliyyətinin bir sahəsi olub elmi informasiya resurslarını yaradan və ondan istifadəni təşkil edən fəaliyyət sahəsidir. Biblioqrafiya sahəsində çap məhsulu elm sahələri üzrə sistemləşdirilir, qruplaşdırılır və ondan ictimai istifadə təşkil edilir. Biblioqrafyanın köməyi ilə sənəd kommunikasiyaları sisteminin hər iki tərəfi öyrənilir və sənədlərin tələbatçılara operativ çatması təmin edilir. Biblioqrafiya biliklərin daim tam potensialından maksimum istifadə üçün

gündən-günə sayı və tələbatı artan istifadəçilərini öyrənir, biblioqrafik resursların həcminin və keyfiyyətinin yaxşılaşdırılması yolu ilə bütövlükdə cəmiyyətin informasiya təminatını həyata keçirilməsinə yardım edir.

Rus alimi E.İ.Samurin biblioqrafiyanı tipoloji baxımdan ən azı dörd iyerarxik yerə ayırmışdır: universal biblioqrafiya, sahəvi biblioqrafiya, mövzu biblioqrafiyası və şəxsi biblioqrafiya [10, s. 32].

Biblioqrafiyanın təsnifləşdirilməsinin həyata keçirilməsində əsas götürülən əlamətlərdən biri də biblioqrafiyalaşdırmanın bilavasitə obyekti olan sənədlərin forma və məzmunu ilə əlaqədardır. Bu əlamətə görə universal və sahəvi biblioqrafiya anlayışları fərqləndirilir. Çoxsahəli, mövzu, kompleks, şəxsi, diyarşünaslıq və ölkəşünaslıq biblioqrafiya anlayışları da bunlarla sıx əlaqəyə malikdir (3, s.102).

**Əsas hissə**

Biblioqrafiyalaşdırma prosesində bilavasitə obyekt olan sənədlərin forma və məzmunu vəhdətdə götürülür. Lakin bir halda sənədin forması, digər halda isə məzmunu üstünlük təşkil edir. Universal biblioqrafiya sənədlərin məzmununa əsaslanmadığına görə biblioqrafiyalaşdırma obyektlərinin məzmunundan asılı olan bütün başqa sahələrə qarşı durur. Universal biblioqrafiya - biblioqrafiyalaşdırma obyektlərinin formal əlamətlərinə əsaslanan biblioqrafiyadır və burada məzmun həmin əlamətlər əsasında müəyyən olunur.

Sahəvi biblioqrafiyada əksinədir, yəni sənədlərin məzmunu birinci dərəcəli əhəmiyyətə malikdir, forma əlamətlərindən isə lazım gəldikdə müşayiətedici (əlavə) məqsədlə istifadə olunur.

Adətən belə hesab edirlər ki, sahəvi biblioqrafiya müəyyən bilik sahəsi ilə əlaqədardır. Çoxsahəli bilblioqrafiya bir neçə bilik sahəsilə, mövzu biblioqrafiyası hər hansı bir bilik sahəsinin tərkibinə daxil olan müəyyən məsələ üzrə ədəbiyyatla bağlıdır (3, s.103).

Bununla bərabər sahəvilik cəhəti biblioqrafiyanın məzmununda və təşkilində, xüsusilə elmin, istehsalın və idarəetmənin biblioqrafik təminatı sahəsində, orta və ali ixtisas təhsili müəssisələrində biblioqrafik fənlərin tədrisində, biblioqrafik işin sahəvi metodikasının işlənməsində mühüm rol oynayır. Cəmiyyətə məzmunca fərqli xidmət göstərən çoxsahəli və sahəvi müəssisələr sistemi mövcuddur. Məsələn, Azərbaycan Respublikası Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası, Respublika Elmi-Texniki Kitabxanası, Respublika Elmi Tibb Kitabxanası, ali məktəblərin kitabxana sistemi və başqaları belələrindəndir. M.F.Axundov adına Respublika Dövlət Kitabxanasının fəaliyyətində də biblioqrafik xilmətin sahəvi prinsiplərindən istifadə olunur (3, s.104).

Bibliorafik məhsul sənədlərin biblioqrafiyalaşdırılmasının və informasiya tələbatçılarına biblioqafik xidmətin eyni zamanda həm nəticəsi, həm də vasitəsidir. Biblioqrafik fəaliyyətin bilavasitə nəticəsi kimi qiymətləndirilən bu məhsulun növ təsnifatı böyük elmi, tədris və konkret

metodiki əhəmiyyətə malikdir. Bu, müxtəlif biblioqrafik məhsulu elmi əsasla sistemləşdirməyə, həmin məhsul üzrə düzgün istiqamətlənməyə imkan verir .

Aşağıda verilən faset-blok prinsipli təsnifat sistemi biblioqrafik vəsaitlərin hər bir əlamət üzrə əsas növlərini əks etdirir:

1. Biblioqrafik vəsaitin ictimai istiqamətindən asılı olaraq.
2. Biblioqrafiyalaşdırmanın obyektlərindən asılı olaraq.
3. Biblioqrafiyalaşdırma metodikasından asılı olaraq .
4. Vəsaitin formasından asılı olaraq (3, s.84-87).

Cəmi 23 blok ayrılmışdır. Blokda qeyd olunan hər bir əlamət biblioqrafik vəsaitlərin növ fərqini göstərir. Blok-sxemdə vəsaitin 130 növünün adı çəkilir (3, s.84).

Biblioqrafik vəsaitlərin belə təsnifləşdirilməsi onlar haqqında daha aydın təsəvvür yaratmağa imkan verir. Blok-sxemdən göründüyü kimi, eyni vəsait müxtəlif əlamətlərə görə təsnifləşdirilə, ayrı-ayrı bölmələrdə əks oluna bilər.

Biblioqrafiyalaşdırmanın obyektlərindən asılı olaraq biblioqrafik vəsaitlər aşağıdakı əlamətlər üzrə fərqləndirilir: məzmun, forma, məqsəd.

Məzmun əlamətinə görə biblioqrafik vəsaitlər universal, çoxsahəli, sahəvi, mövzu, şəxsi, diyarşünaslıq, ölkəşünaslıq vəsaitlərinə bölünür.

Universal biblioqrafik vəsaitlər bütün bilik və təcrübi fəaliyyət sahələri üzrə ədəbiyyatı əks etdirir. Belə vəsaitlər əvvəllər daha geniş yayılmışdı, indi isə onlar əsasən dövlət biblioqrafiya göstəriciləri (məsələn, ”Azərbaycan mətbuat salnaməsi”, “Birillik Azərbaycan kitabiyyatı”) və ayrı-ayrı nəşrlərin və materialların (məsələn, dissertasiyaların, dövri nəşrlərin, məlumat nəşrlərinin) siyahılarından ibarətdir.

Sahəvi biblioqrafik vəsaitlər hər hansı bir bilik sahəsi üzrə ədəbiyyatı əks etdirir. Məsələn, “Azərbaycan jurnalı-80”(2004), “Əkinçi” qəzetinin biblioqrafiyası (2005), “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) (2007), “Pedaqoji biblioqrafiya” “2008”, “Azərbaycan ekologiyası-10 ildə” (2009), “Azərbaycan folkloru (2010) göstəricilərini qeyd etmək olar.

Hər hansı bir mövzu ilə məhdudlaşan (ən dar problemdən kompleks problemədək) mövzu (tematik) biblioqrafik göstəricilər daha geniş çap olunur. Məsələn, “Azərbaycanın palçıq vulkanları”, “Azərbaycanda pambıqçılıq”, “Bədii ədəbiyyatda neftçi surəti” və s.

Şəxsi biblioqrafik vəsaitlər hər hansı bir şəxsin əsərlərini, eləcə də onun həyat və yaradıcılığı haqqında ədəbiyyatı əks etdirir. Məsələn, “Niyazi” (2008), ”Aida İmanquliyeva” (2009), ”Həmid Araslı” (2009) “Abel Məhərrəmov” (2010), “Ziyad Səmədzadə” (2010), “Abuzər Xələfov” (2006) və s.

Diyarşünaslıq vəsaitləri məzmununa görə ölkənin hər hansı bir ərazisi (məsələn, şəhər, rayon və s.) ilə əlaqədar çap əsərləri (məsələn, təbii sərvətləri, iqtisadiyyatı, tarixi, xalq təsərrüfatının və mədəniyyətin inkişafı, toponimikası və s.) haqqında məlumat verir. Məsələn, “Naxçıvan yazıçıları”, “Sumqayıt:

dünən, bu gün, sabah", "Bərdə və bərdəlilər", "Quba və qubalılar", "Qarabaq" və s.

Ölkəşünaslıq vəsaitləri bir və ya bir neçə ölkəyə həsr olunmuş materialları özündə əks etdirir. Məsələn, "Azərbaycan əhalisi", "Azərbaycan kitabı", "Azərbaycan dövri mətbuat" və s.

Formasına görə (məsələn, zahiri formasına görə) aşağıda qeyd olunanları əks etdirən biblioqrafik vəsaitlər fərqləndirilir: müəyyən formada çap edilən əsərlər (məsələn, kitablar, dövri mətbuat və s.), əlyazmalar, səs yazıları, kino və foto sənədlər, müxtəlif formalı əsərlər. Məsələn, yalnız kitabları əks etdirən vəsaitlərdən "Azərbaycan kitabı", dövri mətbuatı əks etdirən vəsaitlərdən "Azərbaycan dövri mətbuatı", əlyazmaları əks etdirən vəsaitlərdən "M.F.Axundov arxivinin təsviri", müxtəlif formalı əsərləri əks etdirən "Azərbaycan mətbuat salnaməsi" adlı biblioqrafik göstəriciləri qeyd etmək olar.

Nəşriyyat mənsubiyyətinə görə müəyyən nəşriyyatın, idarənin məhsulunu əks etdirən biblioqrafik vəsaitlər və bir çox nəşriyyat və müəssisələrin nəşrlərini əks etdirən vəsaitlər fərqləndirilir. Məsələn, "Orucov qardaşlarının mətbəəsi", "Azərbaycan nəşriyyatı", "Mütərcim", "Təhsil" və s.

Biblioqrafiyalaşdırma metodikasından asılı olaraq biblioqrafik vəsaitlər aşağıdakı əlamətlər üzrə fərqləndirilir: seçmə dolğunluğu; səciyyələndirmə üsulları; materialların qruplaşdırılması üsulları; sənədlərin məzmunu ilə əlaqələrin quruluşu; biblioqrafik məlumatın yaradılması üsulu; materialın seqmentasiya üsulu; biblioqrafik informasiyanın mənşəyi.

Seçmə dolğunluğu əlamətinə görə biblioqrafik vəsaitlər seçmə, yəni hər hansı əlamət üzrə seçilmiş çap əsərləri, məsələn, ideya, elmi və bədii cəhətdən ən qiymətli nəşrlər haqqında biblioqrafik məlumat verən (tövsiyə biblioqrafik vəsaitləri belə vəsaitlərdəndir) və qeydə alma, yəni çap əsərlərini mümkün qədər tam əks etdirən vəsaitlərə (məsələn, "Azərbaycan mətbuat salnaməsi", "Birillik Azərbaycan kitabiyyatı") bölünür.

Materialların qruplaşdırılması üsuluna görə əlifba, xronoloji və sistemli biblioqrafik vəsaitlər vardır.

Əlifba göstəricilərində biblioqrafik yazılar müəlliflərin familiyalarının və yaxud əsərlərin sərlövhələrinin əlifbasına görə düzülür. Məsələn, "Azərbaycan yazıçıları" adlı biblioqrafik göstəricidə materiallar müəlliflərin əlifba sırasına görə qruplaşdırılmışdır.

Sistemli biblioqrafik vəsaitlərdə biblioqrafik yazılar məntiqi ardıcıllıqla, təsnifat sxeminə uyğun qruplaşdırılır. Məsələn, "Azərbaycan mətbuat salnaməsi"ndə olduğu kimi.

Əgər biblioqrafik vəsaitdə yazılar əsərlərin yazılması və yaxud çap olunması tarixinə görə yerləşdirilibsə, belə vəsait xronoloji vəsait adlanır. Məsələn, "Azərbaycan kitabı", "Bəxtiyar Vahabzadə" və s.

Biblioqrafik informasiyanın yaradılması üsuluna görə vəsaitlər əl ilə hazırlanan, mexanikləşdirilmiş və avtomatlaşdırılmış biblioqrafik vəsaitlərə

bölünür. Əl ilə hazırlanan biblioqrafik vəsaitlərə ənənəvi biblioqrafik göstəriciləri misal göstərmək olar. Maşınla hazırlanan biblioqrafik vəsaitlər hər şeydən əvvəl, siqnal bülletenlərində, referativ jurnallara verilən göstəricilərdə informasiyanın operativ hazırlanması vasitəsi olan permutasion göstəricilərdir. Məsələn, "İnformatika" adlı referativ jurnala verilən permutasion göstəricilər mövcuddur. Permutasion göstəricilərin prinsipi nəşrlərin sərlövhəsindən müstəqil informasiya yükünü daşıyan açar sözlərin seçilərək vahid əlifba üzrə düzülüşünə əsaslanır.

EHM-lərin tətbiqi ilə əlaqədar olaraq biblioqrafik vəsaitlərin daha bir növü olan sitat gətirilmiş ədəbiyyatın göstəricilərinin (və yaxud biblioqrafik isnadların göstəricilərinin) hazırlanması mümkün olmuşdur. Belə göstəricilər hansı alimin əsərlərinin sonrakı tədqiqatçılar tərəfindən istifadə olunması və hansı alimlərin onun əsərlərinə istinad etməsini müəyyənləşdirməyə imkan verir. Respublikamızda stat gətirilmiş ədəbiyyatın bir çox tematik retrospektiv göstəriciləri çap olunmuşdur. Məsələn, "Elmi-texniki informasiya üzrə sitat gətirilmiş ədəbiyyatın göstəricisi", "Neft elmi və texnikası üzrə sitat gətirilmiş ədəbiyyatın göstəricisi" və s.

Biblioqrafik vəsaitlərin növlərinin qısa xarakteristikasından aydın oldu ki, biblioqrafik informasiya mənbələri olduqca müxtəlifdir. Onların nəşri fasiləsiz olaraq artır, buna görə də mövcud mənbələri müəyyənləşdirmək və nisbətən optimal olanı seçmək getdikcə çətinləşir. Buna görə də mövcud ədəbiyyat göstəriciləri, xülasələr, ədəbiyyat siyahıları və s. haqqında məlumatları sistemləşdirən biblioqrafik vəsaitlərin göstəriciləri (bəzən ona «biblioqafiyanın biblioqrafiyası» deyirlər) çap olunur. Belə vəsaitlər keçmiş SSRİ məkanında «Библиография Советской библиографии» adı ilə çap olunurdu. Respublikamızda isə belə vəsait dos. N. İsmayılovun "Azərbaycan biblioqrafiyasının biblioqrafiyası: biblioqrafik vəsaitlərin göstəricisi" 2003-cü ildə və "Biblioqrafiyanın biblioqrafiyası: Respublika Elmi-Texniki Kitabxanasının tərtib etdiyi biblioqrafik vəsaitlərin göstəricisi: (1996-2000)" (2004) nəşr olunmuşdur.

Azərbaycanda biblioqrafik vəsaitlər haqqında məlumat verən daha bir mənbə 1960-cı ildən nəşr edilən "Birillik Azərbaycan Kitabiyyatı"dır. Tarixi-xronoloji və nəşriyyat tarixi baxımından özündə çox qiymətli məlumatları əks etdirən bu vəsaitlər ayrı-ayrı elm sahələri üzrə elmi tədqiqatların və araşdırmaların aparılmasında əvəzsiz rol oynayırlar. Digər tərəfdən müasir dövrdə oxucuların rəngarəng sorğularının ödənilməsində milli biblioqrafiya vəsaitlərinin əhəmiyyəti çox böyükdür. Məhz ölkə ərazisində dərc olunan bütün çap məhsullarını toplu şəkildə özündə əks etdirən milli biblioqrafiya vəsaitləri oxucuların, mütəxəssislərin, alimlərin, ziyalıların və nəhayət kitabxanaçıların daha çox müraciət etdikləri məlumat nəşrlərindəndir.

**Nəticə**

Aparılan tədqiqatların nəticələrinə əsasən qeyd olunan məsələləri yekunlaşdıraraq belə bir nəticəyə gəlmək olar ki, uzun illər ərzində toplanmış

çap əsərləri həm ənənəvi, həm də elektron biblioqrafik vəsaitlər sayəsində indi də insanlara xidmət etməkdə davam edir. Biblioqrafik biliklərə yiyələnmə ədəbiyyatla aparılan bütün işi olduqca səmərələşdirməyə imkan verir. Biblioqrafik vəsaitlərdən istifadə etdikcə bu biliklər dərinləşir, genişlənir, müxtəlif informasiya mənbələrindən istifadə bacarığı yaranır, həm ənənəvi, həm də elektron sənədlərin bütün informasiya imkanları açılır.

İstər dünya məkanında, istərsə də Azərbaycanda tanınmış alimlər biblioqrafiyanı yüksək qiymətləndirir, biblioqrafik mənbələri yaxşı tanıyır, onlardan istifadə etmə bacarığının vacib olduğunu qeyd edir və bəzən özləri də biblioqrafik vəsaitlərin tərtibi ilə məşğul olurlar. Azərbaycan alimlərinin biblioqrafiyaya maraq göstərmələri ondan elmi-tədqiqat işlərində istifadə etmələrinin nəticəsidir.

Lakin müasir şəraitdə biblioqrafiyanın mahiyyətini bir qədər başqa planda nəzərdən keçirmək lazımdır. Mütəxəssis biblioqraflar tərəfindən yaradılan biblioqrafik vəsaitlər sənədlərlə tələbatçılar arasında vasitəçi funksiyasını yerinə yetirirlər. Buna görə də biblioqrafiya ümumilikdə elmin, mədəniyyətinin ikişafında fəal iştirak edir. Biblioqrafiyanın alimlər üçün daha böyük əhəmiyyəti vardır. Belə ki, hər hansı elmi kəşf, onun istehsalata tətbiqi nəzəri tədqiqat metodlarının tətbiqinə əsaslanır. Bu isə həm ölkədə, həm də xaricdə çap olunmuş əsərləri öyrənmədən mümkün deyil. Hal-hazırda alimlər öz elmi fəaliyyətlərini biblioqrafik axtarışsız, vəsaitlərsiz təsəvvür etmirlər. Çünki elmi-texniki tərəqqi onların qarşısında elə mürəkkəb vəzifələr qoyur ki, elmi və istehsalat ədəbiyyatından istifadə etmədən, xüsusi kitabxanaların verdiyi informasiya olmadan, biblioqrafik vəsaitlərə müraciət etmədən bu vəzifələrin düzgün həlli mümkün deyil. Bu məqsədlə lazımi ədəbiyyat haqqında informasiya verən həm elektron, həm də ənənəvi kataloqlardan, elektron məlumat bazalarından, ənənəvi göstəricilərdən və digər biblioqrafik vəsaitlərdən istifadə olunur.

Aparılan araşdırmalar göstərdi ki, 1991-2010-cu illərdə cəmi respublikamızda 433 biblioqrafik vəsait hazırlanmışdır ki, onlardan 171-i cari biblioqrafik vəsaitdir. Bu göstəricilərdən 75 cari biblioqrafik vəsaiti M.F.Axundov adına Milli Kitabxana hazırlamışdır. Bu illər ərzində kitabxana tərəfindən 52 sahəvi cari biblioqrafik vəsait "Mədəniyyət, incəsənət və turizm üzrə yeni ədəbiyyat" göstəricisi və 23 universal "Yeni kitablar" göstəricisi nəşr olunmuşdur.

Tədqiq olunan dövrdə AMEA MEK tərəfindən 13 "Mərkəzi Elmi kitabxanaya yeni daxil olan ədəbiyyat" universal göstəricisi nəşr olunmuşdur.

Tədqiq olunan illər ərzində Respublika Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası tərəfindən 6 adda 83 buraxılışda cari elmi-köməkçi biblioqrafik vəsait hazırlanmışdır ki, onlardan hamısı sahəvidir. Məsələn, "Tarix. mədəniyyət. elm: məlumat bülleteni", "Azərbaycanın iqtisadiyyatı: məlumat bülleteni" adlı hər iki biblioqrafik vəsaitin 2010-cu ilə qədər 24 buraxılışı, "Xarici siyasət və beynəlxalq münasibətlər: məlumat bülleteni"

vəsaitinin 2010-cu ilə qədər 15 buraxılışı, "Neft və qaz: məlumat bülleteni"ni və "İnsan haqları: Məlumat bülleteni"nin 2010-cu ilə qədər 8 buraxılışı, "Ekologiya məlumat bülleteni"nin 4 buraxılışı çap olunmuşdur. Tədqiqat aparılan dövrdə nəşr olunan 119 cari biblioqrafik vəsaitdən 83-ü sahəvi elmi-köməkçi, 36-sı ümumi xarakterli vəsaitdir.

Respublikanın bu 3 ən iri kitabxanası arasında müqayisə aparsaq, faktlara əsasən Pespublika Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının səmərəli fəaliyyətini qeyd etmək olar.

Tədqiq olunan dövrdə 97 retrosrektiv biblioqrafik vəsait hazırlanmışdır. Onlardan 28 adda biblioqrafik vəsait M.F.Axundov adına Milli Kitabxana tərəfindən, 29 adda AMEA MEK tərəfindən, 8 adda Respublika Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası tərəfindən və 23 adda digər təşkilatlar tərəfindən biblioqrafik vəsaitlər hazırlanmışdır ki, onlardan hamısı sahəvidir. Faktlara əsasən retrospektiv vəsaitlərin hazırlanması sahəsində AMEA MEK-in səmərəli fəaliyyətini qeyd etmək olar.

Aparılan araşdırmalar göstərdi ki, 1991-2010-cu illərdə 26 adda tövsiyə biblioqrafik vəsait hazırlanmışdır. Bu vəsaitlərin hamısı M.F.Axundov adına Milli Kitabxana tərəfindən tərtib olunmuş və nəşr edilmişdir.

1991-2010-cu illərdə 193 şəxsi biblioqrafik vəsait nəşr olunduğunu aparılan araşdırmaların nəticəsi olaraq qeyd etmək olar. Bunlardan 100-ə qədəri AMEA MEK tərəfindən, 15 ədədi M.F.Axundov adına Milli Kitabxana tərəfindən, 16 ədədi BDU tərəfindən, 57 ədədi digər təşkilatlar tərəfindən nəşr edilmişdir ki, onların da demək olar ki, əksəriyyəti sahəvi biblioqrafiyaya aiddir. Faktlara əsasən AMEA MEK-nın şəxsi biblioqrafik vəsaitlərin tərtibində xüsusi yeri olduğunu qeyd etmək lazımdır.

İstər cari, istər retrospektiv, istərsə də şəxsi göstəricilər həmin sahələrdə çalışan alim və mütəxəssislərin biblioqrafik informasiya təminatında mühüm rol oynayır, onlara göstərilən biblioqrafik xidmətin səmərəliliyini və keyfiyyətini artırır. Oxucuların informasiya tələbatlarının operativliyi və ardıcıllığının artırılması mühüm problemdir və bu da yeni informasiya texnologiyalarının bu istiqamətdə tətbiqini təxirəsalınmaz bir vəzifə kimi qarşıya qoyur. Ən mühüm problemlərdən biri biblioqrafik vəsaitlərin həm mövzu baxımından, həm də məqsəd istiqaməti nöqteyi-nəzərindən daha da təkmilləşdirilməsindən ibarətdir. Kitabxana-biblioqrafiya və informasiya xidmətinin əsasında metodoloji baxımdan elə bir prinsip durmalıdır ki, konkret mütəxəssisin özünə lazım olan informasiyanı operativ şəkildə tam və dolğun əldə etmək imkanı olsun. İnformasiya əsrində kitabxanaların funksiyasına yenidən baxılmalıdır. Kitabxanalar sənəd axınını idarə edən müəssisədən bütövlükdə informasiya axınını idarə edən və səmərəli istifadəsini təmin edən müəssisəyə çevrilməlidir.

Apaşdırmalara əsasən aparılan tədqiqata əsasən bir neçə tövsiyə və təklif vermək olar.

1. Ənənəvi və elektron biblioqrafik vəsaitlərin həm mövzu baxımından, həm də məqsəd istiqaməti nöqteyi-nəzərindən daha da təkmilləşdirilməsi vacibdir.

2. Cari biblioqrafik vəsaitlərin nəşri sahəsində 1970-80-ci illərdəki ənənəni davam etdirmək lazımdır. Respublikanın iri kitabxanaları, MKS-lər cari biblioqrafiyanın inkişafına diqqəti artırmalıdırlar.

3. Tədqiqatlar göstərdi ki, tövsiyə biblioqrafiyasının inkişafı ilə müasir dövrdə təkcə M.F.Axundov adına Milli Kitabxana məşğul olur. Respublikanın iri kitabxanaları bu sahəyə diqqəti artırmalıdırlar.

4. Həm ənənəvi, həm də elektron biblioqrafik vəsaitlərin hazırlanmasına diqqəti artırmaq lazımdır.

5. Mövcud biblioqrafik vəsaitlərin avtomatlaşdırılmış informasiya axtarış bazasının yaradılması müasir biblioqrafiyaşünaslığın qarşısında duran mühüm vəzifələrdən biridir.

**Ədəbiyyat**


1. «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu// Azərbaycan, 1999, 14 mart.
2. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı»// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri, metodiki və təcrübi jurnal. 2008, № 2, s.6-29.
3. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti. Bakı, 2001, 143s.
4. Xələfov A. Kitabxanaşünaslığa giriş: Dərslik:(üç hissədə)h.1-2.-B.: Bakı Universiteti Nəşriyyatı, 2001.-400s
5. İsmayılov X.İ. Kitabxana-informasiya texnolgiyaları: dərs vəsaiti.– Bakı: ”Nurlan” Nəşryyat-Poliqrafiya Mərkəzi, 2009. -312s.
6. İsmayılov N.İ. Azərbaycan biblioqrafiyasının biblioqrafiyası (biblioqrafik vəsaitlərin göstəricisi).-Bakı: Mütərcim, 2003, 141s.
7. Verdiyeva X. Pedaqoji elmlər sisteminin informasiya təminatında biblioqrafik göstəricilərin rolu// Kitabxanaşünaslıq və biblioqrafiya.– 2000, -№1. – s. 124-131.
8. Ванеев, А.Н., Минкина, В.А. Справочник библиографа/ А.Н.Ванеев, В.А.Минкина. - СПб.: Профессия, 2003. - 560с.
9. Гречихин, А.А. Общая библиография/ А.А. Гречихин. - М.: Изд-во МГУП, 2000. - 85с.
10. Коршунов О.П. Библиографоведение. Общий курс: Учебник. – Москва, 1990. - с. 96-97
11. Стандарты по библиотечно-информационной деятельности/ сост. Т.В.Захарчук, О.М.Зусьман. - СПб.: Профессия, 2003. - 576 с.
12. http://www.anl.az
13. http://www.preslib.az

# BAKI ŞƏHƏRİNİN MƏKTƏB KİTABXANALARINDA KİTABXANA-İNFORMASİYA RESURSLARININ YERLƏŞMƏSİVƏ KADR TƏMİNATININ MÜASİR VƏZİYYƏTİ

***İradə Bayramova***
*Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi,*
*tarix üzrə fəlsəfə doktoru*

***Современное состояние размещения библиотечно-информационных ресурсов и кадровое обеспечение школьных библиотека в города Баку***
***Резюме:*** *В статье на основе анализа и обобщения официальных статистических материалов исследовано современное состояние, темпы и пропорции размещения библиотечно-информационных ресурсов, а также кадровое обеспечение в школьных библиотека в города Баку.*
***Contemporary conditions of the settle of library-information resources and present situation of it staff provision in the school libraries of the Baku city***
***Abstract:*** *On the basis of analyze and summarize of the official statistical materials researched the contemporary conditions tempo and proportions of the settle of the library-information resources, also provision by the staff in the school libraries of the Baku city.*

***Açar sözlər***: *Kitabxana-informasiya təminatı; informasiya resursları; kitabxana fondu; metodik mərkəz.*
***Ключевые слова:*** *Библиотечно-информационное обеспечение; информационные ресурсы; библиотечный фонд; методический центр.*
***Keywords:*** *Library-information provision; information resources; the library fond; methodical center.*

## Giriş

Azərbaycan Respublikası yenidən öz müstəqilliyini bərpa etdikdən sonra ölkədə kitabxana işinin və biblioqrafik fəaliyyətin inkişafına, gənc nəslin təlim-tərbiyəsində mühüm rol oynayan milli və mənəvi dəyərlərimizin işıqlandırılmasına, beynəlxalq standartlara cavab verə biləcək yeni informasiya texnologiyalarından hərtərəfli istifadə olunmasına çox böyük önəm verilməyə başlandı və bütövlükdə kitabxana-informasiya sahəsinin hüquqi bazası formalaşdı.

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 14 mart tarixli sərəncamı ilə "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanunu qəbul olundu. Bu Qanunda kitabxanaların "Elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssiəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mədəni potensialının inkişafına xidmət göstərən sosial institut" olması göstərilmişdir. (2)

Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin son illərdəki inkişafı, bu sahəyə göstərilən dövlət qayğısının təzahürüdür. Təhsil Nazirliyinin tabeliyində olan ümumtəhsil məktəb kitabxanalarının inkişaf etdirilməsi ölkə rəhbərliyinin daim diqqət mərkəzində olmuşdur. Gənc nəslin dünyagörüşünün formalaşmasında, onlara milli-əxlaqi dəyərlərimizin aşılanmasında, şagirdlərin intellektual elmi potensiallarının yüksəldilməsində, vətənə, torpağa, ailə dəyərlərinə hörmət aşılanmasında kitabxanaların müstəsna rolunu danmaq olmaz. Bu vəzifələrin həyata keçirilməsi işində kitabxanalarla bərabər, pedaqoji kollektivlərin, valideynlərin də rolu böyükdür. Kitabxanalar cəmiyyətdən təcrid olunmuş halda fəaliyyət göstərmirlər. Əksinə, cəmiyyət üzvlərinin təlim-tərbiyəsində birbaşa iştirak edirlər.

"Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda da deyildiyi kimi:

"Azərbaycan Respublikasında təhsil dünyəvi və fasiləsiz xarakter daşımaqla, vətəndaşın, cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli prioritet fəaliyyət sahəsidir". (7)

Respublikamızın məktəb tarixinə nəzər saldıqda aydın olur ki, elə bir məktəb yoxdur ki, onun kitabxanası olmasın. Kitabsız təhsil olmadığı kimi, kitabxanasız da məktəb yoxdur.

Məktəb kitabxanalarının məzmununda, şagirdlərə xidmət işinin forma və üsullarında, uşaqların mütaliəsinə rəhbərlik işinin təşkilində, məktəb proqramlarının mənimsənilməsində, oxucuların bir vətəndaş, vətənpərvər kimi tərbiyə edilməsində böyük dəyişikliklərin baş verməsi onların pedaqoji ictimaiyyətin böyük qayğısı ilə əhatə edilməsinə gətirib çıxarmışdır. Kitabxanalar məktəbin bir nömrəli laboratoriyasına çevrilmişdir (4.s.126-131).

Ayrı-ayrı iqtisadi regionlarda və Bakı şəhərində kitabxana-informasiya resurlarından səmərəli istifadənin təşkilində "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın imzalanması mühüm rol oynadı. (1)

**Əsas hissə.** Dövlət Proqramının qarşıya qoyduğu tələblərə uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən 2009-cu ilin sentyabr ayının 1-dən 10-a qədər Respublika ərazisindəki kitabxanalarda monitorinq keçirildi.

Monitorinqin nəticələrinə əsasən, kütləvi, uşaq, gənclər, elmi, elmi-köməkçi, digər ixtisaslaşdırılmış, həmçinin müəssisələrin nəzdində olan 8507 kitabxananın 50,7 faizi Təhsil Nazirliyinin (48,0 faizi ümumtəhsil, 2,7 faizi ilk peşə-ixtisas, orta ixtisas və ali təhsil müəssisələrində) fəaliyyət göstərir. Təhsil Nazirliyi sistemində 72 elmi, 57 ali məktəb, 60 orta ixtisas təhsil müəssisəsi, 107 ilk peşə-ixtisas təhsil müəssisəsi və 4081 ümumtəhsil məktəb kitabxanaları tələbatçıların informasiya xidmətini həyata keçirir. Ümumtəhsil məktəb kitabxanalarının 1174-ü (28,8 faizi) şəhər yerlərində, 2907-i (71,3 faizi) kənd yaşayış məntəqələrində fəaliyyət göstərir. Kitabxana fondunun

34,6 faizi ümumtəhsil məktəblərinin kitabxanalarındadır. Fondun 69,8 faizi şəhər, 30,2 faizi isə kənd yerlərindəki məktəb kitabxanalarda yerləşir (3.s.3-9).

Monitorinqin nəticələrinə əsasən məlum olur ki, ümumiyyətlə, Bakı şəhərində cəmi 717 (8,4 faiz) kitabxana var. Bu kitabxanaların cəmi 88-i (12,3 faizi) Mədəniyyət və Turizm Nazirliyinin, 507-i (70,7 faizi) Təhsil Nazirliyinin tabeliyindədir. Bakı şəhərində cəmi 354-ü (49,4 faiz) ümumtəhsil məktəb kitabxanası var. Bu kitabxanalar Bakının rayonları üzrə belə yerləşir:

1. Binəqədi rayonu üzrə - 32(48,2 %);
2. Xəzər rayonu üzrə - 44(55,7 %);
3. Xətai rayonu üzrə - 38(66,6 %);
4. Qaradağ rayonu üzrə - 26(60,5%);
5. Nərimanov rayonu üzrə - 36,2 %;
6. Nəsimi rayonu üzrə - 31(49,3%);
7. Nizami rayonu üzrə - 28(57,2 %);
8. Sabunçu rayonu üzrə - 50(60,3%);
9. Səbail rayonu üzrə -17(28,2%);
10. Suraxanı rayonu üzrə -35(76,2 %);
11. Yasamal rayonu üzrə -27(27,2 %) (3.s.26-27)

Kitabxanalar cəmiyyət üzvlərinin mədəniyyətinin, əxlaqının, mənəviyyatının formalaşmasına xidmət etmiş və onların intelektual-mənəvi potensialının inkişafında mühüm rol oynamışlar. Məhz buna görədir ki, kitabxanaları bütün təhsil müəssisələrinin bir saylı laboratoriyası hesab edirlər. (6)

Bu gün təhsil kitabxanaları şagirdlərin və müəllimlərin şəxsi təhsil bazası kimi qiymətləndirilir. Bu kitabxanalar rəsmi təhsilə xidmət etməklə yanaşı, şəxsi təhsilin və fasiləsiz təhsilin vasitəsi kimi də çıxış edirlər.

Ümumtəhsil məktəb kitabxanalarına metodik rəhbərlik Respublika Elmi Pedaqoji Kitabxanası (REPK) tərəfindən həyata keçirilir. 1982-ci ildə yaradılmış REPK respublikada ümumtəhsil məktəb kitabxanalarının fəaliyyətini əlaqələndirməklə, həm də respublika əhəmiyyətli elmi sahəvi kitabxanadır.

2008-ci ildə REPK Bakı şəhərinin 11 rayonunun məktəb kitabxanalarında monitorinq keçirmişdir. Yekun nəticələrinə əsasən, ümumtəhsil məktəblərinin kitabxanaları və kitabxanaçıları haqqında statistik məlumat verilir.

Monitorinqin nəticələrinə əsasən aydın olur ki, Bakı şəhərinin ümumtəhsil məktəb kitabxanalarının sayı 322, fondunun həcmi 6307302 nüsxə, oxucularının sayı 176407 nəfərdir.

Kitabxanaların əsas atributlarından biri kitabxana mütəxəssisləridir. Kitabxanada aparılan işlərin keyfiyyəti əhəmiyyətli dərəcədə kadrların hazırlanmasından və onların ixtisaslarının yüksəldilməsindən asılıdır. Yüksək ixtisaslı kitabxanaçı kadrlar mütərəqqi iş metodlarını tezliklə mənimsəyir, öz işinə tətbiq edir, əməyin keyfiyyətli olmasını təmin edirlər. Buna görə də

əməyin elmi kompleksində kadrlarla aparılan işin yaxşılaşdırılması əhəmiyyətli yer tutur (5.s.181).

Monitorinqin nəticələrinə əsasən, Bakı şəhərinin bütün rayonları üzrə ümumtəhsil məktəb kitabxana mütəxəssislərinin sayı 537 nəfər olmuşdur. Kitabxana mütəxəssislərinin yalnız 108 nəfəri ali-ixtisas təhsilli, 114 nəfəri ali qeyri-ixtisas təhsilli, 175 nəfəri orta ixtisas təhsilli, 175 nəfəri orta qeyri-ixtisas təhsilli, 73 nəfəri isə ümumi orta təhsilli olmuşdur. Bakının ayrı-ayrı rayonlarının ümumtəhsil məktəb kitabxanalarının qarşılıqlı müqayisəsi zamanı məlum olur ki, ixtisaslı kadrlarla təminat səviyyəsinə görə Yasamal (5 nəfər), Səbail (4 nəfər), Qaradağ (5 nəfər) rayonlarının məktəblərində ali-ixtisas təhsilli mütəxəssislərlə təminat səviyyəsi qənaətbəxş deyil. Xətai rayonun məktəb kitabxanaları ixtisaslı kadrlarla təminat səviyyəsinə görə birinci yerdə olmuşdur (19 nəfər). Sonrakı yerləri Sabunçu (15 nəfər) və Suraxanı (13 nəfər) rayonları tutur. Nəsimi, Nərimanov, Nizami rayonlarının məktəb kitabxanalarında cəmi 10 nəfər ali təhsilli mütəxəssis xidmət göstərmişdir.

Orta-ixtisas təhsilli mütəxəssislərlə təminat səviyyəsinə görə Binəqədi rayonunun məktəb kitabxanaları ilk yerdədir (28 nəfər). Sonrakı yerləri Sabunçu rayonu (27 nəfər), Xəzər rayonu (20 nəfər), Xətai rayonu (18 nəfər), Suraxanı rayonu (17 nəfər), Nizami rayonu (16 nəfər) tutur. Bakı şəhəri üzrə məktəb kitabxanaçılarının böyük qismi orta-qeyri ixtisas təhsillidir. Ümumi orta təhsilli kitabxanaçılar mərkəzi rayonlarda (Yasamal, Səbail, Nəsimi) daxil olmaqla Bakının bütün məktəb kitabxanalarında var.

Ümumilikdə, respublikada təhsilin, təlim-tərbiyə işinin yenidən qurulması və inkişaf etdirilməsinə yaxından köməklik göstərilməsi üçün Təhsil Nazirliyi sisteminə daxil olan ümumtəhsil məktəb kitabxanalarının fəaliyyəti haqqında geniş məlumatların öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. REPK bu işə hər zaman diqqət yetirmişdir. REPK öz daxili imkanları hesabına Təhsil Nazirliyi sistemində ilk dəfə 2003-cü ildə Elektron Məlumat Bazası (Verilənlər Bazası) yaratmışdır. Yeni informasiya texnologiyalarının inkişafı ilə əlaqədar olaraq REPK Elektron Məlumat Bazası üzərində daima təkmilləşdirmə işləri aparır. REPK-nın hazırladığı Məlumat bazası (Verilənlər Bazası) əsasında respublikada təhsil sistemi kitabxanalarının fəaliyyəti, fondunun miqdarı, maddi-texniki vəziyyəti və s. haqqında qısa zaman ərzində ətraflı məlumat almaq mümkündür.

Məlumat bazasına daxil olan hesabatlara əsasən, məlum olur ki, məktəb kitabxanalarının 90 faizinin maddi-texniki bazası müasir tələblərə cavab vermir. Yeni tipli məktəb kitabxanaları istisna olmaqla, əksər kitabxanalarda oxuculara xidmət səviyyəsi zəifdir. Kitabxanaların böyük əksəriyyəti texniki avadanlıqlarla (kompüter, printer, surətçıxarma, skayner, CD disk və s.) təmin olunmamışdır.

Məktəb kitabxanalarında oxucuların internetdən istifadə imkanları olduqca məhduddur. Məsələn, Bakının Binəqədi rayonundakı 31 məktəbdən yalnız 6-da kitabxananın internetə çıxış imkanı var. Nəsimi rayonunun 25 məktəbindən

6-da, Xətai rayonunda 28 məktəbdən 4-də, Sabunçu rayonunda 44 məktəbdən 14-də, Yasamal rayonunda yerləşən 20 məktəbdən 5-də kitabxananın internetdən istifadə imkanı vardır. (6)

Kitabxana xidməti işinin yaxşılaşdırılmasının əsas göstəricilərindən biri də kitabxana fondunun tələbata uyğun təşkili və komplektləşdirilməsi məsələsidir. Məktəb kitabxanalarının komplektləşdirilməsində fondun miqdar artımı deyil, eyni zamanda onun tərkib zənginliyi də mühüm əhəmiyyət kəsb edir. Xüsusilə məktəb kitabxanalarının bütün bilik sahələrinə dair zəngin tədris ədəbiyyatı ilə komplektləşdirilməsi, oxucuların yaş qruplarının və müəllimlərin şəxsi təhsil tələblərinin nəzərə alınması xüsusi əhəmiyyət kəsb edir. Burada fondun bədii ədəbiyyat, elmi-metodik ədəbiyyat, uşaq ədəbiyyatı, tərbiyəvi-pedaqoji ədəbiyyat və digər resurslarla komplektləşdirilməsi vacib məsələdir. Çünki ümumtəhsil məktəblərinin kitabxanalarının fondlarının komplektləşdirilməsi yeni nəslin dünyagörüşünün formalaşmasında, tədris işinin səmərəli təşkilində mühüm əhəmiyyət kəsb edir. (6)

Məktəb kitabxanalarının, oxucuların yaş qrupları nəzərə alınmaqla bütün bilik sahələrinə dair zəngin tədris ədəbiyyatı ilə təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir. Məktəb kitabxanaları yeni nəslin dünyagörüşünün formalaşmasında, tədris işinin səmərəli təşkilində mühüm əhəmiyyət kəsb etdiyindən fondun bədii ədəbiyyat, elmi-metodik ədəbiyyat, uşaq ədəbiyyatı, tərbiyəvi-pedaqoji ədəbiyyat və digər resurslarla komplektləşdirilməsi vacib məsələdir.

REPK 2014-2015-ci illərdə Bakı şəhərinin məktəb kitabxanaları arasında statistik hesablamalar aparmışdır. Bu hesablamaların nəticələrinə görə, Bakı şəhərində yerləşən ümumtəhsil məktəblərinin kitabxana fondlarının ümumi həcmi 8205130 nüsxə təşkil edir. Bu fondun 1186186 nüsxəsi əsas fonddur.

Aydın olur ki, Bakı şəhərinin ümumtəhsil məktəblərinin sayı 286-dır. Rayonlar üzrə ümumtəhsil məktəblərinin bölgüsü aşağıdakı kimidir:

1. Binəqədi rayonu -31;
2. Xəzər rayonu -27;
3. Qaradağ rayonu -23;
4. Nərimanov rayonu -20;
5. Nəsimi rayonu -25;
6. Nizami rayonu -21;
7. Sabunçu rayonu -44;
8. Səbail rayonu -14;
9. Suraxanı rayonu -27;
10. Yasamal rayonu -20;
11. Xətai rayonu -28;
12. Pirallahı rayonu -6;

Kitabxana mütəxəssislərinin təhsil səviyyələrinə görə bölgüsü belədir:

1. Ali ixtisaslılar -16%;
2. Orta ixtisaslılar -19 %;

3. Ali qeyri-ixtisaslılar -23%;
4. Orta qeyri-ixtisaslılar -41%; (6)

REPK tərəfindən 2008-ci ildə Bakı şəhərinin məktəblərində aparılmış monitorinqin nəticələri ilə 2014-2015-ci illərdəki statistik hesablamaları qarşılıqlı şəkildə müqayisə etsək aydın olar ki, kitabxana mütəxəssislərinin təhsil səviyyəsinə görə bölgüsünə əsasən yenə də ilk yeri orta qeyri-ixtisaslı kadrlar tutur (41%). Ali ixtisas təhsilli kitabxana mütəxəssisləri respublikanın bütün region kitabxanalarında olduğu kimi Bakı şəhərinin məktəb kitabxanalarında da azlıq təşkil edir.

Qeyd etmək lazımdır ki, REPK tərəfindən 2008-ci ildə aparılmış monitorinqin nəticələri ilə 2014-2015-ci illərədəki statistik nəticələri qarşılıqlı şəkildə müqayisə edən zaman məlum olur ki, son illərdə Bakının rayonlarında məktəblərin sayı nəzərəçarpacaq dərəcədə artmışdır. Bu isə həm də həmin məktəblərdə təşkil olunmuş yeni məktəb kitabxanaları deməkdir.

Hər bir məktəb kitabxanasında müəllim və şagirdlərin informasiya təminatının keyfiyyətli şəkildə ödənilməsi kitabxana fondunun zənginliyindən də birbaşa asılıdır. Belə ki, inkişaf etmiş informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq məktəb kitabxanalarının fondunda elmi-populyar dövri nəşrlər, məlumat biblioqrafiya aparatı (kataloq, kitab fondu əsasında mövzu kartotekası və başqa informasiya daşıyıcıları, tövsiyə siyahıları və s.) olmaqla, tədrislə yanaşı, mədəniyyətə dair informasiyanın formalaşması da təmin edilməlidir.

Məktəb kitabxanalarının əsas fondları komplektləşdirilərkən ilk növbədə bədii ədəbiyyata və müxtəlif fənlər üzrə test kitabçalarına üstünlük verilir. Üçüncü kateqoriyada isə ensiklopediyalar və sorğu kitabları durur. Son dövrlərdə məktəb kitabxanalarından kiril qrafikalı ədəbiyyatlar çıxarılmış və latın qrafikalı nəşrlərlə əvəz olunmuşdur. Dövlət başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli sərəncamlarına uyğun olaraq Azərbaycan və dünya ədəbiyyatı, eləcə də lüğət və ensiklopediyalar silsiləsindən ümumi tirajı 9 milyondan artıq kitab nəşr edilərək kitabxanalara, xüsusilə məktəb kitabxanalarına təmənnasız olaraq göndərilmişdir.

Məktəb kitabxanalarında müxtəlif yaş qruplarına aid olan şagirdlərin yaş xüsusiyyətləri və psixologiyasına aid ədəbiyyat kitabxana fondlarında azlıq təşkil edir. Xüsusilə də ibtidai sinif şagirdlərinin tələbatına uyğun uşaq ədəbiyyatına dair kiçik həcmli nəşrlərin sayı fondlarda məhdud saydadır. Buna görə də şagirdlərin fonddan istifadəsi göstəriciləri çox aşağı səviyyədədir. Məsələn, Binəqədi rayonundakı 31 məktəbdə 43339 nəfər şagird təhsil alır, 19400 nəfər şagird kitabxanalarından istifadə edir. Nərimanov rayonunda 20 məktəbdə təhsil alan 21558 şagirddən 11522 nəfəri kitabxananın istifadəçisidir. Bu vəziyyət Bakı şəhərinin digər rayonları üçün də xarakterik haldır.

Məlum olur ki, Bakı məktəblərində 2015-ci ildə cəmi 319664 nəfər şagird təhsil almışdır. Onların 150687 nəfəri, yəni yarıdan çoxu kitabxana oxucuları olmuşdur. Bakı şəhərinin müxtəlif rayonları üzrə məktəb kitabxanalarının xidmətindən istifadə edən oxucuların sayı 1-17%-i intervalında dəyişir. Belə ki, nəticələrə əsasən demək olar ki, Suraxanı rayonunda məktəblilərin yalnız 1%-i, Pirallahı rayonunda isə 1,1%-i kitabxana xidmətindən istifadə edən şagirdlərdir. Yasamal, Səbail, Nərimanov kimi mərkəzi rayon məktəblərində oxucuların sayı 6-8% aralığında dəyişir. Bu sahədə ən yüksək nəticə Sabunçu və Binəqədi rayon məktəblilərinin payına düşür. Bu göstərici həm də bu rayonların məktəblilərinin sayı ilə mütənasibdir. Yəni məktəblilərin yarısından çoxu kitabxana oxucularıdırlar.

Məktəb kitabxanalarında bir çox çatışmazlıqlar da var. Belə ki, kitabxanaların fondlarında təlim-tədris prosesində şagirdlərin informasiya tələbatını ödəmək üçün rəqəmsal informasiya resursları yox dərəcəsindədir. Bu isə kitabxana xidmətinin keyfiyyətinə mənfi təsir edən ünsürlərdən biridir.

Məlum olur ki, məktəb kitabxanalarının fondlarının 30-40%-i oxucular tərəfindən istifadə olunmur. Bu çatışmazlıqları aradan qaldırmaq üçün kitabxana fondlarının elektron-informasiya daşıyıcılarına köçürilməsi müasir informasiya cəmiyyətinin əsas tələbidir.

Hazırda ölkəmizdə böyük təhsil islahatları aparılır. Təhsil sisteminin bütün işçiləri kimi kitabxanaçılar da bu islahatın aparılmasında yaxından iştirak edir, şagirdlərin və tələbələrin dərsliklərlə, dərs vəsaitləri ilə, digər sinifdənkənar oxu materialları ilə təmin edilməsi işini həyata keçirirlər (4.s.133).

**Nəticə.**

Respublikamızda aparılan təhsil islahatları ümumtəhsil məktəb kitabxana fondlarının yenidən təşkil edilməsini və kitabxanaların imkanlarından geniş oxucu auditoriyasının - müəllimlərin, şagirdlərin kitabxanalara cəlb edilməsini tələb edir. Hazırda məktəb kitabxanalarında görüləcək işlər sırasında aşağıda göstərilən vəzifələrin həyata keçirilməsi vacibdir:

1. Məktəb kitabxanalarının fondlarının zənginləşdirməsi, Azərbaycan dilində və digər dillərdə ədəbiyyatın toplanmasının təmin edilməsi;
2. Kitabxanaların kompüterlərlə təhciz edilərək onların internetə qoşulması, elektron kitabxana idarəetmə - ALİSA (Automated Library Information System of Azerbaijan) proqram təminatının quraşdırılması və tətbiq edilməsi;
3. Kitabxanalarda oxu zallarının təşkil edilməsi;
4. Kitabxana fondlarından ideoloji cəhətdən köhnəlmiş və yararsız vəziyyətdə olan kitabların çıxarılması;
5. Kitabxanalarda görkəmli yazıçı və şairlərin yubileyləri, yaradıcılıqları ilə bağlı tədbirlərin keçirilməsi; diskusiyalar, konfranslar, dəyirmi masalar, viktorinalar, müsabiqələrin təşkil edilməsi və s.

**Ədəbiyyat**


1. «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı».// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal.-2008.№ 2.-s.6-29
2. «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu.// Kitabxanaşünaslıq və biblioqrafiya.1999.- №1.-S.3-16.
3. «Kitabxanaların fəaliyyəti haqqında» statistik müayinənin nəticələri barədə. Statistik bülleten. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.-Bakı.-2009.-88s.
4. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik (3 hissədə).-H.2.-B.,2010.- 432s.
5. İsmayılov X.İ. Kitabxana işinin təşkili və idarə olunması: Dərslik.-Bakı: Nurlar, 2009. -392 s.
6. www.repk.azupload/REPK
7. www.anl.az/down/Azf.

# MÜASİR AKADEMİK KİTABXANA-İNFORMASİYA XİDMƏTİNİN TƏŞKİLİ METODİKASI: ADA UNİVERSİTETİ KİTABXANASININ İŞ TƏCRÜBƏSİ ƏSASINDA

***Vəfa Məmmədova***
*BDU, Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrası, Doktorant*
*ADA Universiteti, Kitabxana və İnformasiya Xidmətləri Şöbəsi, Mütəxəssis*
*vmammadova@ada.edu.az; vafa.mag@gmail.com*

***Методика организования современных академических библиотеко-информационных обслуживаний: на основе практики Библиотеки Университета АДА***
***Резюме:*** *В статье определяются место и роль академических библиотек в глобальном информационном обществе, дается качественный и количественный анализ библиотеко-информационных обслуживаний пользователям с применением современных информационных технологий. Далее приводится данные, полученные в результате статистических и аналитических изучений обслуживания, предоставляемого пользователям в Библиотеке Университета АДА.*
***The methods of organizing modern academic library-information services: on the basis of the work practice of the ADA University Library***
***Abstract:*** *The paper defines the place and the role of the academic libraries in the global information society, qualitatively and quantitatively analyzes the library-information services rendered to users by implementation of the modern information technologies. Later it is given a data retrieved as a result of statistically and analytically studying of the services provided to users at the ADA University Library.*

***Açar sözlər:*** *informasiya cəmiyyəti, müasir kitabxanaçılıq, akademik kitabxana, kitabxana-informasiya xidməti, informasiya mədəniyyəti, kitabxana istifadəçiləri, xidmətin müasir növləri.*
***Ключевые слова:*** *информационное общество, современное библиотековедение, академическая библиотека, библиотеко-информационное обслуживание, информационная грамотность, пользователи библиотеки, современные виды обслуживания.*
***Keywords:*** *information society, modern librarianship, academic library, library-information service, information literacy, library users, modern types of the service.*

## Giriş

Qloballaşma şəraitində müasir informasiya cəmiyyətinin mühüm ünsürlərindən ən başlıcası və birincisi məhz informasiyanı toplayıb onun sistemli ictimai istifadəsini təşkil edən kitabxanalar və digər informasiya müəssisələridir. Vahid informasiya məkanında qarışıq halda olan lazımlı və lazımsız, dəyərli və dəyərsiz, müxtəlif növdə və məzmunda olan informasiyanın dəyərləndirilərək seçilməsi və onun mühafizəsinin təşkil edilməsi işi müasir kitabxanaçılığın və kitabxanaçıların qarşısında duran mühüm vəzifələrdəndir. Belə olan təqdirdə, kitabxanalar profilindən və istifadəçi kontingentindən asılı olaraq bu missiyanı şərəflə yerinə yetirməyə səy göstərirlər. Bu baxımdan, ali təhsil müəssisələrinin ayrılmaz tərkib hissəsi

kimi fəaliyyət göstərən və onların əsas məhəkdaşını təşkil edən akademik kitabxanalar qarşısında bir sıra vacib öhdəliklər durur:

- sənədin aid olduğu mövzunun müəyyənləşdirilməsi - onun xidmət göstərəcəyi kontingentin ehtiyaclarına və tələblərinə nə dərəcədə uyğun gəlib-gəlməməsi;
- tələbat və istifadə potensialının araşdırılması;
- informasiya daşıyıcısının material baxımından keyfiyyəti və dözümlülüyünün qiymətləndirilməsi;
- fondun tarazlığının qorunmasına xələl gətirilməməsi;
- digər məsələlərin - müəllif, naşir, format, rəylər, qiymət, istifadəçi kontingenti, aktuallıq və s. aydınlaşdırılması. (Disher, 2007)

Komplektləşdimə zamanı məsləhət komitəsi təşkil edilə bilər ki, belə komitənin tərkibinə adətən təhsil müəssisəsinin professor-müəllim heyəti, aktiv tələbələr, kitabxanaçılar və mütəxəssislər daxil olur. (Loertscher & Wimberley, 2009) Bu zaman qarşıda duran əsas məqsəd komplektləşdirmə üçün ayrılmış büdcə vəsaitinin daha səmərəli və qənaətlə xərclənməsinə nail olmaqdır.

İstifadəçi sorğularının hərtərəfli və operativ ödənilməsini hədəf tutan kitabxana-informasiya xidmətləri zamanın ağır sınaqlarından çıxaraq müasir vəziyyətə gəlib çatmışdır. Bu baxımdan, XX əsrin sonlarından etibarən tətbiq edilməyə başlayan yüksək texnologiyalar cəmiyyətin bütün sferalarına və fəaliyyət sahələrinə olduğu kimi, kitabxana-informasiya xidmətləri sektoruna da müsbət mənada sirayət etmişdir. Yeni texnoloji nailiyyətlərin verdiyi imkanlar kitabxana-informasiya fəaliyyətini məzmunca yenidən qurmağa və fiziki əməyə daha az vaxt sərf etməklə yüksək nəticələr əldə etməyə şərait yaradır. Belə ki, mövcud, ildən-ilə təkmilləşdirilən və eyni zamanda, daha mükəmməl variantları yaradılan avtomatlaşdırılmış kitabxana-informasiya sistemlərinin (AKİS-lər) tətbiqi nəticəsində müxtəlif kitabxana proseslərini və fəaliyyət növlərini bir sistem daxilində bir-birilə qarşılıqlı surətdə əlaqələndirmək imkanı yaranır ki, bu zaman alınan nəticənin sərf edilən əmək və zamana nisbətdə məhsuldarlıq baxımından daha gözəçarpan olduğu meydana çıxır.

**Məsələnin qoyuluşu**

Məqalədə akademik kitabxana mühiti və bu mühit üçün xarakterik olan tələbə soğularının xüsusiyyətləri müəyyən olunur. Eyni zamanda kitabxana-informasiya xidməti iştirakçılarının özünəməxsus cəhətləri və keyfiyyətləri təhlil edilir. İstifadəçilərə xidmətin sosial-psixoloji aspektləri də məqalədə xüsusi vurğulanmışdır.

**1. Akademik kitabxana mühiti və tələbə sorğuları.**

Kitabxanalar adətən tələbə şəhərciyinin "ürəyi" kimi xarakterizə olunduğundan, müasir kitabxanalar təhsil prosesinin tələbə həyatında daha əlverişli və qavranılan olması üçün tələb olunan akademik mühiti təmin etmək yönümündə öz fəaliyyətlərini qurmağa çalışırlar. Tədris və təlimə dəstək olan mövcud və əlçatan kitabxana xidmətləri və ehtiyatları həmin mühitin mühüm

aspektləridir. (*Reviewing the academic library: A guide to self-study and external review,*2015)

Akademik kitabxana xidmətinin yetərli olub-olmadığının müəyyənləşdirilməsi bir sıra amillərin nəzərə alınmasını labüd edir. Bunlara aiddir:

- ✓ Bildirişlər – kitabxana xidməti akademik ictimaiyyəti (professor-müəllim heyəti, tələbələr, işçi heyət) tədris proqramları ilə əlaqədar müxtəlif növ bildirişlərlə təmin edirmi?
- ✓ Dil – kitabxanaçılar müxtəlif sahələrə aid tələbə sorğularını kafi səviyyədə cavablandırmaq üçün yetərli bilik və bacarıqlara malikdirlərmi? Adətən, ünsiyyətdə olan tərəflərdən (professor-müəllim heyəti və kitabxanaçılar) mövzu ilə əlaqəli bilik və təcrübəyə malik olduqlarını sübut etmələri tələb olunur.
- ✓ Uyğunluq – kitabxanaçılar cari akademik proqramın tam mənada qavranılmasına yönləndirilmiş xidmət işini təmin edə bilirlərmi?
- ✓ Yaddaş – kitabxanaçılar akademik ictimaiyyət tərəfindən işlənib hazırlanmış mövcud və yeni tədris-proqram razılaşmalarının mühafizəsi və əlyetərliliyinin təmin edilməsi üçün tələb olunan vasitələrdən istifadə imkanını təmin edirlərmi? (Lankes, 2011)

Bu baxımdan əlyetərlik, bilik, mühit və motivasiya amilləri xidmət işinin keyfiyyət göstəriciləri kimi istifadəçilərin sorğu və tələbatlarının ödənilməsi zamanı mühüm əhəmiyyət kəsb edir.

Kitabxana-informasiya xidmətləri mühitində istifadəçi maraqları və gözləntiləri zaman keçdikcə daha çox rəqəmsal şəbəkə texnologiyaları və alətlərindən asılı vəziyyətə düşməkdədir. İstifadəçilər ehtiyac duyduqları informasiyanı məzmun və mobil əlavələr baxımından öz şəxsi maraqlarına və tərzlərinə uyğunlaşdırmaq bacarığı, fərdilik və xüsusilik axtarışındadırlar. Onlar informasiya və ideyaların daha açıq şəkildə, sərbəst və maneəsiz axınını və mübadiləsini arzulayırlar, digərlərinin çox cüzi müdaxiləsi ilə öz informasiya ehtiyaclarını özünəxidmət üsulu vasitəsilə idarə etməyə və ödəməyə şərait yaradan mühit istəyirlər. İstifadəçilər daha çox və daha yaxşı məzmun və əlçatanlıq arzusundadırlar. Onlar fərdi və qrup halında məhsuldarlığın daha az xərclə və hətta heç bir vəsait sərf etmədən yüksək səviyyədə əldə edilməsinə can atırlar. (McKnight, 2010)

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, akademik kitabxanalar təlim və tədris prosesi ilə bu və ya digər şəkildə əlaqəli olan böyük sayda maraqlı şəxslərə - akademik heyətə, tələbələrə, ali təhsil müəəssisələrinə, valideynlərə, işəgötürənlərə, peşəkar assosiasiyalara, Kitabxana-İnformasiya elmini tədris edənlərə və dövlət orqanlarına səmərə gətirir. (McKnight, 2010)

**2. Müasir dövr kitabxanaçılarından tələb olunan keyfiyyətlər.**

Kitabxanaçılar bir sıra mühüm bilik və bacarıqlara malik çoxşaxəli peşəkarlar olmaqla onlardan təlim və tədris prosesində geniş istifadə edilməlidir. Bəzi kitabxanaçılar bu işdə yaxından iştirak etməsinə baxmayaraq

bu sahədə hələ ki, geriliklər nəzərə çarpır. Bugünün akademik kitabxanaçıları müxtəlif xüsusiyyətləri özündə birləşdirir:

- Kitabxana və İnformasiya elmi ixtisas dərəcəsinə malik peşəkar kitabxanaçı;
- İnformasiya bilik və bacarıqlarını öyrədən akademik mütəxəssis (tədris etmə hüququ verən ixtisas dərəcəsinə malik), o cümlədən, tədqiqat aparan, təqdimatları və nəşrləri ilə biliyin ötürülməsinə yardım edən peşəkar;
- Geniş müxtəliflikdə olan İKT proqram və alətlərini başa düşən, istifadə edən və tətbiq etmək bacarığı olan praktikant;
- Mürəkkəb büdcə və böyük sayda işçi heyəti idarə etmə məsuliyyətini daşıyan bacarıqlı rəhbər; və nəhayət,
- Xidmət şöbələri və akademik ictimaiyyət arasında əlaqələr quran, danışıqlar və sövdələşmələr aparan siyasətçi. (McKnight, 2010)

Xidmətin istənilən sahəsində uğur qazanmaq üçün işçi heyətin nümayəndələri komanda şəklində çalışmalı, özləri və bir-biriləri haqqında müsbət rəy formalaşdırmalıdırlar. Həyata baxışları nikbin olan işçilər adətən həm özləri, həm də iş yoldaşlarına qarşı münasibətdə müsbət mövqe tuturlar. Bu eyni zamanda istifadəçilərə xidmət işində də özünü büruzə verir. Xidmət işçisinin bilməli olduğu məqamlara və malik olduğu əsas keyfiyyətlərə daxildir:

- *Görüntü* – müəssisəni təmsil etdiyinə görə xidmət personalının uyğun görüntüyə malik olması vacib şərtdir;
- *Əhval-ruhiyyə* – müştərilərlə ünsiyyət zamanı əhval-ruhiyyə arxa plana keçməli, istifadəçiyə heç bir halda pis reaksiya göstərilməməli və ya onun davranış qaydalarını pozmasına yol verilməməlidir. Diqqəti şəxsi problemlərə deyil, işin düzgün icra edilməsinə yönləndirməklə stresi yaxın buraxmamaq lazımdır;
- *Həmişə hazır olmaq* – istifadəçilərlə ünsiyyətə daima hazır olmaq gərəkdir;
- *Bilik* – işə və xidmətə dair yetərli bilik və bacarıqlara malik olub istifadəçilərin razı qalmasına və özlərini qayğıdan kənar hiss etməmələrinə nail olmaq vacibdir. (Gannon-Leary & McCarthy, 2010)

Göstərilən keyfiyyətlərlə yanaşı, əsas dəyərlərə əxlaq, səmimilik, özünüinkişaf, intellektual azadlıq və təhlükəsizlik, əqli mülkiyyət baxımından qərəzsizlik və vicdanlılıq kimi xüsusiyyətlər də əlavə olunur. (Lankes, 2011)

**Məsələnin izahı**

Akademik kitabxanalarda xidmət işinin yüksək səviyyədə təşkili bir sıra məsələlərdən, xüsusilə də təqdim edilən xidmət növlərinin müasir zamanın tələblərinə və ehtiyaclarına nə dərəcədə cavab verib-verməməsindən asılıdır. Bu baxımdan, çağdaş zamanın ayrılmaz tərkib hissəsi olan yüksək

texnologiyaların kitabxana işində tətbiqi onun daha mükəmməl, operativ və çoxtərəfli olmasına rəvac verir.

### 1. Müasir akademik kitabxana xidmətinin növləri.

Dünyanın bir sıra ali təhsil müəssisələrinin akademik kitabxanaları müxtəlif növdə xidmətlər təklif edir ki, bu xidmətlər adətən akademik mühit iştirakçılarının tədqiqatla əlaqəli kitabxana-informasiya tələbatlarının və sorğularının ödənilməsinə yönləndirilmişdir. Dünyanın bir sıra öndə gedən akademik kitabxanalarının (Corc Vaşinqton Universiteti, Texas Universiteti, London İqtisadi və Siyasi Elmlər Məktəbi və s.) təqdim etdiyi ümumi xidmətlər toplusunu təhlil edərkən aşağıdakı ənənəvi və müasir xidmət növləri diqqəti cəlb edir:

- kitab və digər fiziki informasiya daşıyıcılarının verilişi, onların istifadə vaxtının artırılması;
- soraq-biblioqrafik tövsiyyə xidmətləri;
- dərsliklər fondunun təşkili xidməti;
- kitabxanalararası abonement (KAA) xidməti;
- elektron resurslardan istifadəyə dair məşğələlərin təşkili;
- onlayn məsləhət xidməti;
- qrup məşğələ otaqlarının istifadəyə verilməsi;
- kompüter və internet (o cümlədən, wi-fi) xidməti;
- çap, surətçıxarma və skanirə xidməti;
- rəqəmsallaşdırma xidməti;
- cildləmə xidməti;
- kənar istifadəçilər üçün üzvlük xidməti;
- məşhur yazıçılarla görüşlərin təşkili;
- kitab müzakirəsi klublarının təşkili;
- kitab təqdimatlarının keçirilməsi və s. (Library services: The George Washington University.; Library services: University of Texas Libraries.2016; Using the library: London School of Economics Library.2016)

Təqdim edilən xidmətlər ödənişli və ödənişsiz olmaqla 2 qrupa ayrıla bilər. Adətən, bu tip xidmətlər daxili istifadəçilər (tələbə, müəllim və işçi heyəti) üçün pulsuz olduğu halda, kənar istifadəçilərə müəyyən ödəniş qarşılığında təklif edilir.

### 2. ADA Universiteti Kitabxanasının istifadəçilərə xidmət işinin keyfiyyət baxımından təhlili.

ADA Universiteti Kitabxanasında uğurla tətbiq edilən Millennium Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemi kitabxana proseslərini və xidmətlərini avtomatlaşdırmaqla yanaşı, müxtəlif şöbələrin işini bir sistem daxilində mərkəzləşdirir və əlaqələndirir. Sistemin işçi modulları kitabxananın əsasən komplektləşdirmə, kataloqlaşdırma, dövriyyə xidmətləri, elektron

resursların idarə edilməsi, dövri nəşrlər, sistem administrasiyası və s. kimi proseslərini asanlaşdırır və eyni zamanda statistik məlumatların təhlili və emalı zamanı kitabxanaçı əməyinə və vaxtına qənaət edir. (Məmmədova, May 5, 2016)

Universitetin Kitabxanası müasir standartlara cavab verən yüksək texnologiyalarla təchiz edilmişdir və bu avadanlıqlar oxuculara xidmət işinin təşkili zamanı əvəzsiz rol oynayır. Bunlara özünəxidmət kitab verilişi cihazları (tələbə/müəllim/işçi kartından istifadə etməklə kitab və digər informasiya daşıyıcılarının avtomatik qeydiyyatdan keçirilməsi, kitabxanaya geri qaytarılması və s. əməliyyatların icrasına imkan verir), onlayn kataloqda axtarışı həyata keçirmək üçün elektron axtarış kiosklar (Innova searching kiosks), çap/surətçıxarma/skanirə avadanlığı (yalnız müəyyən məbləğli balansa malik tələbə/müəllim/işçi kartı ilə istifadə etmək mümkündür), qrup məşğələ otaqlarında quraşdırılmış ağıllı lövhələr (Smart Board), interaktiv reklam lövhəsi (Monolith), internetə birbaşa çıxış imkanı verən masaüstü kompüterlər (iMac), 3M təhlükəsizlik qapıları və s. aiddir.

Hazırda kitabxana 2785 daxili (müəllim, tələbə və işçi heyəti) və 84 kənar istifadəçiyə xidmət işini uğurla həyata keçirir. Kitabxana fondunda 45 min nüsxəyə qədər çap formasında kitab və digər informasiya daşıyıcıları mühafizə olunur, 100 minlərlə isə elektron kitaba çıxış imkanı təmin edilir.

Xidmət işinin keyfiyyət baxımından təhlili məqsədilə aparılan sosioloji sorğu bir sıra vacib məqamları ortaya çıxarmışdır. Belə ki, respondentlərin təxminən 85%-i istifadəçilərə xidmətin səviyyəsini "çox yüksək", digər 15% istifadəçi isə "yaxşı" qiymətləndirmişdir. Daha çox ehtiyac duyulan kitabxana xidmətləri içərisində çoxdan aza doğru ardıcıllıq belə təsvir oluna bilər: internetdən istifadə imkanı; çalışma ərazisi; qrup məşğələ otaqları; kitabxana materiallarının verilişi; kompüterlərin, printerlərin və s. avadanlıqların istifadəsi zamanı yardım; elektron resurslardan istifadəyə dair məşğələlərin təşkili; tədqiqat araşdırması zamanı kitabxanaçı dəstəyi; çap formatlı qəzet və jurnalların istifadəsi və digər xidmətlər.

Kitabxana işçilərinin istifadəçi nöqteyi-nəzərindən dəyərləndirilməsi ürəkaçan mənzərə yaradır. Qeyd etmək lazımdır ki, hazırda ADA Universiteti Kitabxanasının işçi heyəti direktor da daxil olmaqla 10 nəfərdən ibarət olub 4 şöbə üzrə fəaliyyət göstərir. Sosioloji sorğunun nəticələri təsdiq edir ki, kitabxana işçiləri heç bir ayrı seçkilik yaratmadan hər kəsə ədalətli münasibət bəsləyir, istifadəçilərə münasibətdə peşəkar davranır, verilən sualları dəqiq cavablandırır, istifadəçilərə mehriban münasibət göstərir, sorğuların yerinə yetirilməsinə kifayət qədər zaman və diqqət ayırır, istənilən zaman oxucularla ünsiyyətə girməyə hazırdırlar.

Kitabxana ehtiyatlarının uyğunluq nöqteyi nəzərindən təhlili onu deməyə əsas verir ki, respondentlərin 50%-dən çoxu uyğunluğu yüksək, təxminən 35%-i yaxşı, 15%-i isə orta dəyərləndirir.

Onlayn axtarış sistemlərinin istifadəçi tərəfindən dəyərləndirilməsi: onlayn kataloq üzrə axtarış rəf üzrə axtarışdan daha üstün tutulur; açar söz üzrə axtarış daha populyardır və digər axtarış üsullarını (mövzu, sərlövhə, müəllif və s. üzrə) geridə qoyur; istifadəçilər onlayn kataloq axtarışını adətən evdə olarkən yerinə yetirməyə çalışır.

Kitabxana onlayn elektron resurslarının istifadəsinin sorğu cavablarına əsasən təhlili belə deməyə imkan verir ki, istifadəçilərin böyük əksəriyyəti kitabxananın veb-saytından davamlı olaraq istifadə edir (www.ada.edu.az/library), tədqiqat araşdırması zamanı kitabxananın abunə olduğu elektron məlumat bazalarına intensiv surətdə müraciət edir, EBL (Electronic Book Library) və Ebrary elektron kitabxanalarını səmərəlilik baxımından yüksək qiymətləndirir.

Qeyd etmək lazımdır ki, kitabxana 42 ədədi ümumaçıq və 22 ədədi (bunlardan 2 baza – EBL və Ebrary yalnız elektron kitab xidmətini həyata keçirir) ödənişli olmaqla ümumilikdə 64 verilənlər bazasından istifadə imkanını təmin edir. Ödənişli bazalardan istifadə kampus daxilində məhdudiyyətsiz, kampusdan kənarda isə xüsusi qeydiyyat loqini və parolu daxil etməklə mümkündür. Belə qeydiyyat imkanı yalnız universitetin müəllim, tələbə və işçi heyətinə, o cümlədən AR Xarici İşlər Nazirliliyinin əməkdaşlarına verilir. (Məmmədova, Aprel 15, 2016)

Respondentlərin 80%-i elektron resurslardan istifadəyə dair kitabxana məşğələlərində iştirak etdiklərini bildirmiş, onlardan 90%-i isə təkrar iştirak etmək imkanını yüksək dəyərləndirmişdir. Qeyd etmək yerinə düşər ki, ADA Universiteti Kitabxanası, birbaşa olaraq kitabxananın Tədqiqat və Təlimat Xidmətləri bölməsi Azərbaycanda ilk dəfə, dünya kitabxanaçılıq təcrübəsində isə ötən əsrin 90-cı illərinin əvvəllərindən tədris edilməyə başlamış *İnformasiya Mədəniyyəti* təlim kursunu universitetin müxtəlif təhsil proqramlarına uyğunlaşdırmaqla həyata keçirir. Kursun keçirilməsi ilk dəfə olaraq ADA Universiteti və Mədəniyyət və Turizm Nazirliyinin birgə təşəbbüsü ilə 1-2 Aprel 2014-cü il tarixlərində təşkil edilmiş "Kitabxana-informasiya sahəsində əldə edilmiş nəzəri və təcrübi nailiyyətlərin tətbiqi" mövzusunda I Beynəlxalq Elmi Konfransda layihə kimi irəli sürülmüş və daha sonra təcrübədə sınaqdan keçirilməyə başlamışdır. Hazırda bu təlim kursu uğurla həyata keçirilir və tələbələrə informasiya axtarışı, seçimi, onun dəyərləndirilməsi və s. bu kimi zəruri məsələlərin incəlikləri öyrədilir. (Məmmədova, May 5, 2016)

Respondentlərin sosioloji sorğunun kitabxana xidmətinin digər aspektlərilə bağlı suallarına verdikləri cavablar da maraq doğurur. Belə ki: kompüter avadanlığından istifadənin əlçatan olması – həmişə 64%, adətən 25%, bəzən 8%, heç vaxt 3%; printer avadanlığının saz olması - həmişə 31%, adətən 29%, bəzən 26%, heç vaxt 14%; qrup məşğələ otaqlarının tələblərə cavab verməsi – həmişə 49%, adətən 34%, bəzən 17%, heç vaxt 0%; kitabxana əməkdaşlarının yeni xidmətlər və kolleksiyalarla bağlı istifadəçiləri bilgiləndirməsi – həmişə

49%, adətən 34%, bəzən14%, heç vaxt 3%; kitabxananın işləmə vaxtının tələbata cavab verməsi (Qeyd: kitabxana bazar günü və qeyri-iş günləri istisna olmaqla həftənin bütün günləri işləyir. Bazar ertəsi – cümə günləri: 9:00-21:00; şənbə günləri: 10:00-18:00) – həmişə 61%, adətən 25%, bəzən 11%, heç vaxt 3%; çalışma zonasının (oxu zalları və digər çalışma əraziləri) yetərli olması – həmişə 53%, adətən 30%, bəzən 17%, heç vaxt 0%.

Göstərilən aspektlərlə bağlı dəyərləndirmələr kitabxana-informasiya xidmətini daha da təkmilləşdirməyə təkan verir, kitabxanaçılarla bağlı müsbət istifadəçi rəyləri isə işçi personalın ruh yüksəkliyi ilə peşəkar fəaliyyətini inkişaf etdirməsinə səbəb olur.

**Nəticə**

Kitabxana-informasiya xidmətinin müasir vəziyyətinin ADA Universiteti Kitabxanası nümunəsində təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, ənənəvi və yeni xidmət növləri paralel olaraq inkişafdadır və bir-birini tamamlayır. Bu baxımdan, qarşıda duran əsas məqsədlərə nail olmaq üçün dünya təcrübəsindən geniş miqyasda yararlanmaq və onunla bərabər addımlamaq şərtdir. Qeyd etmək vacibdir ki, kitabxananın xidmət göstərdiyi istifadəçi kontingentini təşkil edən yerli və xarici ölkə vətəndaşları bütövlükdə kitabxananı, onun fondunun zənginliyini və aktuallığını yüksək qiymətləndirir, bəzən isə hətta ölkə xaricindəki akademik kitabxanalardan daha üstün tuturlar.

Yeni xidmət növlərinin tətbiqi ilə bağlı planlara kitabxanalararası abonement xidməti, kənar istifadəçilərə üzvlük xidmətinin ödənişli əsaslarla aparılaraq daha da təkmilləşdirilməsi, yaradıcılıq tədbirlərinin keçirilməsinin təşkili, kitabxana resurslarından istifadə zamanı gecikmələrə cərimələrin tətbiqi və s. aid edilə bilər. Bu planların yaxın gələcəkdə reallaşdırılması nəzərdə tutulur.

Sadalananlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, işçi personal daima öz üzərində çalışır. Belə ki, 10 nəfər içərisində 1 yeni müdafiə etmiş fəlsəfə doktoru, 5 magistr və 4 bakalavr elmi ixtisas dərəcəsinə malik kitabxanaçı vardır. Hazırda işçilərdən 4 nəfəri ixtisas üzrə (2 işçi Magistratura, 1 işçi Dissertantura, 1 işçi isə Doktorantura proqramları üzrə) təhsillərini davam etdirir, digər işçilər isə müxtəlif yerli və xarici təcrübə mübadiləsi proqramları və onlayn vebinarlar vasitəsilə şəxsi və peşəkar inkişaf yönümündə inamla addımlayırlar.

**Ədəbiyyat**


1. Disher, W. (2007). *Crash course in collection development.* Westport, Connecticut: Libraries Unlimited.
2. Loertscher, D.V., & Wimberley, L.H. (2009). *Collection development using the collection-mapping technique: A guide for librarians.* Salt Lake City: Hi Willow Research & Publishing.
3. *Reviewing the academic library: A guide to self-study and external review* (2015). In Mitchell E., Seiden P. (Eds.), . USA: ACRL, a division of ALA.

4. Lankes, R.D. (2011). *The atlas of new librarianship*. Massachusetts: MIT Press Association of College & Research Libraries.
5. McKnight, S. (2010). *Envisioning future academic library services: Initiatives, ideas and challenges* (1. publ., repr. digitally thereafter ed.). London: Facet Publ.
6. Gannon-Leary, P., & McCarthy, M.D. (2010). *Customer care : A training manual for library staff *. Oxford, UK: Chandos Publishing.
7. Library services: The George Washington University. Retrieved from http://library.gwu.edu/services
8. Library services: University of Texas Libraries. (2016). Retrieved from http://www.lib.utexas.edu/services/
9. Using the library: London School of Economics Library. (2016). Retrieved from http://www.lse.ac.uk/library/usingTheLibrary/home.aspx
10. Məmmədova, V. (5 May, 2016) Akademik kitabxanalarda müasir informasiya fəaliyyətinin təşkili: ADA Universiteti kitabxanasının iş təcrübəsi əsasında. *"Kitabxana-Informasiya Elmi: Təhsil və Təcrübədə Yeni Çağırışlar" Beynəlxalq Elmi-Praktik Konfransı,* 170-174.
11. Məmmədova, V. (15 Aprel, 2016) Ali təhsil müəssisələrinin rəqəmsal kitabxana mühitində iri miqyaslı verilənlərə çıxışı və istifadəlilik məsələləri. *"Elektron Kitabxanaların Formalaşması Problemləri" Respublika Elmi-Praktik Konfransı,* 111-116.

# KİTABXANALAR CƏMİYYƏTİN İLKİN SOSİAL KOMMUNİKASİYA İNSTİTUTLARI KİMİ

***Daşqın Məhəmmədli***
*BDU-nun Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müəllimi*

***Библиотеки институтов общества как основной социальной коммуникации***
***Резюме:*** *В статье рассматривается понятие социальной коммуникации, это научное описание вида дано, была создана публичные библиотеки в главном кольце на самой ранней заре системы социальной коммуникации, такие как формирование ранних предприятий социальной коммуникации, учреждений, а также развитие научно-теоретических основ современного государства.*
***Libraries as the primary social communication institutions of the society of society***
***Abstract:*** *In the article is given scientific description about the concept of social communication and its species. Also, there is scientific-theoretical basics showen about the formation, development and modern situation of libraries that as the main element of social communication system and primary social communication instituties*

***Açar sözlər:*** *kitabxana, sənəd, cəmiyyət, kommunikasiya, sosial institut, informasiya kommunikasiyası, kitabxana kommunikasiyası, sənəd kommunikasiyası*
***Ключевые слова:*** *библиотека, документ, общество, связь, социальный институт, информационные коммуникации, библиотечные коммуникации, документ связи*
***Keywords:*** *library, document, society, communication, social institution, information communication, library communications, document communication*

Bəşərin çox erkən çağlarından cəmiyyət həyatının müxtəlif sahələrinin idarəedilməsi prosesi insanların obyektiv əlaqələri əsasında formalaşan xüsusi tip inteqrativ ictimai sərvət və prosedurları özündə birləşdirən əlaqə və sosial normaların təşkil olunmuş sistemləri vasitəsilə həyata keçirilmişdir. Sosial institutlar adlanan bu sistemlərin yaranması birdən-birə baş vermir. Bu proses bir neçə ardıcıl mərhələdən keçir. Sosioloji nəzəriyyədə göstərilir ki, sosial institutlaşma prosesi o vaxt baş verir ki, real həyatda konkret sosial tələbatın ümumcəmiyyət miqyası kəsb etdiyi başa düşülür və onu reallaşdırmaq üçün xüsusi davranış normaları işlənilib hazırlanır. Lazım olan kadrlar yetişdirilir və resurslar müəyyənləşdirilir.

Bu baxımdan, cəmiyyətdə ictimai tələbatdan doğan zərurət əsasında formalaşan sosial institutlardan tarixən ən qədimlərindən biri məhz kitabxanalardır. Kitabxanalar bəşəriyyətin erkən dövrlərindən öz mütərəqqi amalı və funksiyaları ilə onu yaradan cəmiyyətin intellektual və mədəni-mənəvi potensialının inkişafına əsaslı xidmət göstərmiş, mövcud sosial mühitdən asılı olaraq dəyişmiş, inkişaf etmiş, real funksiyalar həyata keçirmiş,

bəşər cəmiyyətinin əsrlər, minillər boyu topladığı möhtəşəm mənəvi sərvətləri, biliklər məcmuunu, idrak prosesinin məntiqi nəticələrinin əks etdirildiyi qiymətli mənbələri toplamış, mühafizə etmiş, sistemləşdirmiş və onlardan məqsədyönlü və optimal istifadəni təmin etmiş, eyni zamanda, onu nəsillərdən-nəsillərə ötürmüş, kommunikasiya sistemində mədəni sərvətlərin ən böyük və ən mühüm sosial keçiricisi rolunda çıxış etmişdir.

Beləliklə, kitabxanalar onu yaradan cəmiyyətə böyük elmi-mədəni və mənəvi xidmət göstərmiş, xüsusilə təhsil və tərbiyə prosesində yaxından iştirak etmiş, sosial kommunikasiya sistemində başlıca funksional struktur komponenti kimi əhəmiyyətli rol oynamışdır. Ona görə də lap qədim zamanlardan dünyanın ən böyük mütəfəkkirləri, alimləri, elm, mədəniyyət xadimləri kitabxanalara yüksək qiymət vermiş, onu mədəniyyətin, elmin, təhsil və tərbiyə prosesinin mühüm elementi və nəzəri bazası kimi dəyərləndirmiş, beləliklə, kitabxana işinin cəmiyyətdə yeri və rolunun əsas qayəsini və mahiyyətini açıb ortaya qoymuşlar.

Azərbaycan Respublikasının Kitabxana işi haqqında Qanununda (12 mart 1999*)* "kitabxana - elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərləri və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemili ictimai istifadəsini təşkli edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutlar" kimi şərh olunmuşdur. [7, s.98].

Göründüyü kimi, bu ali dövlət qanununda yuxarıda qeyd etdiyimiz kitabxanaların ümumi tarixi təcrübəsi və böyük ümumcəmiyyət əhəmiyyəti kompleks formada hüquqi və elmi baxımdan əsaslandırılmış, kitabxanalar cəmiyyətdə məhz elmi, informasiya, mədəniyyət, təhsil və tərbiyə kimi geniş sosial funksiyaları həyata keçirən, eyni zamanda onları əlaqələndirən və bu istiqamətdə digər vəzifələri yerinə yetirən sosial institutlar kimi xarakterizə edilərək onlara böyük ali hüquqi statuslar verilmişdir.

Beləliklə, kitabxanalar ümummədəni sərvətlərin ən böyük tarixi keçiricisi kimi, kommunikasiya sisteminin ən əsas və başlıca həlqələrindən olaraq bilavasitə, sosial kommunikasiya sisteminin optimallaşmasına, elmin, mədəniyyətin, idrak proseslərinin, intellektual imkanların genişlənməsinə və operativ yayılmasına xidmət edir.

"Kommunikasiya" anlayışının özü sosioloji ədəbiyyatda əsas anlayışlardan biri kimi əhəmiyyətli nəzəri-metodoloji və praktiki əhəmiyyət kəsb edir. Kommunikasiya (communicatio) - latın sözü olub, mənası 1) ümumi etmək, bağlamaq, ünsiyyətdə olmaq; 2) iki və ya daha çox şəxs arasında olan və qarşılıqlı anlaşmaya əsaslanan ünsiyyət; bir şəxsin əldə etdiyi məlumatı başqasına (başqalarına) çatdırması və s. deməkdir. [4, s.100; 9. S.209].

Sosiologiyada "kommunikasiya" anlayışı məlumatın insandan-insana verilməsi prosesi kimi şərh edilir. Sosioloji nəzəriyyədə göstərilir ki, insan mahiyyət etibarı ilə biri-digəri ilə ünsiyyətdə olan varlıqdır. Ünsiyyət insanın sosiuma daxil olması və orada fəaliyyət göstərməsi üçün mühüm vasitədir.

Müasir informasiya cəmiyyəti şəraitində insanların böyük sürətlə inkişaf edən, müntəzəm olaraq yeniləşən, dərinləşən, yeni keyfiyyətlər kəsb edən informasiya tələbatının ödənilməsi kommunikasiyanın yeni, daha mürəkkəb formalarının aşkarlanmasını tələb edir. Cəmiyyət inkişafının ən erkən dövrlərində insanlar biri-birilə əlaqə yaratmaq, birləşmək, ünsiyyətdə olmaq, informasiya toplamaq məqsədi ilə kommunikasiyanın müxtəlif vasitələrindən istifadə etmişlər. Zaman keçdikcə, cəmiyyət inkişaf etdikcə, insanların bilik səviyyəsi, ətraf mühiti dərk etmək qabiliyyəti artdıqca, yeni kommunikasiya kanalları meydana gəlmiş, kommunikasiya bəşər fikrini aktuallaşdırmaq vasitəsinə çevrilmişdir. Qarşılıqlı təsir prosesində insanlar birinin o birinə köməyi, ünsiyyəti, birləşməsi hesabına zənginləşmiş, bəşəriyyət tərəfindən toplanan təcrübə hamının malına çevrilmişdir. [3, s.38; 10,11.].

Professor A.A.Xələfov özünün kitabxana və kommunikasiya məsələlərinə həsr etdiyi elmi məqalələrindən birində yazır: "Kommunikasiyanın cəmiyyətin çox erkən dövrlərindən yaranmasına baxmayaraq "Kommunikasiya" termini elmi ədəbiyyatda XX əsrin əvvəllərində meydana gəlmişdir. Bu termin informasiyanın insandan-insana ötürülməsi, cəmiyyətdə qarşılıqlı təsiri, informasiya mübadiləsi kimi başa düşülür. Kommunikasiya ünsiyyətdir, informasiyanın insandan-insana ötürülməsidir. Cəmiyyətdə qarşılıqlı təsirdir, informasiya mübadiləsidir. Həmçinin maddi və mənəvi dünyanın müxtəlif obyektlərinin əlaqəsi vasitəsidir. Cəmiyyətin tarixi inkişafı prosesində kommunikasiya da tədricən, təkamül yolu ilə inkişaf etmiş, onun yeni-yeni növləri, kanalları, vasitələri meydana gəlmişdir". [2, s.88].

Əlaqadar ədəbiyyatda kommunikasiyanın insanlar arasında ünsiyyət, əlaqə və insanların biri-birini qarşılıqlı anlama vasitəsi kimi bir çox növlərinin mövcudluğu qeyd edilir:

- Şəxsiyyətlərarası kommunikasiya. Bu növə kommunikasiyanın xüsusi forması olan qruplar, birliklər və s. kommunikasiyalar daxildir.
- Kütləvi kommunikasiya. Bu kommunikasiyanın ən çox yayılmış və demək olar ki, cəmiyyətin bütün üzvlərinin, bütün idarə və müəssisələrin, xüsusi ilə informasiya orqanlarının və kitabxanaların istifadə etdiyi kommunikasiyadır. Cəmiyyətdə hakim mövqe tutan kütləvi kommunikasiya insanlar sosial hisslərin açıq ümumiliyinə və ümumi sosial təcrübəyə malik olduqları vaxt həyata keçirilir, reallaşır. Cəmiyyətin informasiya təminatında və insanların informasiya mübadiləsində mühüm rol oynayan kütləvi informasiya vasitələri (qəzet, jurnal, sənədli kino, radio və televiziyadan ibarət sistem) kütləvi kommunikasiyanın klassik nümunəsidir.
- Mədəniyyətlərarası kommunikasiya. Mədəniyyətlərarası kommunikasiya iki və daha çox müxtəlif mədəniyyətlərin əlaqəsi prosesində informasiya mübadiləsi və mədəni sərvətlərin, qarşılıqlı əlaqələrin yaranmasına xidmət edir. Mədəniyyətlərarası kommunikasiya insanları cəmiyyətin mənəvi dəyərlərinə qovuşdurur. Qloballaşan dünayada mədəniyyətlərarası kommunikasiyanın fəaliyyət sahəsi sürətlə genişlənməklə daha intensiv xarakter alır.

Həmçinin mədəniyyətlərarası kommunikasiya ölkələr, dövlətlər və millətlər arasında beynəlxalq əlaqələrin genişlənməsində, davamlı və ardıcıl xarakter almasında mühüm əhəmiyyət kəsb edir. Mədəniyyətlərarası kommunikasiya mədəniyyətlərin zənginləşməsinə səbəb olmaqla, xalqlar arasında dostluq və qardaşlıq əlaqələrinin möhkəmlənməsində, ayrı-ayrı mədəniyyətlərin birləşərək, zənginləşərək ümumbəşəri mədəniyyətə qovuşmasında mühüm amilə çevrilir. [5, s.33; 12, s.507].

Müasir şəraitdə kommunikasiya vasitələri sayəsində insanlar istənilən informasiyanı əldə etmək, vaxta qənaət etmək, sərhədləri aşmadan ünsiyyət yarada bilmək, virtual həyatda yeni tanışlar, dostlar qazanmaq və s. bu kimi üstünlüklərdən maksimum faydalanmaq imkanına malikdirlər.

Beləliklə, kommunikasiya anlayışının sosioloji nəzəriyyəyə və görkəmli elm adamlarının nəzəri irsinə müraciət etməklə ortaya qoyulan kompleks mahiyyətindən aydın olur ki, məhz kitabxanalar öz mahiyyəti, xarakteri, ümumcəmiyyət əhəmiyyəti, funksiyaları, vəzifələri və s. etibarilə cəmiyyətin ümumi kommunikasiyalar sistemində, xüsusilə informasiya kommunikasiyaları sistemində və onun mühüm altsistemi olan sənəd kommunikasiyaları sistemində ən mütərəqqi, ən mütəhərrik, operativ və effektiv tərkib hissələrindən biri kimi geniş sosial əhəmiyyət kəsb edir.

*Kitabxana və kommunikasiya* problemlərinin son zamanlarda araşdırılması, xüsusi ilə sosioloji eksperimentlərin ümumiləşdirilməsi bir daha təsdiq etmişdir ki, kitabxanalar tarixən kommunikasiya müəssisəsi vasitəsi kimi formalaşmış, özünün keçdiyi tarixi təkamül yolunda kommunikasiyanın formalaşması və inkişafına kömək etməklə, özü də bir kommunikasiya müəssisəsi kimi inkişaf etmiş, insanların ünsiyyət və təcrübə bazasına, informasiya mübadiləsi mərkəzinə çevrilmişdir. Və belə bir şəraitdə kommunikativ insanlar biliyin yaradılması vasitəsi olmuşdur. Kitabxanalar bilavasitə insanla, onun formalaşması ilə informasiya tələbatının ödənilməsi sahəsində fəaliyyət göstərdiyindən kommunikasiyanın müxtəlif növlərindən, kommunikasiya vasitələrindən, kommunikasiya kanallarından geniş istifadə etməklə, ümumi xidmət prosesini təşkil etmişdir. Ona görə də kitabxana işi, kitabxana fəaliyyətinin müxtəlif aspektləri daim dünya sosioloqlarının, cəmiyyətşünaslarının, mədəniyyətşünaslarının apardığı tədqiqatlarda mühüm nəzəri və metodoloji mövzu kimi əsas yerlərdən birini tutmuşdur. Məhz bu tədqiqatlarda cəmiyyət və kitabxananın əlaqələri əsasında cəmiyyət həyatının ümumi mədəni səviyyəsi, intellektual və bilik potensialı, mütaliə dərəcəsi və s. kimi sosioloji problem və proseslər, onların nəticələri haqqında əsaslandırılmış faktlar üzə çıxarılmış, təhlil edilmiş və ümumiləşdirilmişdir. [1, 6, 13, 15, 16].

Öz əsas strukturu etibarilə dörd elementdən (ötürücü, qəbuledici, informasiya və ötürmə vasitəsi) ibarət olan kommunikasiya sistemində kitabxanalar həmin elementlərin hər birinə aid olan geniş funksiyaları özündə ehtiva edən və məhz bu istiqamətdə ən geniş komplekslilik mahiyyətini əks etdirən sosial vasitə rolunu oynamış və hazırki şəraitdə bu qlobal rolu daha da

inkişaf etdirməkdədirlər. Bu əsaslı faktor da bir daha təsdiq edir ki, kitabxanalar bəşər cəmiyyətinin ən qədim dövrlərindən bu günə qədər kommunikasiya sisteminin ən qlobal tərkib hissəsi, ən əhəmiyyətli elementi, ən böyük funksiyalara və vəzifələrə malik olan sosial komponenti və aparıcı sütunudur.

Kitabxananın özünün də strukturunda çox ciddi və əlaqələndirilmiş kommunikasiya vəhdətinin və həlqəsinin olduğunu və bunun da öz növbəsində bəhs edilən kontekstdə çox mühüm açar müddəa rolunu oynamasını qeyd edən kitabxanaşünas alim, prof. A.A.Xələfov belə yazır: "Kommunikasiya vasitəsi olan kitabxananın struktur quruluşu və bilavasitə onun elementləri arasında da canlı kommunikasiya sistemi fəaliyyət göstərir. Kitabxananın strukturunda baş verən kommunikasiya prosesi: (sənədlə-oxucu, oxucu ilə-kitabxanaçı, sənəd-oxucu və kitabxanaçı ilə maddi-texniki baza ilə əlaqələr) kitabxananın bir sosial institutut kimi elm, informasiya, təhsil, tərbiyə funksiyalarının yerinə yetirilməsi vəzifələri də kommunikasiya sistemindən, bütövlüklə, onun müxtəlif növlərindən, ayrı-ayrılıqda səmərəli istifadə edilməsindən asılıdır. Beləliklə, kommunikasiyasız bütöv struktura malik kitabxana yoxdur. Kitabxanaların fəaliyyət sahəsi olan kitabxana işi bilavasitə kommunikasiya prosesləri ilə əlaqədar olduğundan kitabxananın bütün fəaliyyəti xüsusi ilə oxuculara xidmət işi bu prosesin mühüm tərkib hissəsidir. Kitabxana işi bir fəaliyyət sahəsi kimi elm, informasiya mədəniyyət, təhsil, tərbiyə sahəsində, həmçinin kitabxana şəbəkələrinin təşkil və inkişafını, kitabxana fondlarının formalaşdırılmasını, kitabxana-informasiya xidmətinin təşkili, kitabxanaların elmi-maddi təminatı sistemlərini tənzimləyən bir proses kimi həmişə kommunikasiya və onun forma və kanalları ilə sıx əlaqədə olmuşdur". [3, s.40].

Qeyd edildiyi kimi, çox qədim dövrlərdən etibarən kitabxanaların ümumi kombinasiyalı və əlaqələndirilmiş fəaliyyətini həyata keçirən *kitabxana işi* də bir fəaliyyət sahəsi kimi formalaşarkən məhz kommunikasiya sisteminin mühüm tərkib hissəsi kimi formalaşmış və cəmiyyətdə kommunikasiya proseslərinin aparıcı sistem resursuna çevirilmişdir.

Buradan da belə nəticəyə gəlmək olur ki, bütün struktur mahiyyəti etibarilə kitabxanaların özü və eləcə də onların fəaliyyət sahəsi olan kitabxana işi kommunikasiya prosesidir. Və belə əsaslı kommunikasiya həlqəsinə malik olan bir sistem bütöv halda həm də daha böyük və ümumi bir sistemin – ümumi kommunikasiya sisteminin tərkib hissəsi kimi çıxış edərək orada ən böyük və qlobal fəaliyyət həyata keçirir ki, bu da kitabxanaların, kitabxana işinin kompleks kommunikasiya mahiyyətini bir daha əsaslandırmağa imkan verir.

**Ədəbiyyat**


1. Əliyev Z. Ümumi biblioqrafiyaşunaslıq: Dərs vəsaiti.- B.: Bakı Universiteti Nəşriyyatı, 2001.-143s.
2. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik: 3 h-də:.H.3. Kitabxana işi haqqında təlim.- B.: BDU nəşr-tı, 2003.-314s.

3. Xələfov A.A. Kitabxana və kommunikasiya// Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktiki jurnal.-B.,2011,№1(4).-s.4-16.
4. Xələfov A.A. Kitabxana və cəmiyyət:Monoqrafiya.-B.: "Azərnəşr", 2011.-348s.
5. Xələfov A.A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas istiqamətləri: (mulahizələr, tərtiblər və proqnozlar).-B., 2006.-106s.
6. İsmayılov X.İ. Kitabxanaların idarə edilməsinin müasir problemləri: Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-2009.-№1.-s.27-39.
7. İsmayılov, X.İ. Kitabxana menecmentinin əsasları: Dərs vəsaiti .-B.: BDU nəşr-tı, 2005.- 199s.
8. İsmayılov X.İ. Kitabxana informasiya texnologiyaları: Dərs vəsaiti.- Bakı. 2009.- 310s.
9. İsmayılov X.İ. Kitabxana işinin təşkili və idarəedilməsi: Dərs vəsaiti.-Bakı: "Nurlar", 2010.-328s.
10. Kərimov S.Q. İnformasiya sistemləri: Monoqrafiya - Bakı: Elm, 2008. - 676 s.
11. Alguliyev R.M., Afanasyev A.P., Albertian A.N., Belevtsev A.A., Imelbayev Sh.S., Rappoport A.M. Methods of security control in information and tele-communication distributed systems// Dynamics of Non–homogeneous Sys-tems. Proceedings of ISA RAS.M., -2001, vol.5.- pp.139-152.
12. Alguliev R.M., Kazimov T.H., Mahmudova S.C. Mahmudova R.S. Corporate information system "Educational Center" // International Journal of Social, Human Science and Engineering. - 2007, vol.1, no.8, pp.-503-507. (USA)
13. Toffler A. Future Shock. New York: Random House, 1975, 562 p.
14. Леонов, В.П. Библиотечно-библиографические процессы в системе научных коммуникации [Текст] / В.П. Леонов // СПб.:БАН РАН, 1995.-139 с.
15. Столяров, Ю.Н. Библиотека: Стуруктурно-функциональный подход/ Ю.Н. Столяров. -М., 1981. 255 с.
16. Шира, Д.Х. Введение в библиотековедение: Основные элементы биб-лиотечного обслуживания/ Д. Х. Шира. - М., 1983. -256 с.

# BİBLİOMETRİK TƏHLİL ÜSULLARININ KİTABXANA TƏCRÜBƏSİNDƏ TƏTBİQİ, ONLARIN KİTABXANANIN REYTİNQİNİN FORMALAŞMASINA TƏSİRİ

***Aygün Hacıyeva***
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı, Azərbaycan Milli Kitabxanası Kitabxanaşünaslıq elmi-tədqiqat şöbəsinin müdiri*
*aygun_haciyeva_87@mail.ru*

***Применение библиометрических методов анализа в библиотечной практике и их влияние на формирование рейтинга библиотеки***
***Резюме:*** *В статье даётся информация о библиометрических методов анализа, их формы использования в библиотеках, роль библиометрических методов в проведенных исследований в сфере библиотечно-информационной науки.*
***The application of bibliometric analysis methods in library practice and their influence on the formation of the rating library***
***Abstract:*** *The article provides information about of bibliometric analysis methods, their forms of use in libraries, the role of bibliometric methods in conducted researches in the field of library and information science.*

***Açar sözlər:*** *bibliometriya, bibliometrik təhlil, bibliometrik üsul, bibliometrik tədqiqat.*
***Ключевые слова****: библиометрия, библиометрический анализ, библиометрический метод, библиометрическое исследование.*
***Keywords:*** *bibliometrics, bibliometric analysis, bibliometric method, bibliometric research.*

Bibliometriya – (yunanca “biblion” - kitab və “metria” - ölçürəm deməkdir) informasiyanın sənədlə mübadiləsi ilə əlaqədar kitabxana, biblioqrafiya, informasiya və digər fəaliyyət növlərində kütləvi halların quruluşunu, qarşılıqlı əlaqəsini və dinamikasını kəmiyyət metodları ilə öyrənən fəndir [1, s.174].

Bibliometriya tədqiq olunan sahələrin inkişaf qanunauyğunluqları və quruluşu, effektivliyi haqqında məlumatların əldə olunması məqsədilə formalaşdırılmış üsulların köməyi ilə ilkin və təkrar informasiya mənbələrinin kəmiyyət göstəricilərinin təhlili əsasında sənədlərin öyrənilməsi ilə məşğul olan elmi fəndir.

Bibliometriya bütünlükdə nəşrlərin biblioqrafik məlumatlarının təhlilini əks etdirir. Müasir dövrdə bibliometriyanın müxtəlif təriflərinin çoxluğu kommunikasiyanın bütün aspektləri üçün riyazi model və metodların işlənməsinə və tətbiqinə gətirib çıxarmışdır [7].

Bibliometrik göstəricilər kitabxana-informasiya təcrübəsində geniş tətbiq edilir və adətən müxtəlif vəziyyətlərdə qərar qəbul edilməsinin əsasını təşkil edir: elmi kitabxanaların fondlarının komplektləşdirilməsi prosesində və

onun inkişafında; akademik müəssisələrin elmi fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi zamanı və s.

Bibliometriya tədqiq olunan sahələrin inkişaf qanunauyğunluqları və quruluşu, effektivliyi haqqında məlumatların əldə olunması məqsədilə formalaşdırılmış üsulların köməyi ilə ilkin və təkrar informasiya mənbələrinin kəmiyyət göstəricilərinin təhlili əsasında sənədlərin öyrənilməsi ilə məşğul olan elmi fəndir. Bibliometriya bütünlükdə nəşrlərin biblioqrafik məlumatlarının təhlilini əks etdirir.

Alim və mütəxəssislərin yaradıcılığının obyektiv qiymətləndirilməsində müasir üsulların tətbiqi elm üçün xüsusi əhəmiyyətə malikdir. Bu gün elmi müəssisələr üçün effektiv funksiyalaşdırma məqsədilə xüsusi tədqiqatlara əsaslanmaq lazımdır. Gələcəkdə toplanmış nailiyyətlərin təhlili, bu əsasda əsas istiqamətlərin, tendensiyaların və inkişaf perspektivlərinin proqnozlaşdırılmasını, elmi potensialın qiymətləndirilməsini həyata keçirmək vacibdir.

Kitabxana sosial institutunun müasir fəaliyyəti, iş şərtləri, şəraiti kitabxana işi sahəsində son dərəcə aktual problem olan elmi əsaslandırılmış, ölçülmüş və effektiv dövlət siyasətini şərtləndirir. Bu və bu cür digər məsələlərin həlli kitabxana işinin inkişaf qanunauyğunluqlarının inkişafını öyrənməyə istiqamətlənmiş, kitabxanaşünaslıq tədqiqatlarının aktivləşdirilməsini tələb edən elmi-nəzəri sahədə toplanmış potensialın effektiv istifadəsinə, işlənməsinə əsaslanmalıdır. Bütün bunlar kəmiyyət üsullarının, xüsusən bibliometrik üsulun tətbiqi hesabına ölkə kitabxanaşünaslıq tədqiqatlarının metodoloji bazasının genişləndirilməsinin mövcud tendensiyalarını müəyyən edir. Belə ki, qeyd etmək lazımdır ki, son dövrə qədər onların xarakter xüsusiyyəti kəmiyyət təhlilinin köməyi ilə bir qayda olaraq yalnız kitabxana fəaliyyətinin ayrı-ayrı aspektləri, tərəfləri öyrənilirdi [4, s.119].

Hazırda bibliometrik üsullar daha çox informasiya mədəniyyətinin inkişafında, təcrübi kitabxana işində: kitabxana fondunun nüvəsinin aşkar edilməsində, kitabxana-informasiya xidmətinin effektivliyinin tədqiqində, kitabxanaşünaslıq üzrə ədəbiyyatın köhnəlməsinin qiymətləndirilməsində, kitabxana-biblioqrafik mətbuatın informasiya əhəmiyyətinin müəyyənləşdirilməsində, peşəkar kitabxana-biblioqrafiya nəşrlərində prioritet istiqamətlərin aşkar edilməsində daha çox tətbiq edilir [5, s.73].

Bibliometrik üsullar biblioqrafik olmayan genetikasına baxmayaraq, biblioqrafiyaşünaslığın strukturunda xüsusi yer tutur [8]. Bibliometrik üsulların köməyi ilə tədqiqat işinin intensivliyi və xarakteri kəmiyyətə, səpələnməsinə və cəmləşdirilməsinə görə müəyyənləşdirilir [6].

Bibliometriyanın əsas üsullarının müxtəlifliyində davamlı elementləri ayırmaq çətin deyil. Onlara hər şeydən əvvəl aiddir: ilkin və II informasiya mənbələrinin təhlili və istinadların təhlili.

Bibliometriya sahəsindəki tədqiqatlar yalnız kitabxana fəaliyyətində deyil, həmçinin bütünlükdə elmi siyasətin müəyyənləşdirilməsi üçün lazımdır.

Buna görə də bibliometriyanın üsullarının geniş tətbiqinə bu prosesin ümümelmi kateqoriyaya aid olduğunu nəzərə alaraq xüsusi diqqət ayırmaq lazımdır. Ümumiyyətlə, müasir elmin yüksək inkişaf dinamikası kimi, kitabxanaşünaslıq da gələcəkdə ənənəvi, dolğun, maraqlı təhlil ilə daha əhatəli öyrənmə üçün əsas kimi çıxış edə biləcək nəticələrin əldə edilməsinə imkan verən bibliometriyanın üsullarının daha geniş tətbiqinin vacibliyinə səbəb olur. İnformasiyanın ən vacib xüsusiyyətlərindən biri onun kəmiyyət cəhətdən ölçülməsinə imkan verən həcmdir. Ölçüsüz isə məlumdur ki, elmi dərk etmək, öyrənmək qeyri-mümkündür.

Elmdə sənəd axınının təhlili ayrı-ayrı elm sahələri və istiqamətlərinin vəziyyəti və inkişaf perspektivləri haqqında mühakimə yürütməyə, fikir söyləməyə imkan verir. Müəyyən edilmişdir ki, bu və ya digər elm sahəsində sənədlərin növ müxtəlifliyinin üstünlüyü onun inkişafının intensivliyindən asılıdır. Ayrılıqda hər hansı yeni elmi istiqamətin meydana gəlməsi və inkişafı düzgün olaraq dövri və ardı davam edən nəşrlərdəki məqalələrin intensiv yaradılması ilə müşayiət olunur. Bu tip nəşrlərin sənəd axınındakı böyük, xüsusi çəkisi elmi problemlə maraqlanan oxucuların operativ informasiyalaşdırılmasının vacibliyi, həmçinin onun müxtəlif aspektlərinin dərk edilməsi və empirik materialların intensiv toplanılması ilə şərtlənir.

XX əsrdə sənəd-informasiya axınının kəmiyyət cəhətdən öyrənilməsi ilə bağlı olan bibliometrik təhlil üsulu geniş istifadə olunmağa başlanmışdır. 1960-1970-ci illərdə bibliometriya müstəqil elmi istiqamət statusu almışdır. Cəmiyyətin informasiya resurslarının sürətli artımı və formaca dəyişməsi keyfiyyətcə digər vasitələrlə yeni biliyin əldə edilməsinə tələbatı meydana çıxardı. Bibliometrik tədqiqatlar çərçivəsində sənəd-informasiya axınlarının təhlilinin yeni yolları və metodikaları, həmçinin onların istifadəsinin yeni istiqamətləri işlənməyə başlandı.

Elmin intensiv inkişafı və bütün növ nəşrlərin kəmiyyətcə sürətli artımı kitabxanalarda sənəd-informasiya axınlarının statistik təhlili sisteminin təşkili və kompleks əhatəliliyinin vacibliyinə səbəb olmuşdur. Bibliometriya ədəbiyyatın analitik-sintetik işlənməsinin inkişafının keyfiyyətcə yeni forması kimi kitabxanaşünaslıq nəzəriyyəçi və təcrübəçilərinin diqqətini effektiv informasiyanın, onun qiymətləndirilməsi metodikasının və tədqiqatının səmərəli yollarının daha rasional seçilməsinə istiqamətləndirir.

Bibliometrik məlumatlara elmi mühitdə olduğu kimi, kitabxana-informasiya fəaliyyətində də böyük tələbat vardır. Kitabxanaların işlənməmiş məlumatların və ya məlumatların daşıyıcısı kimi təchizatçısı funksiyası informasiyanın yüksək ixtisaslı işlənməsinin bibliometrik təhlilinin aparılması zamanı tamamlanır. Kitabxanaların innovasiya xidmətlərinin işlənməsi və göstərilməsi üçün ideal vasitə məhz bibliometriyadır. Bibliometriya kitabxanalara yalnız yeni imkanlar təqdim etmir, həm də onlar qarşısında yeni problemlər qoyur.

Son illər kitabxanalar elmi kommunikasiya sistemində öz rol və vəzifələrini müəyyənləşdirmək kimi çətin proses keçir. Kitabxanaların akademik mühitə inteqrasiyası səviyyəsi yüksəlir. Kitabxanalar elmi tədqiqatlar halqasının tam hüquqlu partnyoru kimi nəzərdən keçirilir. Kitabxanaların fəaliyyətində inkişaf edən istiqamətlərdən biri məhz tədqiqatların idarə edilməsi və qiymətləndirilməsi prosesində onların strateji rolunu həyata keçirən qiymətləndirici bibliometriyadır [3].

Bibliometriya kitabxana və informasiya elmi istiqamətində aparılan tədqiqatların inkişaf dövrünü yaşayan bir hissəsidir: hal-hazırda kitabxanalarda yalnız rəqəmsal kitabxana texnologiyalarının deyil, həm də bibliometriyanın tətbiqi ilə kitabxana kolleksiyalarının yaradılması və idarə olunması xeyli aktualdır. Kitabxanalarda, xüsusilə də akademik kitabxanalarda bibliometriyaya olan marağın sürətlə artması universitetlər, dövlətlər, tədqiqat rəhbərləri, informasiya mütəxəssisləri, kitabxanaçılar və tədqiqatçıların tədqiqatın qiymətləndirilməsi məqsədilə bibliometrik üsullardan getdikcə daha çox istifadə etməsi ilə bağlıdır [2].

Kitabxanalarda elmi informasiyanın artan həcmi bibliometrik tədqiqatların həyata keçirilməsini aktuallaşdırır. Onların həyata keçirilməsi isə xüsusi biliklər, yeni texnologiyalardan və informasiya resurslarından savadlı istifadəni tələb edir. Bibliometrik üsulların müasir texniki vasitələr və informasiya resursları ilə birləşməsi kitabxanalarda aparılan tədqiqatların imkanlarını genişləndirməyə, sənəd massivlərini strukturlaşdırmağa və onların artan axınında istiqamətlənməyə imkan verir. Bibliometrik üsulların tətbiqi perspektivləri yeni informasiya texnologiyalarının inkişafı və elmin informasiya müşayiətinin həyata keçirilməsi ilə bağlıdır.

**Ədəbiyyat**


1. Bibliometriya// Azərbaycan Kitabxana Ensiklopediyası. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, M.F.Axundzadə adına Milli Kitabxana. Bakı: "Zərdabi-Nəşr", 2015, s.174
2. İsmayılova N. Bibliometriya: müasir vəziyyəti, problemləri və inkişaf perspektivləri// "E-kitabxanaların formalaşması problemləri" respublika elmi-praktiki konfransının əsərləri / Bakı, 15 aprel, 2016, s.34-36
3. Галявиева М.С. Библиометрия в библиотеке в оценках библиотекарей (по материалам зарубежных исследований)// Вестник Казанского государственного университета культуры и искусств, 2015, №1. [Электронный ресурс]. Условия доступа: http://cyberleninka.ru/article/n/bibliometriya-v-biblioteke-v-otsenkah-bibliotekarey-po-materialam-zarubezhnyh-issledovaniy
4. Кобелев А.Н. Когнитивная структура современного украинского библиотековедения: результаты библиометрического анализа монографий// Науч. и техн. б-ки, 2001, №3, с.119-130

5. Пенькова О.В., Тютюнник В.М. Науковедение, наукометрия и их производные: Методы колич. оценки науч. деятельности: Монография. Тамбов: Изд-во МИНЦ, 2002, 176с.
6. Пронин А.А. О библиометрии [Электронный журнал]. URL: http://hist.igni.urfu.ru/dais/pdf/11/21%20%D0%9F%D1%80%D0%BE%D0%BD%D0%B8%D0%BD_v.pdf
7. Редкина Н.С. Библиометрия: история и современность// Молодые в библиотечном деле, 2003, №2, с.76-86
8. Соколов А.В. Детерминизм и деонтология в Документной коммуникационной системе// Вестник Челябинской государственной академии культуры и искусств, 2008, № 4, с. 6–34

# AZƏRBAYCANDA İQTİSADİYYATA DAİR İLKİN İNFORMASİYA RESURSLARININ YARANMASI VƏ İNKİŞAFI

***Sevda Kərimova***
*BDU, Biblioqrafiyaşünaslıq kafedrası, Doktorant*
*AMEA, Bakı, Azərbaycan. sevda.kerimova1@gmail.com*

***Происхождениеи развитие первоначальных информационных ресурсовоб экономикев Азербайджане***
***Резюме:*** *В статье представлена информация о происхождении и развитии первоначальных информационных ресурсов об экономической мысли в Азербайджанес древнейших времен до начала XX века. Анализируются книги и произведения разных авторов опубликованных в разных исторических периодах в Азербайджане.*
***Origin and development of initial information resources about economics in Azerbaijan***
***Abstract:*** *In article is presented the information about origin and development of initial information resources on economic thought in Azerbaijan since the most ancient times to the beginning of 20th century. There are analyzed the books and works of the different authors, published in the different historical periods in Azerbaijan.*

***Açar sözlər:*** *Azərbaycan, iqtisadi, Avesta, tarix, kapital, siyasi iqtisad, bank işi, ticarət, kapitalizm, sosializm.*
***Ключевые слова:*** *Азербайджан, экономика, Авеста, история, капитал, политическаяэкономика, банковское дело, торговля, капитализм, социализм.*
***Keywords:*** *Azerbaijan, economics, Avesta, history, capital, political economics, banking, trade, capitalism, socialism.*

## Giriş

Azərbaycan xalqının mövcudluğunu, bütövlükdə inkişafını, onun mədəniyyətini, mənəviyyatını səciyyələndirən amillərdən biri bu xalqa məxsus olan iqtisadi fikirlərdir. Xalqın iqtisadi fikri onun yaşadığı sosial-iqtisadi durumun ifadəsidir, xalqın həyat tərzini, yaşadığı problem və çətinlikləri, iqtisadi inkişafda nailiyyətlərini əks etdirir.

Azərbaycan xalqının iqtisadi fikir tarixinə diqqət yetirdikdə məlum olur ki, bu xalqın görkəmli mütəfəkkirləri, alim və tədqiqatçıları tərəfindən irəli sürülən elə fikirlər vardır ki, onlar dünya iqtisadi fikrində sanballı yer tutmağa layiqdirlər. Azərbaycan xalqının iqtisadi fikirlərinin aşkar edilib öyrənilməsinin yalnız tarix üçün, dünyagörüşü üçün deyil, konkret təsərrüfatçılıq üçün, düzgün qərarların qəbul edilməsi və onların həyata keçirilməsi üçün də müstəsna əhəmiyyəti vardır.

## Məsəlinin qoyuluşu

Azərbaycanda iqtisadi fikrin və biznesə dair informasiya resurslarının

yaranması tarixinin bütöv, tam ardıcıllıqla və sistemli şəkildə öyrənilməsi son dərəcə vacib məsələlərdəndir. Qeyd etmək lazımdır ki, Azərbaycanda ən az öyrənilən və tədqiq olunan elmi sahələrdən biri Azərbaycan iqtisadi fikir tarixidir. Düzdür, ölkəmizdə XX əsrin 50-ci illərindən başlayaraq ayrı-ayrı mütəfəkkirlərin ictimai-iqtisadi görüşləri tədqiq olunmağa başlamışdır. Burada Ə.Sumbatzadənin, Ə.Fərəcovun, B.Axundovun, M.Mustafayevin, Y.Məmmədovun tədqiqatlarını xüsusi qeyd etmək lazımdır. 80-ci illərdən başlayaraq Azərbaycan iqtisadi fikir tarixi müəyyən ardıcıllıqla tədqiq olunmağa başlanılmışdır. Burada T.Vəliyevin, M.Musayevin, Q.Əbülsəlimzadənin, A.Həsənovun, Ə.Qəribovun, Y.Həsənovun, X.Kərimovun və başqalarının tədqiqatlarını göstərmək olar. Lakin mövcud quruluşun tələbləri çərçivəsində aparılan bu tədqiqatlar öz elmi əhəmiyyətini saxlamaqla, iqtisadi fikrə dair ümumiləşmələr sistemli şəkildə yekunlaşdırılmışdır. Yalnız XX əsrin 90-cı illərindən etibarən ölkəmizdə müstəqillik əldə olunundan sonra iqtisadi təlimlərin öyrənilməsi ilə bağlı iqtisadi fikir sahəsində bir sıra tutarlı elmi əsərlər meydana gəlməyə başlamışdır. Bu dövrün görkəmli iqtisadçı alimləri Ə.A.Mahmudov, A.A.Nadirov, Z.Ə.Səmədzadə, A.K.Ələsgərov, T.Ə.Quliyev, M.M.Allahverdiyev, A.Ə.Əliyev, T.S.Vəliyev, Ş.M.Muradov, A.F.Musayev, T.A.Hüseynov, İ.Ə.Feyzullabəyli, H.B.Allahverdiyev və başqalarının yaratmış olduqları elmi məktəblərin yetirmələri yeni iqtisadi sistemə keçidlə əlaqədar iqtisad elminin müxtəlif istiqamətlərində mühüm nəzəri və metodoloji əsaslı problemlərin həllinə xüsusi diqqət yetirə bilmişdilər (3, 10).

**Məsələnin həlli yolları**:

Azərbaycan xalqının iqtisadi fikirləri haqqında bizə gəlib çatan ən qədim yazılı abidələrdən biri "Avesta"dır. Zərdüştlüyün qanunlar toplusu olan "Avesta" bizim eradan əvvəl X–VII əsrlərdə meydana gəlmişdir. Kitabda əkinçilik, suvarma işlərinin köməyi ilə maddi nemətlər istehsalının artırılması nicata layiq mömin həyat hesab edilir.

Azərbaycanda ilk sosial hərəkatlar olan Manuhəçilik (III əsr), Məzdəkizm (V-VI əsrlər) və Xürrəmilər (VIII-X əsrlər) hərəkatlarının iqtisadi məzmunu hamı üçün mülkiyyət hüququ yaratmaq ideyası təşkil edir.

İslam dininin yaranması (VII əsr), onun qəbul edilməsi bütün şərq xalqlarının, o cümlədən Azərbaycan xalqının sosial-iqtisadi fikrinə də öz təsirini göstərmişdir. Müsəlmanların müqəddəs kitabı olan "Qurani-Kərim" sonrakı iqtisadi fikirlərin, mütəfəkkirlərin iqtisadi baxışlarının əsas ideya mənbəyi kimi çıxış etmişdir. Torpaq üzərində mülkiyyət, ticarətə münasibət, əmlak və əmlaka münasibət, vergilər, onların mahiyyəti və əhəmiyyəti və digər iqtisadi məsələlər islam ideyaları əsasında və ya ona uyğun bir şəkildə şərh olunmuşdur.

Azərbaycan xalqı ensiklopedik məzmunlu qədim yazılı abidələri olan bir xalqdır. Bu baxımdan "Dədə-Qorqud" qəhrəmanlıq dastanıdır və oradakı iqtisadi ideyalar diqqəti cəlb edir. X əsrdə qələmə alınmış bu dastan III-VII əsrlərin real hadisələrini, böyük bir dövrün ictimai həyatını, təsərrüfat ukladını

öyrənmək baxımından əvəzsiz mənbədir. "Dədə-Qorqud" dastanının məlumatları təsdiq edir ki, Azərbaycan oğuzlarının həyatında pul tədavül və yığım vasitəsi kimi istifadə olunmuşdur.

Artıq XII əsrdə Azərbaycanda iqtisadi fikir özünün yüksək səviyyəsinə çatır. N.Gəncəvi əmək və sərvət haqqında təlim yaradır. Nizami alqı-satqı prosesində bərabərlik prinsipinin gözlənilməsindən bəhs edir, tələb və təklifin, əmtəələrin bazar qiymətlərinə təsirini aydın təsvir etməklə, XII əsrdə Azərbaycanda pul sistemi haqqında, pulun sosial-iqtisadi təbiəti haqqında mükəmməl elmi təsəvvürlər yaradır.

Orta əsrlər Azərbaycan iqtisadi fikir tarixində Nəsirəddin Tusinin xüsusi yeri vardır. Onun məşhur "Əxlaqi Nasiri" əsərində iqtisadi məsələlərin şərhi və "Dövlət maliyyəsi haqqında traktirlər" əsəri onu həm də professional iqtisadçı hesab etməyə əsas verir. N.Tusi Azərbaycanın ilk iqtisadçısı olmaqla, iqtisad elminin predmetini müəyyən etmişdir (1, 32). N.Tusi öz əsərlərində sahibkarlıq əxlaqını çox gözəl ifadə etmişdir. O yazırdı: "Gəlir əldə etmək üçün, əsasən, üç şərti yerinə yetirmək lazımdır: birinci - zülmə yol verməmək; ikinci - rüsvayçılığa yol verməmək; üçüncüsü - alçaqlığa yol verməmək(5, 33).

XV-XVII əsrlərdə Azərbaycan xalqının iqtisadi baxışlarının yetkinlik səviyyəsi haqqında İmadəddin Nəsiminin, Şah İsmayıl Xətainin, Məhəmməd Füzulinin yaradıcılığı, həmçinin görkəmli tarixçilər Həsən bəy Rumlunun və İsgəndər Münşinin əsərləri geniş təsəvvür yaradır.

Məhəmməd Füzulinin iqtisadi baxışları onun "Rindü-Zahid" əsərində, "Şikayətnamə" adlı məktubunda və "Mətləül-etiqad" əsərində öz əksini tapmışdır. Onun əmtəə-pul münasibətləri və ticarət haqqında düşüncələri həmin dövrün sosial-iqtisadi münasibətlərini ifadə edir.

XII əsrdə Azərbaycan xalqının iqtisadi fikrində Həsən bəy Rumlunun 10 cildlik "Əhsənüt-təvarix" ("Tarixlərin ən yaxşısı") əsəri mühüm yer tutur. Bu əsərdə XV-XVI əsrlər Azərbaycanın ictimai-iqtisadi və siyasi həyatı və dövlət quruluşu haqqında məsələlər daha dolğun əks olunmuşdur.

Yaxın Şərqin orta əsr tarixçilərindən biri olan İsgəndər Münşinin "Tarix-i Aləm araj-i Abbasi" kitabında ölkənin iqtisadi həyatı, ticarət, şəhər sənətkarlığı, I Şah Abbasın (1587-1629) vergi siyasəti, verginin növləri haqqında maraqlı məlumatlar verilmişdir.

XIX əsrin 1-ci yarısında yaşayıb yaratmış Azərbaycanın təbii sərvətləri və onlardan istifadəyə xüsusi diqqət yetirən A.Q.Bakıxanov Azərbaycan tarixində ilk dəfə olaraq "Ümumi coğrafiya" adlı əsər yazmışdır.

M.F.Axundovun "Adamların tələbatları haqqında" əsərində iqtisadi fikirləri əks olunmuşdur.

Bir məsələni qeyd etmək lazımdır ki, XIX əsrdə Azərbaycan dilində nəşr olunmuş iqtisadiyyata dair kitabların əksəriyyəti Tiflisdə çap olunmuşdur. Məsələn, "Boyaq əkmək qanunları" adlı kitab 1841-ci ildə Tiflisdə Arzanovlar nəşriyyatında çap olunmuşdur. 1870-ci ildə "Qanuni-qərardaddır" adlı daş basması üsulu ilə çap olunan kitabda rəiyyəti işlətmək qaydaları, mülkədarlara

verilәsi vergilәrin miqdarı haqqında mәsәlәlәr dә yer almışdı. Bunlardan başqa 1885-1900-cü illәr ərzində barama qurdunun bәslәnmәsi vә pambıq becәrilmәsi barәsindә Tiflisdә Azәrbaycan dilindә 6 adda kitab nәşr olunmuşdur.

H.B.Zәrdabi vә N.B.Vәzirov iqtisadi tәmayüllü “Әkinçi” (1875-1877) qәzetinin sәhifәlәrindә siyasi iqtisadın bir çox problemlәrinә diqqәt yetirmiş, bu elmin predmetinә tәrif vermişlәr. H.B.Zәrdabi siyasi iqtisadi “elmi dadisted” (kommersiya haqqında elm), N.B.Vәzirov isә “bәrhәm zәhmәtlik elmi” (hәmzәhmәtlik elmi), “elmi qәnaәt politiki” (vaxta qәnaәt sәnәtkarlığına dair elm) adlandırmışdır. Qәzetin hәr bir nömrәsindә kәnd tәsәrrüfatının bu vә ya digәr sahәsinә dair mәqalәlәr verilmişdir. Mәsәlәn, “Maldarlığın inkişafı vә yaxşılaşdırılması tәdbirlәri haqqında”, “Şәrqi Zaqafqaziyada suya olan ehtiyac”, “Kür çayı sahillәrindә pambıq әkinlәrinin genişlәndirilmәsi”, “Bakı qәzasında zәfәran istehsalı”, “Yerli ipәkçilik haqqında” vә s. (4, 33). 1891-ci ildә Bakıda rus dilindә neft mәhsullarına hәsr olunmuş bir kitab nәşr olunmuşdur.

Qeyd etmәk lazımdır ki, 1900-1920-ci illәr Azәrbaycan kitabı tarixinin әn zәngin, eyni zamanda әn ziddiyyәtli dövrlәrindәn biridir. Birinci rus inqilabı zamanı mәtbuat sahәsindә böyük canlanma әmәlә gәlmişdi. Proletariatın apardığı mübarizә nәticәsindә Rusiyada vә ucqarlarda “Mәtbuat azadlığı” әldә edilmişdi. Senzura aradan qaldırılmışdı. Bu dövrdә qәzet vә jurnaldan sonra, ideya mübarizәsinin ikinci әsas meydanı kitab idi (2, XL).

C.Mәmmәdquluzadә vә M.Ә.Sabir “Molla Nәsrәddin” jurnalında (1906-1913) sosial satiranın dili ilә hәmin dövrün iqtisadi münasibәtlәrinin geniş tәhlilini vermişdir. Jurnalda M.Ә.Sabirin kapital yığımı, renta münasibәtlәri, tәlәb vә tәklifin qiymәtlәrә tәsiri haqqında dәyәrli fikirlәri yer almışdır.

Bunlarla yanaşı, Ü.Hacıbәyovun 1907-ci ildә tәrtib etdiyi “Türki-rusi vә Rusi-türki lüğәti” dә maraq doğurur. Lüğәtdә siyasi, hüquqi, hәrbi anlayışların izahı geniş verilsә dә, eyni zamanda, bir çox iqtisadi anlayışların da izahı vә şәrhi verilmişdir. Lüğәtdә hәmçinin iqtisad vә siyasi iqtisad elmlәrinә dә tәriflәr verilmişdir (1, 36).

1900-1920-ci illәr әrzindә Azәrbaycan dilindә bank işi, istiqrazlar, sәrmayә, gәlir vergisi, әmanәtlәr, istehlak, ticarәt, kәnd tәsәrrüfatı sәrgilәri, arıçılıq, pambıqçılıq vә üzümçülüyә dair 19 kitab nәşr olunmuşdur. Bunlardan 7-si Tiflisdә, 1-i Sankt-Peterburqda, 11-i isә Bakıda fәaliyyәt göstәrәn İsa bәy Aşurbәylinin “Kaspi” mәtbәәsindә, “Novruz” mәtbәәsindә, “Orucov qardaşlarının elektrik mәtbәәsi”ndә vә “Әlәkbәrovun mәtbәәsi”ndә nәşr olunmuşdur. Göründüyü kimi, XX әsrin әvvәllәrindә Bakıda artıq bir neçә mәtbәә fәaliyyәt göstәrirdi.

XX әsrdә Azәrbaycan xalqının taleyinә iki dәfә keçid dövrü yaşamaq qismәt olmuşdur. Bunlardan biri kapitalizmdәn sosializmә (1920-1937-ci illәr), digәri isә sosialist sistemi dağıldıqdan sonra (1991-ci il) sosializmdәn kapitalizmә olan keçid dövrüdür. Hәr iki inkişaf mәrhәlәsi çoxlu çәtinliklәrlә

və mürəkkəb proseslərlə zəngindir. Bunlar keçid dövrünün xarakterindən və qarşıya qoyduğu məqsəddən irəli gəlir.

Xalqımızın iqtisadi fikir tarixində Azərbaycan Demokratik Respublikasının (1918-1920) fəaliyyəti dövrü xüsusilə əhəmiyyətlidir. Məhz ADR dövründə dövlət mülkiyyəti, xüsusi, səhmdar, bələdiyyə mülkiyyəti formaları inkişaf etmişdir. Bu dövrdə bir çox aqrar islahatlar həyata keçirilmiş, xarici iqtisadi-ticarət siyasəti işlənib hazırlanmışdır. 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikası qurulan zaman xarici kapitalın tətbiqi hesabına Azərbaycan iqtsadiyyatı daxili bazarın hüdudlarından az-çox kənara çıxmağa cəhd edilmişdir.

1920-1940-cı illər kitab nəşrinin həm ümumi ideya və mədəni səviyyəsi, həm bədii tərtibatı, həm də kitab sərvətinin toplanıb mühafizə edilməsi, təbliği və kitab ticarəti sahəsində yeni nailiyyətlər dövrü olmuşdur (2, XII).

İyirminci illərin ikinci yarısında o vaxta qədərki kiçik həcmli, çox zaman kütləvi səciyyə daşıyan kitabçaların ardınca sanballı kitablar, çoxcildlik nəşrlər buraxılmışdı. Nəşriyyatların müəyyən seriyalar üzrə kitablar buraxması, kitab məhsulunun xalq təsərrüfatı, elm və texnikanın yeni-yeni sahələrini əhatə etməsi mühüm yeniliklərdən idi. Marksist-Leninçi ədəbiyyat, yeni əlifba komitəsinin nəşrləri, neft və texnikaya aid ədəbiyyat, iqtisadiyyatın müxtəlif sahələrinə aid kitablar buraxılması Azərbaycan kitabının öz inkişaf tarixində yeni mərhələyə qədəm qoyduğunu göstərirdi (2, XII).

Respublikada ilk dəfə olaraq milli iqtisadçı kadrların əsərləri də məhz bu illərdə çap olunmağa başlanır. Xalqımızın iqtisadi fikrinin inkişafında mühüm rol oynayan və bu gün də əhəmiyyətini saxlayan əsərlərdən biri Məhəmməd Həsən Vəliyevin “Azərbaycan təbii-coğrafi, etnoqrafik və iqtisadi mülahizat” (1921) kitabıdır. Kitabda ölkəmizin iqtisadiyyatının keçmişi haqqında məlumatlarla yanaşı, gələcək inkişafı barəsində də maraqlı məlumatlar yer almışdır. Kitab 1993-cü ildə yenidən nəşr edilmişdir.

Y.V.Çəmənzəminlinin 1921-ci ildə İstanbulda nəşr edilmiş “Tarixi, coğrafi və iqtisadi Azərbaycan” kitabı öz əhəmiyyətinə görə dövrünün qiymətli kitabları sırasına daxildir. Kitabda ölkəmizin coğrafiyası, əyalətləri, təbii və iqtisadi resursları, müxtəlif istehsal sahələri haqqında verilən məlumatlar bu gün də əhəmiyyətini saxlamışdır. Məhz bu xüsusiyyəti nəzərə alındığı üçün kitab 1993-cü ildə yenidən nəşr olunmuşdur (1, 40).

20-30-cu illərdə Azərbaycan iqtisadi fikrinə H.Dadaşov, Q.Sultanov, Ə.Fərəcov, B.Həsənbəyov, M.Ağayev və M.Mustafayev kimi yeni milli nümayəndələr daxil olmuşdur. H.Dadaşovun “SSRİ təsərrüfatında izafi əmək məsələsinə dair” (1927), B.Həsənbəyovun “Marksın dəyər nəzəriyyəsi” (1930), N.İ.Sofranoviçin “Tuqan Baranovskinin bazar nəzəriyyəsi və onun tənqidi” (1930), M.Mustafayevin “Siyasi iqtisadın vəzifələri” (1932), Ə.Fərəcovun “Ümumi dəftərdarlıq” (1928), “Mühasibat uçotu teoriyası” (1940), T.L.Berinin “Vilyam Petti” (1929), Q.Sultanovun “Azərbaycan sənayesinin bəzi sahələrinin inkişafının qısa oçerki” (1923), “Siyasi iqtisadın predmeti”

(1929), “Yağ-piy sənayesi və onun perspektivləri” (1928) əsərləri öz dövrünün iqtisadi fikrinin mühüm əhəmiyyətli əsərləri hesab olunur (1, 40).

Qeyd etmək lazımdır ki, 1930-1940-cı illər ərzində iqtisadiyyat elminə dair nəşr olunan ədəbiyyatlar içərisində siyasi iqtisada aid kitablar xüsusi yer tuturdu və K.Marksın və F.Engelsin əsərlərini əhatə edirdi. Məhz bu illərdə K.Marksın 1930-cu ildə 3000 nüsxə ilə nəşr olunmuş “Əmək haqqı, fiət və qazanc”, 1935-ci ildə 5000 nüsxə ilə nəşr olunmuş “Əmək haqqı, qiymət və qazanc”, 1940-cı ildə 8000 nüsxə ilə nəşr olunmuş “Muzdlu əmək və kapital”, 1930-cu və 1940-cı illərdə 2000 nüsxə ilə nəşr olunmuş “Siyasi iqtisadın tənqidinə mədxəl” əsərləri, F.Engelsin 1934-cü ildə 5000 nüsxə ilə nəşr olunmuş “Ailə, xüsusi mülkiyyət və dövlətin mənşəyi”, K.Kautskinin 1928-ci ildə 3000 nüsxə ilə nəşr olunmuş “Karl Marksın iqtisad nəzəriyyəsi” sovet dövrünün iqtisadi fikrini əks etdirən kitablar idi. Bütövlükdə Təsnifat cədvəlinin “VII. Siyasi-iqtisadi nəzəriyyələr” bölməsi üzrə Azərbaycan dilində şura iqtisadiyyatı, siyasi iqtisad, dünya iqtisadi böhranı və təsərrüfat siyasətinə həsr olunmuş 27 adda kitab nəşr olunmuşdur ki, bunların əksəriyyəti “Azərnəşr”də, bəziləri “Azərfirqənəşr”də, dördü isə Tiflisdə çapdan buraxılmışdı.

1930-1933-cü illər ərzində Azərbaycanın xarici ticarət əlaqələri, Azərbaycanda kooperasiya günü, dünya iqtisadi böhranı haqqında “Azərnəşr”, “Azərbaycan Xarici Ticarət Palatası nəşriyyatı” və “Azərittifaqın nəşriyyatı” və “Bakı fəhləsi kooperativ nəşriyyatı” tərəfindən 5 adda kitab nəşr olunmuşdu.

Bu illərdə maliyyə, gəlir, vergi, əmanət və kredit kassaları, büdcə tərtibinə dair 13 adda, kənd təsərrüfatı və əkinçiliyə dair Azərbaycan dilində 1 adda kitab nəşr olunmuşdu.

1920-1945-ci illərdə əsası ADR dövründə qoyulmuş iqtisadi təmayüllü tədris və elm müəssisələrinin yaradılması davam etdirilirdi. 1922-1923-cü illərdə M.Əzizbəyov adına Azərbaycan Politexnik İnstitutunun nəzdində açılmış iqtisad fakultəsinin yanında fəaliyyət göstərən “Elmi iqtisadi cəmiyyət” iqtisadi tədqiqatlarla məşğul olurdu.

**Nəticə:**

Göründüyü kimi, Azərbaycanda iqtisadiyyatla bağlı ilk yazılı mənbələr hələ Zərdüştlüyün zamanında yaranaraq orta əsrləri və müasir dövrü əhatə edir. “Biznes” termini XX əsrdə meydana gəldiyinə görə tarixin daha öncəki dönəmlərində “iqtisadiyyat”, sovet dövründə isə “siyasi iqtisad” termini kimi istifadə olunurdu. Bu faktlara əsaslanaraq qeyd etmək lazımdır ki, Azərbaycan xalqının iqtisadi fikir tarixi və onunla əlaqədar olan ilkin yazılı informasiya resurslarının yaranması “Avesta”nın yarandığı tarixlə eyni zamanda baş versə də şifahi mənbələrdə bu tarix daha qədim dövrlərə gedib çatır.

**Ədəbiyyat**


1. Azərbaycan iqtisadiyyatı.-Bakı, Ağrıdağ, 1999. 400 s.
2. Azərbaycan kitabı, 1-ci cild, 1951. 194 s.
3. İqtisadi təlimlər tarixi. Bakı: Mütərcim, 1999. 196 s.
4. Kərimov E., Osmanov B. İqtisadi nəzəriyyə. Dərslik.-Adiloğlu.-2004. 459 s.
5. Məmmədov N. Məhərrəmov A. Azərbaycan iqtisadiyyatı.-Bakı, Azərnəşr.-2011. 522 s.

# AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ KİTABXANASININ 2005-2015-Cİ İLLƏR ÜZRƏ FONDUNUN TƏHLİLİ

**_Günel Hacıyeva_**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı*
*gunel.haciyeva.1987@mail.ru*

***Анализ Библиотечный фонд университета Архитектуры и Строительство за годы 2005-2015***
***Резюме:*** *В статье проанализированы схема проезда к формированию библиотечного фонда в период 2005-2015 годов, дается обзор литературы, источники и типы документ, языка жестов согласно статистическим данным.*
***Comparative analyzes to the Library fund of University of Architecture and Construction during the period of 2005-2015***
***Abstract:*** *The article reviews the analyzes of fund formation directions during the period of 2005-2015, recruiting sources literature on this years and the types of document sign, language, according to the statistics.*

***Açar sözlər:*** *memarlıq, müqayisəli təhlil, komplektləşdirmə, Azərbaycan Memarlıq və İnşaat Universitetinin kitabxanası, sənədlərin statistikası, komplektləşdirmə mənbələri*
***Ключевые слова:*** *архитектура, сравнительный анализ, приобретение, библиотека университета Архитектуры и строительство, документы, статистические данные, источники комплектования*
***Keywords:*** *architecture, comparative analysis, acquisition, the Library of University of Architecture and Construction, documents, statistics, recruiting sources*

Müstəqillik qazandıqdan sonra Azərbaycan sürətlə siyasi, elmi, mədəni və başqa sahələrdə bir çox nailiyyətlərə imza atdı. Müxtəlif istiqamətlərdə olduğu kimi, memarlıq sahəsinə də xüsusi diqqət və qayğı göstərildi. Bunun da məntiqi nəticəsidir ki, memarlıq elmi sürətlə inkişaf etməkdədir.

Elmin inkişafı onun kitabxana-informasiya təminatı sisteminin optimallığından asılıdır.

Azərbaycanda memarlıq üzrə mütəxəssislərin kitabxana-informasiya təminatı sistemində ən böyük ixtisaslaşmış müəssisə Azərbaycan Memarlıq və İnşaat Universitetinin Kitabxanasıdır. AzMIU-nun kitabxanası 1977-ci ildə yaranmışdır. Hal-hazırda fondunda 517239 nüsxə ədəbiyyatı vardır.

Kitabxananın 3 abonementi, 3 qiraət zalı, bir neçə kabinet kitabxanası, o cümlədən memarlıq kabineti kitabxanası, mübadilə, ehtiyat, nadir kitablar, dissertasiyalar və avtoreferatlar fondu vardır.

Hal-hazırda kitabxananın 7 şöbəsi, 3 filialı fəaliyyət göstərir ki, bunlarında başlıca vəzifəsi daim inkişaf edən respublikamızın bütün

sahələrində aparılan proqram və layihələrdə fəaliyyət göstərə bilən bacarıqlı mütəxəssislər hazırlanmasına kömək etməkdir.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin Kitabxanası (bundan sonra - kitabxana) fəaliyyətini müasir tələblər səviyyəsində qurmuşdur. Kitabxananın əsas vəzifəsi ənənəvi və elektron kitabxana vasitəsi ilə ali təhsil müəssisəsinin oxucularının informasiya tələbatını operativ ödəmək və onlara dolğun informasiya xidmət göstərməkdir (1, s.1).

Kitabxana 2014-cü ildə tamamilə yenidən müasir formada qurularaq oxucularının istifadəsinə verilmişdir. Burada yeni oxu zalları, konfrans (virtual) zalı və müasir elektron xidmət şöbəsi yaradılmışdır.

Kitabxananın əsas fəaliyyət istiqaməti:

- kitablar, dövri və ardı davam edən nəşrlər, normativ-texniki və patent sənədləri, dissertasiyalar və avtoreferatlardan ibarət sənəd-informasiya resursları fondunu zənginləşdirmək, mühafizə etmək və onlardan istifadəni təmin etmək;
- kitabxananın sənəd-informasiya resursları fondunu özündə əks etdirən mükəmməl informasiya axtarış sistemi (ənənəvi və elektron kataloq), elektron kitabxana və biblioqrafik vəsaitlər sistemini tətbiq etməklə oxucuların hərtərəfli istifadəsinə verməkdən ibarətdir (1, s.1).

Kitabxananın oxu zalları internetə qoşulmuş və kitabxananın elektron kataloqu və digər elektron resurslardan istifadə prosesləri avtomatlaşdırılmışdır.

Kitabxana ölkənin bir sıra iri kitabxanaları ilə kitab mübadiləsi həyata keçirir. Bunlardan Bakı Dövlət Universitetinin elmi kitabxanasını, Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasını və M.F.Axundov adına Milli Kitabxananı göstərmək olar. Kitabxana eyni zamanda bir çox kitabxanalardan kitabxanalararası abonement (KAA) vasitəsilə ilə az tapılan kitablar əldə edərək oxucuların sorğuları ödənilir.

Kitabxana fondunu aşağıdakı mənbələrdən komplektləşdirir:

- Kitab mağazaları;
- Hökumət idarələri;
- Müəllif tərəfindən hədiyyə verilən;
- Köçürmə;
- İnternet şəbəkəsi;
- Oxucular tərəfindən itirilən kitabların əvəzi;
- Mübadilə;
- Abunə.

Ölkəmizdə keçirilən yubileylər, iqtisadi uğurlar, görüşlərlə əlaqədar kitabxanada sərgilər təşkil olunur və bütün bu məlumatlar əyani şəkildə oxuculara çatdırılır. Respublikamızın və xalqımızın həyatında baş verən əlamətdar hadisələr barədə də kitabxanada sərgilər keçirilir, foto stendlər təşkil olunur. Erməni qəsbkarlarının xalqımızın başına açdığı müsibətlər, Qara

Yanvar, Xocalı, Qarabağ faciələrinə aid ədəbiyyatlar kitabxanada öz əksini tapmış, oxu zallarında fotosərgilər təşkil olunur.

Kitabxana universitetin əsas şöbələrindən biri kimi öz işlərində dövlətin, Təhsil Nazirliyinin və eləcə də universitet rəhbərliyinin qərar və göstərişlərini yerinə yetirir.

Kitabxana tədris prosesində kafedralarla əlbir şəraitdə işləyərək kitab fonduna yeni ixtisaslara aid kitablar alır.

Abunə yolu ilə kitabxanaya hər il xeyli adda qəzet və jurnallar alınır. Kitabxanaya, əsasən, aşağıdakı nəşrlər daxil olur: dərsliklər, ictimai-siyasi, elmi, bədii, xarici, dissertasiyalar və dövrü mətbuat nəşrləri.

Hal-hazırda kitabxananın fəaliyyətində internet və elektron informasiya daşıyıcılarından da istifadə edilməyə başlanmışdır. Belə ki, kitabxananın elektron kataloqu tam hazırlanmışdır.

Müəllimlərin tədris etdikləri fənlərin mühazirələri optik disklərdə toplanaraq kitabxanaya verilmiş və kitabxana tərəfindən Adobe Acrobat proqramında işlənib internətə yerləşdirilmişdir. Kafedralar tərəfindən fənlərə aid testlər də kitabxanaya verilmiş və həmin testlər kompüterə yerləşdirilərək oxucuların istifadəsinə verilmişdir.

Kitabxana oxucuların sərbəst surətdə informasiya alması və ölkəmizin həyatında baş verən yeniliklərdən iqtisadi uğurlardan xəbərdar olması üçün bütün vasitələrdən istifadə edir. Rəhbərlik tərəfindən kitabxanaya aid bütün müasir texniki avadanlıqlar alınmışdır.

Kitabxana "KOHA" inteqrallaşdırılmış kitabxana-informasiya sistemi əsasında elektronlaşdırılır. 2012-ci ildən kitabxananın fondu elektron kataloqa daxil edilmişdir. Oxucular elektron kataloq vasitəsilə kitabın müəllifinə, sərlövhəsinə, nəşr ilinə, nəşr yerinə və s. əlamətlərinə görə sadə və hərtərəfli axtarış apara bilərlər. Həmçinin Azərbaycan dilində, latın qrafikalı ədəbiyyatların elektron versiyası hazırlanıb kitabxananın saytında yerləşdirilmişdir.

Hər bir sahənin və bu sahə üzrə olan mütəxəssislərin inkişafı birbaşa həmin sahə üzrə mövcud olan sənəd-informasiya resursları ilə bağlıdır. Bu səbəbdən memarlıq və inşaat sahəsi üzrə statistik təhlilin aparılması məqsədəuyğundur. Aparılan təhlil fondun istifadə səmərəliliyini, sənədlərin informasiya əhəmiyyətini, oxucuların sayını, təminatını qiymətləndirməyə imkan verir.

Azərbaycan Memarlıq və İnşaat Universiteti Kitabxanasının 2005-2015-ci illər ərzində komplektləşdirilmiş sənəd-informasiya resurslarının təhlilinin sayəsində kitabxanaya daxil olan ədəbiyyatın ümumi həcmini, növünü, kitab verilişini, oxucu gəlişini müəyyənləşdirmək mümkün olur. Aşağıdak cədvəldə fondun həcmi təsvir edilmişdir.

| İllər | Qəzet | Jurnal | Kitab | Dissertasiya | | Avtoreferat | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|
| | | | | Alimlik | Magistr | | |
| 2005 | 93 nüs.<br>19 adda | 44 nüs.<br>22 adda | 2360 n.<br>849 ad. | 13 | 54 | 10 | **2 574** |
| 2006 | 120 nüs.<br>25 adda | 55 nüs.<br>28 adda | 3830 n.<br>1920 ad. | 7 | 52 | 16 | **4 080** |
| 2007 | 158 nüs.<br>26 adda | 50 nüs.<br>30 adda | 3339 n.<br>1759 ad. | 16 | 47 | 13 | **3 623** |
| 2008 | 192 nüs.<br>24 adda | 42 nüs.<br>40adda | 4584 n.<br>1722 ad. | 14 | 35 | 11 | **4 878** |
| 2009 | 198 nüs.<br>26 adda | 42 nüs.<br>42 adda | 3964 n.<br>1638 ad. | 10 | 40 | 10 | **4 264** |
| 2010 | 139 nüs.<br>22 adda | 62 nüs.<br>45 adda | 3568 n.<br>1399 ad. | 8 | 42 | 12 | **3 831** |
| 2011 | 166 nüs.<br>29 adda | 82 nüs.<br>44 adda | 2213 n.<br>984 ad. | 12 | 34 | 14 | **2 521** |
| 2012 | 166 nüs.<br>29 adda | 50 nüs.<br>50 adda | 1985 n.<br>410 ad. | 15 | 43 | 12 | **2 271** |
| 2013 | 171 nüs.<br>28 adda | 62 nüs.<br>22 adda | 1473 n.<br>228 ad. | 10 | 55 | 13 | **1 784** |
| 2014 | 283 n.<br>28 ad. | 85 nüs.<br>23 ad. | 5060 n.<br>258 ad. | 12 | 61 | 16 | **5 517** |
| 2015 | 283 n.<br>28 ad. | 105nüs.<br>25 ad. | 2711 n.<br>515 ad. | 14 | 36 | 31 | **3 180** |
| **Cəmi** | **1 969** | **679** | **35 087** | **131** | **499** | **158** | **38 523** |

Cədvəldən göründüyü kimi, son 10 il ərzində fonda çox sayda qəzet, jurnal, kitab daxil olmuş, həmçinin nisbətən az sayda dissertasiya və avtoreferatlar da yer almışdır. Kəskin fərq müşayiət olunmasa da, ən aşağı göstərici 2013-cü ildə (cəmi 1784 nüsxə), ən yüksək göstərici isə 2008-ci ildə (cəmi 4 878 nüsxə) olmuşdur.

***Diaqram №1.*** *2005-2015-ci illər ərzində komplektləşdirilmiş sənədlərin ümumi statistikası*




Diaqramdan aydın olur ki, son 10 ildə kompleklәşdirmə hər il müxtəlif sayda olmuşdur. Lakin 2014-cü ildə bu göstərici ən yüksək həddə çatmışdır. Ən aşağı göstərici isə 2013-cü ildə müşayiət olunur. Qalan illərdə isə nisbətən yüksələn xətlə davam etmişdir.

***Diaqram №2.*** *2005-2015-ci illər ərzində oxucuların sayının ümumi statistikası*




Göründüyü kimi, oxucuların sayı 2005-ci ildən artmağa başlamış və 2009-cu ildən stabil sayda qalmışdır. Lakin ən çox oxucu sayı 2013-cü ildə (8.276 nəfər) olmuşdur.

***Diaqram №5.*** *2005-2015-ci illər ərzində bütün xidmət sahələrində oxucu gəlişinin sayının ümumi statistikası*




Yuxarıdakı diaqram da demək olar ki, oxucu gəlişinin sayının artan sıra ilə yüksəldiyini göstərir. Ən yüksək göstərici isə təbii olaraq 2015-ci ilə aiddir.

***Diaqram №5.*** *2005-2015-ci illər ərzində fondu təşkil edən müxtəlif ədəbiyyatın sayının ümumi statistikası*




Tablodan da göründüyü kimi, burada müxtəlif növ ədəbiyyatın illər üzrə sayı göstərilmişdir. Təbii olaraq təhsil müəssisəsinin kitabxanası olduğu üçün burada dərsliklər bütün illərdə yüksək göstəricidə müşayiət olunur. 2-ci

yerdə isə elmi ədəbiyyat çoxluq təşkil edir. Ən az saya isə xarici ədəbiyyat və mübadilə yolu ilə alınan nəşrlər sahibdir. Dövri və digər nəşr ilə bədii ədəbiyyat isə demək olar ki, bütün illər boyu sayca paraleldir. Yalnız 2005-2007-ci illərdə cüzi fərq nəzərə çarpır.

**Ədəbiyyat**


1. Azərbaycan Memarlıq və İnşaat Universitetinin Kitabxanasının 2005-2015-ci illər üzrə hesabatları.
2. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu// Azərbaycan.- 1999.- 14 mart.
3. Tahirov K.M. Dünya milli kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası: Dərs vəsaiti.- Bakı: Bakı Univ. Nəş., 2013.- 212s.
4. Ağazadə R., İbrahimli Y. Azərbaycan memarlığı: inkişaf yollarında. – Bakı, Şərq-Qərb. – 2013. – 384s.
5. Bəkirova T.Ş. Memarlıq mühitinin inkişaf təkamülü. – Bakı, 2013.

# AKADEMİK KİTABXANALAR MİLLİ ELMİ İRSİN QORUNMASI SİSTEMİNDƏ

***Aygün Səfərova***
*Bakı Dövlət Universitetinin Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının doktorantı*
*AMEA Mərkəzi Elmi Kitabxanasının Kitabxana xidmət şöbəsinin müdiri*
*Email:aygunsafarova3@gmail.com*

“Öz mədəni irsini qoruyub saxlaya bilməyən xalq
nəyə qadir olduğunu heç vaxt sübut edə bilməz”.
**Heydər Əliyev**

***Академические библиотеки в системе сохранения национальной научной наследии***
***Резюме:*** *Статья рассматривает вопросы изучения, сбора и сохранения национально-научной наследии. В этом направлении изучается опыт академических библиотек разных стран. Автор анализирует концепцию по определению, сбору, сохранению и пропаганды национально-научной наследии Азербайджанской Республики.*
***Academic libraries in the system of preservation of the national heritage***
***Abstract:*** *Article reviews the study questions, collection and preservation of the national scientific heritage. In this direction is studied experience of academic libraries around the world. The author analyzes the concept of the definition, collection, preservation and propagandy of the national scientific heritage of the Republic of Azerbaijan.*

***Açar sözlər:*** *Milli elmi irs, akademik kitabxana, milli irsin toplanması, milli irsin təbliği.*
***Ключевые слова:*** *Национальное научное наследие, академическая библиотека, сбор национальной наследии, пропаганда национальной наследии.*
***Keywords:*** *National scientific heritage, academic library, collection of national heritage, promotion of the national heritage.*

Bəşər mədəniyyətinin inkişafının əsas vasitəsi olan kitab cəmiyyətin yaranmasının erkən dövrlərində meydana gəlmiş, zəmanəmizə qədər cəmiyyətlə birgə addımlamış, formalaşmış, bəşəriyyətin yaddaşına çevrilmişdir. Məhz cəmiyyət maddiləşmiş bu yaddaş (kitab) vasitəsi ilə bəşəriyyətin yaratmış olduğu bilikləri nəsildən-nəsilə ötürməyə nail olmuşdur. Bu da kitabın müxtəlif informasiyaları, biliyi, elmi dünya görüşünü, ictimai-siyasi və tarixi problemləri və s. özündə ifadə etməsi ilə əlaqədardır. Kitab cəmiyyətin maddi və mənəvi həyatını əks etdirməklə yanaşı, sosial həqiqətin, obyektiv və subyektiv hadisəsi kimi cəmiyyət elminə, iqtisadiyyata, siyasətə, mədəniyyətə, əxlaqa, tərbiyə və təhsil sisteminə ciddi təsir göstərmiş, bəşər

mədəniyyətinin təşəkkül və formalaşmasında yaxından iştirak etmişdir.

Cəmiyyətin inkişafında, onun təkmilləşməsində mühüm rol oynayan mədəniyyət bəşəriyyətin yaratmış olduğu ən böyük möcüzədir. Bəşəriyyətin zəkası, biliyi və tarixən yaradılmış təcrübəsi öz ifadəsini mədəniyyətdə tapır. Böyük alman filosofu Hegelin dediyi kimi xalqların müdrikliyini öyrənməyin yeganə açarı mədəniyyətin əlindədir.[1] Böyük filosofun bu qiymətli kəlamı mədəniyyətin bəşəriyyətin əsası olduğunu təsdiq edir.

Beləliklə, mədəniyyət - bəşəriyyətin ictimai tarixi inkişaf prosesində yaratmış olduğu maddi və mənəvi sərvətlərin məcmusudur. Mədəniyyət, həmçinin bu sərvətlərin yaradılmasında, onlardan istifadə edilməsində, qorunub saxlanmasında və gələcək nəsillərə çatdırılmasında yaxından iştirak edir.

Mədəniyyət cəmiyyətin tarixi inkişaf prosesində əldə etdiyi maddi və mənəvi sərvətlərin məcmusudur, həmçinin onların yaradılması qabiliyyəti və bəşəriyyətin tərəqqisi üçün onlardan istifadə etmək, qoruyub saxlamaq və onları nəsildən-nəslə ötürmək bacarığıdır.

Özündə ümumbəşəri sərvətləri cəmləşdirən mədəniyyət bəşər tarixinin çox erkən dövrlərində meydana gəlmişdir. Meydana gəlib formalaşdığı ilk gündən mədəniyyət sosial hadisə kimi insanların həyat və fəaliyyəti ilə sıx bağlı olmuş, insanın əli və əqli ilə yaratdığı bütün nailiyyətləri ümumiləşdirmiş, qoruyub saxlamış, nəsildən-nəslə ötürülməsində yaxından iştirak etmişdir.

Kitabxanalar cəmiyyətin yaratmış olduğu ilk təsisatlardan biri kimi həmişə bəşəriyyətin ruhi-mənəvi inkişafına kömək edən cəmiyyət qanunauyğunluqlarının formalaşmasında yaxından iştirak edən mədəniyyətin bəşər yaddaşını qoruyub saxlayan, zaman keçdikcə cəmiyyətin özünün hərtərəfli inkişafına yardımçı olan bir institut səviyyəsinə yüksəlmişdir. Yüksək mədəniyyətə malik olan şəxsiyyətlər ictimai mühitin formalaşmasına insanların yaşayış tərzinin əhəmiyyətli dərəcədə dəyişməsinə və yaxşılaşmasına müsbət təsir göstərə bilər.[2]

Kitab bəşəriyyətin yaratmış olduğu fikir və ideyaların, nəzəriyyələrin, konsepsiyaların və elmi kəşflərin uzun bir tarixi müddət üçün insanlara çatdırmağın əsas vasitəsi olmuşdur. Deməli, milli hesab edilən kitab məhsulu, informasiya daşıyıcısı olaraq həm də bəşəridir.

Bir sıra müasir sosioloqlar hesab edir ki, milli olan həm də elmidir. Beləki, milli dəyərlər tədqiqat obyektinə çevrilir, elmi əsaslarla öyrənilərək qorunub saxlanılır və mütəmadi olaraq zənginləşir və yeni məzmun daşımağa başlayır. Milli elmi irsin toplanması, qorunub saxlanılması və təbliği sahəsində belə bir konsepsiya real təcrübə tərəfindən də sübut olunur. Kitabxanalar bu təcrübənin önündə gedən müəssisələrdir. Milli irsi öyrənmək, toplamaq, sistemləşdirmək, təbliğ etmək, məsafəyə və zamana ötürmək və mühafizə

[1]Xələfov A.A.Kitabxana və cəmiyyət. Bakı, 2011
[2]Xələfov A.A.Kitabxana və cəmiyyət. B.,s. 19.

etmək kimi mühüm vəzifələr kitabxanalar qarşısında duran ən vacib işlərdir.

Bu problemləri müxtəlif ölkələrdə müxtəlif yollarla həll edirlər. Məsələn, 1944-cü ildə Polşada yaradılmış Mədəniyyət Nazirliyi 2005-ci ildə Polşanın Mədəniyyət və Milli İrs Nazirliyi adlandırıldı və milli irsin öyrənilməsi, toplanması və mühafizəsi məsələləri qarşıya qoyuldu.[3] Eləcə də Rumıniyada da bu problemlərin öyrənilməsi və həyata keçirilməsi Rumıniya mədəniyyət və milli irs nazirliyinin üzərindədir.

Rusiya Federasiyasında 1992-ci ildə görkəmli kulturoloq alim D.S.Lixaçov adına Mədəni və Təbii İrs üzrə Elmi-Tədqiqat İnstitutu yaradıldı. Qısa adı "İrs institutu" olan bu müəssisə YUNESKO-nun "Dünya mədəni və təbii irsinin qorunması" konvensiyası əsasında yaradıldı və mədəni, təbii irsin bütün müxtəlifliyi ilə qarşıya çıxan problemlərin həlli ilə məşğul olmağa başladı.[4]

İrs, milli irs, milli mədəni irs necə adlandırılmasından asılı olmayaraq milli-elmi irsin tərkib hissəsidir, elmi əsaslarla öyrənilir, qorunur və təbliğ olunur. Qarşıya çıxan başlıca sual irsin müəyyənləşdirmə meyarı, onun milliliyi və dəyərlər sistemində rolunun müəyyənləşdirilməsidir. Qlobal informasiya məkanında bu istiqamətdə bir mənalı konsepsiya mövcud deyil. Müəyyənləşdirmə və qiymətləndirmə sahəsində formalaşmış bir dünya təcrübəsinin olmadığından müxtəlif ölkələrdə müxtəlif forma və metodlar tətbiq olunur.

2009-cu ildə İsrail hökuməti Frans Kafkanın əlyazmalarını İsrailin milli-mədəni irsi kimi tanıyıb.[5] Qeyd edək ki, 1883-cü ildə Praqa şəhərində anadan olmuş və bütün əsərlərini alman dilində yazmış[6] dünya şöhrətli yazıçı 1924-cü ildə vərəm xəstəliyindən ölür. O zaman İsrail dövləti yox idi. Buna baxmayaraq Frans Kafkanın əlyazmalarını milli irs olaraq elan edirlər. Lakin dünya elmi fikrində hələ də bir sıra yazılarda Nizami Gəncəvinin milli mənsubiyyəti haqqında müzakirələr aparılır. Eləcə də bir çox mənbələrdə, xüsusilə də rusdilli mənbələrdə Xaqani Şirvani hələ də görkəmli fars şairi və ya iran şairi kimi təqdim olunur.[7]

Milli elmi irsə müxtəlif yanaşmalar kontekstində müəyyən edilir ki, hər bir ölkə bu problemin həlli baxımından müstəqil strategiya müəyyənləşdirir. Bir çox hallarda bu məsələ dövlət və milli siyasətin çərçivəsində özünü ifadə edir.

"Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiyanın" 6.1.8. bəndinə uyğun olaraq[8]

---

[3]https://ru.wikipedia.org/wiki/
[4]https://ru.wikipedia.org/wiki/
[5]http://www.azadliq.org/a/27912304.html
[6]https://tr.wikipedia.org/wiki/Franz_Kafka
[7]Хакани Ширвани.Дворцы Мадаины.(Перевод с фарси М.Синелникова) М.:Наталис, 2004. 544 с.
[8]http://president.az/articles/11312

fəaliyyətimizi qurmaq ən düzgün konsepsiya hesab edilə bilər. "Milli kontentin inkişaf etdirilməsi" məqsədi ilə prioritet istiqamətlərin müəyyənləşməsi, informasiya resurslarının toplanması, emalı, mühafizəsi, təbliği və qorunması istiqamətində sistemli fəaliyyətimizi həyata keçiririk. Milli kontentin inkişafı bir tərəfdən Azərbaycan dilli məlumat kütləsinin artmasını, digər tərəfdən Azərbaycan haqqında məlumat kütləsinin həm kəmiyyət, həm də keyfiyyət artımını nəzərdə tutur.

Azərbaycanda milli-elmi irsin öyrənilməsi, toplanması, mühafizəsi və təbliği istiqamətində "Milli Strategiya"ya əsaslanaraq konseptual "yol xəritəsi" müəyyənləşdirdik.

- Azərbaycan alimlərinin cari və retrospektiv toplu biobiblioqrafik resursunun yaradılması.

Bu resurs ilk dəfə olaraq Azərbaycanda elmi fikir sahibi olmuş şəxslərin bitkin bir mənzərəsini yaratmağa imkan verəcək. Başqa sözlə, milli elmin kamil bir "xəritəsi" yaradılacaq. Hələ yüz il əvvəl görkəmli Azərbaycan mütəfəkkiri M.Tərbiyyət "Azərbaycan alimləri"[9] adlı kitabında xeyli məlumat toplamış, qədim və orta əsr alimlərimizin adını əbədiləşdirmişdi. Lakin nə o zaman, nə də Sovet dövründə ideoloji problemlər ucbatından tam və bitkin mənzərənin yaradılması mümkün olmamışdır.

- Azərbaycanın milli-mədəni dəyərlər sistemində elmi informasiya massivlərinin yaradılması.

Milli və dini tolerantlıq, multikulturializm, hüquqi cəmiyyət, demokratik dəyərlər və bir çox ictimai-siyasi həyatımızı əhatə edən mövzuların müəyyənləşdirilməsi və resurs bazalarının yaradılması, bu istiqamətdə fəaliyyət göstərən Azərbaycan alim və mütəxəssislərinin ölkədaxili və xaricdə dərc olunmuş əsərlərini müəyyənləşdirmək və təbliğ etmək. Bu istiqamətdə Milli Kitabxana və Prezident Kitabxanası ilə yaxından əməkdaşlıq etmək və fəaliyyətin əlaqələndirilməsini nəzərdə tuturuq.

- Azərbaycanın elmi nailiyyətlərini özündə əks etdirən informasiya massivlərinin yaradılması.

Azərbaycan Milli Elmlər Akademiyasının yarandığı gündən başlayaraq Azərbaycan alimlərinin yaratmış olduğu elmi fikir və məhsulların çox böyük kütləsi kitabxanamızda toplanmışdır. Azərbaycanda dissertasiyalar, elmi monoqrafiyalar və alimlərin fərdi biblioqrafik göstəriciləri imkan verir ki, azərbaycan elmi fikrinin mükəmməl bir "xəritəsini" yaradaq. Bu istiqamətdə də hazırlıq işləri aparılır.

- Xaricdə yaşayan və yaradan azərbaycan alimlərinin biobiblioqrafik resurslarının hazırlanması.

Etiraf edək ki, Azərbaycan kiçik dövlətdir. Yüksək elmi təhsil almış gənclərimiz bir çox hallarda dünyanın qabaqcıl elmi mərkəzlərinə dəvətlər alır, dünya elmi inkişafında yeni və maraqlı nəticələr əldə edirlər. Bu alimlər nəinki

[9]Tərbiyyət M. Daneşməndane Azərbaycan. Bakı, Yazıçı, 1979. 390 s.

Azərbaycan elmi irsinin təmsilçiləridir, eləcə də xalqımızın iftixar mənbəyidir. Bu alimləri üzə çıxarmaq, öyrənmək və Azərbaycan ictimaiyyətinə tanıtmaq qarşıda duran vəzifələrimizdəndir.

Ulu öndər Heydər Əliyevin bu barədə dediyi fikirlər də düzgün yolda olduğumuzu göstərir: "Öz mədəni irsini qoruyub saxlaya bilməyən xalq nəyə qadir olduğunu heç vaxt sübut edə bilməz."[10]

Hal-hazırda Azərbaycanda milli irsin öyrənilməsi və təbliği sahəsində bir çox mötəbər qurumlar fəaliyyət göstərir. Heydər Əliyev fondunun Azərbaycan xalçaları və Azərbaycan muğamı sahəsində gördüyü işlər misilsizdir. Respublikanın Elmlər Akademiyası sistemində, Azərbaycan Milli Kitabxanasında, Azərbaycan Prezidenti Kitabxanasında da milli irsin öyrənilməsi, toplanması və təbliği sahəsində xeyli işlər görülməkdədir. Milli xarakterli informasiya resurslarının toplanması, təbliği və mühafizəsi istiqamətində başlıca mərkəz funksiyası AMEA Mərkəzi Elmi Kitabxanasının üzərinə düşür. Məhz bu baxımdan əməkdaşlıq və fəaliyyətin koordinasiyası sahəsində səylərimizi artırmaq nəzərdə tutulur.

Müasir kitabxana-informasiya fəaliyyəti qarşıya qoyduğumuz vəzifələrin layiqincə həyata keçirilməsi baxımından geniş imkanlar yaradır. AMEA Mərkəzi Elmi Kitabxanası ənənəvi kitabxana texnologiyası ilə yanaşı, müasir texnologiyaların öyrənilməsi və tətbiği ilə mütəmadi məşğul olur. Virtual məkanda, sosial şəbəkələrdə Azərbaycan elmi irsinin təbliği sahəsində xüsusi layihələr həyata keçirir. Sosial şəbəkələr böyük informasiya məkanı təşkil etməkdədir. Bu şəbəkələrin sürəti, böyük informasiya tutumu, operativliyi və şəbəkə xarakteri imkan verir ki, informasiya siyasətini daha geniş kütlələrə çatdıraq. Eləcə də virtual məkanda mötəbər informasiya kütləsinin artması baxımından, Azərbaycan dilli kontingentin genişlənməsi baxımından əhəmiyyətlidir.

**Ədəbiyyat**


1. Heydər Əliyevin böyük dirijor və bəstəkar Niyazinin ev muzeyinin təntənəli açılışındakı çıxışından. 18 sentyabr 1994-cü il.
2. Xələfov A.A. Kitabxana və cəmiyyət. Bakı, Azərnəşr. – 2011. - 360 s.
3. Kazımi P.F. İnformasiya mühəndisliyi. Bakı, BDU. - 2012. - 320 s.
4. Tərbiyyət M. Daneşməndane Azərbaycan, Bakı. – Yazıçı. - 1979. - 390 s.
5. Хакани Ширвани. Дворцы Мадаины. (Перевод с фарси М.Синелникова) М.:Наталис, 2004. - 544 с.
6. https://ru.wikipedia.org/wiki/
7. http://www.azadliq.org/a/27912304.html
8. https://tr.wikipedia.org/wiki/Franz_Kafka
9. http://president.az/articles/11312


[10] Heydər Əliyevin böyük dirijor və bəstəkar Niyazinin ev muzeyinin təntənəli açılışındakı çıxışından. 18 sentyabr 1994-cü il.

# İNFORMASİYA ƏSRİNDƏ İNNOVATİV BİBLİOQRAFİYA XİDMƏTLƏRİ

***Namiyə Nəbiyeva***
*BDU, Biblioqrafiyaşünaslıq kafedrası, dissertant*
*nebiyeva.namiye@mail.ru*

***Инновационные библиографические услуги в век информации***
***Резюме:*** *Влияние и обновление технологий на библиографической деятельность является непрерывным процессом. Основные технологические изменения произошедшие в библиографической деятельности начались с наступлением века информации. Этот факт глубоко затрагивает библиографические процессы с быстрыми техническими инновациями. Основной целью данной работы является продемонстрировать историю развития информационного века, теоретические и методологические аспекты электронной библиографической деятельности. В работе также приводится краткий обзор различных онлайновых библиографических ресурсов и услуг, которые доступны в настоящее время в Интернете.*
***İnnovative bibliographic services in the information age***
***Abstract:*** *The impact and speed of technology on bibliographic activity is ongoing process. Major technological developments occurred in bibliographic activity have brought with the information age. The fact which is called change deeply affects bibliographic processes with fas technical* innovations. *The principal objective of this paper is to demonstrate the development history of information age,theoretical and methodological aspects of electronic bibliographical activity. The paper also provides a brief overview of the various online bibliographic resources andservices currently available on the Web.*

***Açar sözlər:*** *informasiya əsri, texnologiya, elektron biblioqrafik fəaliyyət, elektron biblioqrafik məhsul, elektron biblioqrafik xidmət*
***Ключевые слова:*** *информационный век, технология, электронная библиографическая деятельност, электронная библиографическая продукт, электронного библиографического обслуживания*
***Keywords:*** *information age, technology, electronic bibliographic activity, electronic bibliographic product, electronic bibliographic service.*

## Giriş

XX əsrin II yarısından informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı informasiya əsri, informasiya cəmiyyəti anlayışlarının meydana gəlməsinə səbəb olmuşdur. 1970-ci illərdə internetdən istifadənin genişlənməsi və 1995-ci ildən etibarən tamamilə müstəqilləşməsindən sonra informasiya əsri məfhumu lüğətlərdə özünə yer qazanmışdır.

Sosial həyatın müxtəlif sahələrində - elmdə, incəsənətdə, siyasətdə, iqtisadiyyatda, hətta məişətdə informasiyanın əhəmiyyəti tarixən böyük

olmuşdur. İnformasiyanın ötürülməsində ən qədim dövrlərdə şifahi xalq ədəbiyyatının, sonralar isə kitab və kitabxanaların müstəsna rolu olmuşdur. Son dövrlərdə isə kommunikasiya və kooperasiyanı son dərəcə asanlaşdıran texnologiyaların inkişafı ilə informasiya əsrinə qədəm qoyulmuşdur. Kommunikasiya sistemlərində meydana gələn böyük texnoloji yeniliklər özü ilə bərabər informasiya əsrini gətirmişdir.

"Kompüter əsri", "rəqəmsal əsr" də adlandırılan informasiya əsri bəşəriyyət tarixinin, xüsusilə iqtisadiyyatın informasiya və texnologiyaya əsaslanan dövrüdür. İnformasiya cəmiyyəti informasiya partlayışı nəticəsində əsas istehsal faktoru və məhsulun informasiya olduğu, informasiyanın işlənməsində və saxlanmasında kompüter və kommunikasiya texnologiyalarını əsas götürən bir cəmiyyət quruluşudur. İnformasiya və kommunikasiya texnologiyalarının intensiv inkişafı bəşəriyyət tarixindəki ən əhəmiyyətli hadisələrdəndir. Məşhur nəzəriyyəçi, fizik və riyaziyyatçı Friman Dayson "Texnologiya Allahın hədiyyəsidir. Həyat hədiyyəsindən sonra, bəlkə də, Allahın ən möhtəşəm hədiyyəsidir. O, sivilizasiya, incəsənət və elmin anasıdır" sözləri ilə texnologiyanın önəmini vurğulamışdır. Texnologiya istehsal texnikalarını, kompüterləri, informasiya texnologiyalarını ehtiva edən çox ölçülü anlayışdır.

Tarixi 1950-ci ildən kompüterlərin inkişafı ilə başlayan internetdən 1970-ci ildən sonra istifadə dairəsinin genişlənməsi, on il sonra fərdi kompüterlərin meydana gəlməsi informasiya və ya rəqəmsal inqilabın davamı oldu. İnformasiyanın ötürülməsi və emalını sürətləndirən fiber optik kabellərlə sürətli mikroprosessorların inkişafı sürətləndi. Əvvəllər bir çox şirkətlər tərəfindən məhsul və xidmətlərin təbliği üçün istifadə edilən "world wide web" əmtəə və informasiyanın interaktiv mübadilə vasitəsinə çevrildi. Bu zaman iş və şəxsi əlaqələrin təməl platforması kimi informasiyanın demək olar ki, ani zaman kəsiyində ötürülməsinə imkan verən "elektron mail"-dən istifadənin əhatə dairəsi genişləndi. İnformasiyanın rəqəmsallaşdırılması səhiyyə, musiqi sənayesi, böyük televiziya və kabel şəbəkələri, o cümlədən, nəşriyyat və kitabxana-informasiya müəssisələri kimi ənənəvi qurumlara dərin təsir göstərdi.

**Məsələnin qoyuluşu**

İnformasiya cəmiyyəti ənənəvi, rəqəmsal və elektron kitabxana-informasiya xidməti təqdim edir. Bu cəmiyyətdə kitabxanaların öhdəlikləri inkişaf edən texnologiya ilə dəyişikliyə uğrayır. Dövrümüzün kitabxana-informasiya müəssisələri daha qabaqcıl iş üsullarını tətbiq etməklə öz funksiyalarını yerinə yetirməyə çalışırlar. Bu da yeni informasiya və texnologiyalardan vaxtında və lazımınca xəbərdar olmaqla bağlıdır. İndi ölkələr arasındakı mədəni-iqtisadi sərhədlər aşılmaqda, dövlətlərarası əlaqələr genişlənməkdə, informasiya və texnologiya transferi genişlənməkdədir. Buna görə də kitabxanaların ən yeni informasiyanı, ən son texnologiyaları tətbiq etmədən nəinki müvəffəqiyyət qazanması, öz mövcudluğunu qoruması belə

çətinləşir. Uğura nail olmaq üçün müasir texnologiyaları daim izləmək və tətbiq etmək vacib şərtdir. Ən azı ona görə ki yaşadığımız dövr sərt həqiqətləri və tələbləri olan əsrdir.

İndi dünyanın inkişaf etməkdə olan ölkələri informasiya cəmiyyətinin tələblərini yerinə yetirmək üçün özlərinin "informasiya cəmiyyəti strategiyalarını" formalaşdırmışdır. Ölkəmizdə də Respublika Prezidentinin 02 aprel 2014-cü il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" təsdiq edilmiş və strategiyada bu sahənin inkişafı üzrə 2020-ci ilə kimi konkret məqsəd və vəzifələr müəyyən edilmişdir. (9)

İnformasiya əsri cəmiyyətdə və fərdlərdə bir sıra dəyişikliklərə yol açmışdır. Bu dövrdə fərdlərin inkişaf etməsi, mövcud informasiyalardan, yüksək texnologiyalardan vaxtında xəbərdar olması lazımdır. İnformasiya əsrinin ən mühüm xüsusiyyəti informasiyanı təqdim edən mərkəzlərlə texnologiyanın əhəmiyyətli dərəcədə əlaqələndirilməsi, əl üsulu ilə həyata keçirilən xidmət mexanizmlərinin avtomatikə keçirilməsidir. Artıq kompüter və internet şəbəkəsi vasitəsilə reallaşdırılan elektron xidmətlər istifadəçilərin istədiyi hər bilgiyi kitabxanaya belə getmədən evdə, ofisdə, yolda əldə etməsinə imkan yaradır.

Elektron xidmət ümumi kompüter-onlayn resurslarını şəbəkə vasitəsilə əldə etməyi təmin edən modeldir. Elektron xidmətlər informasiya resurslarına vahid nöqtədən əlyetərlik imkanı verən yeni növ xidmətlərdir. Bu xidmətlərin xüsusiyyətləri sırasına istifadəçilərin onlayn resurslarla sərbəst işləmək kompetensiyasının olması, resursa müraciətin istənilən məkanda, istənilən vaxtda və istənilən qurğu (mobil kliyentlər, portativ qurğular və s.) vasitəsilə mümkünlüyüdür.

**Məsələnin izahı**

Şəbəkə informasiya mənbələri və xidmətləri gündəlik həyatın ayrılmaz hissəsinə çevrilmişdir. İndi intranet, ekstranet və internet vasitəsilə biblioqrafik, tam mətnli və multimedia verilənlər bazalarından istifadə etmək mümkündür. İnformasiya və kommunikasiya texnologiyaları elektron bank işi, elektron hökumət, elektron təhsil, elektron əyləncə və s. kimi onlayn xidmətlər təqdim edir. Lakin bəzi qabaqcıl informasiya emalı və şəbəkə imkanlarının olmasına baxmayaraq informasiyanın axtarışı, tapılması, toplanması, təşkili, emalı və istifadəsi ilə bağlı çətinliklər vardır. Milyonlarla elektron mənbələr içərisindən lazımi informasiyanı tapmaq probleminin ən optimal həll üsularından biri və demək olar ki, başlıcası elektron biblioqrafiyadır.

XX əsrin sonu biblioqrafiya sahəsində yeni informasiya-kommunikasiya texnologiyaları və rabitə vasitələri əsasında elektron biblioqrafik mədəniyyətin təkamülü mərhələsi kimi xarakterizə olunur. İnformasiya münasibətlərinin ənənəvi formadan elektron formaya keçidi biblioqrafik məhsullara olan tələbatı daha da artırmışdır. Yeni durum qlobal informasiya mühitində biblioqrafik informasiyanın elektron formada təqdimatı əsasında böyük

informasiya tələbatlarının tam və operativ (zaman və məkan məhdudiyyəti olmadan) ödənilməsini tələb edən informasiya istifadəçisi profilini formalaşdırmışdır.

Bu baxımdan ənənəvi biblioqrafiyalaşdırma prosesləri və informasiya istifadəçilərinə xidmətin yenidən nəzərdən keçirilməsi zərurəti yaranır.

Biblioqrafik proseslərin kompüterləşdirilməsinin ən mühüm problemlərindən biri innovativ üsullar və texnologiyaların praktikada tətbiqi, o cümlədən mütəxəssislərə və istifadəçilərə müasir biblioqrafik mühitdə işləmək bacarıqlarının aşılanmasıdır.

1990-cı ildən etibarən kitabxanalar soraq-biblioqrafiya xidməti və kitabxana fəaliyətinin bir çox sahələrinin transformasiyasına yol açan informasiya texnologiyalarını tətbiq etməyə başladılar. Kitabxanalarda daxili və xarici elektron mühitin formalaşdırılması, informasiyanın elektron formada saxlanması, maşınla oxunan massivlərdə məlumatın axtarışı, telekommunikasiya kanallarından istifadə etməkə verilənlərin ötürülməsi biblioqrafik resursların tərkibinə və xidmət formalarına da öz təsirini göstərmişdir.

Peşəkar fəaliyyət sahəsi kimi biblioqrafiyanın öz xüsusi terminologiya sistemi var. Biblioqrafiya sahəsinə kompüterləşdirmənin tətbiqi ilə elektron mühitdə biblioqrafiyanın fəaliyyət göstərməsi üçün zəruri anlayışlar meydana gəlmişdir. Bu anlayışlara "elektron biblioqrafiya", "elektron biblioqrafik fəaliyyət", "elektron biblioqrafik informasiya", "elektron resurs", "verilənlər bazası", "onlayn axtarış" və s. aiddir.

Elektron biblioqrafiyanın potensialı çox böyükdür. O, texniki təchizatı olan istənilən yerdə, hər hansı bir zamanda, hər hansı bir biblioqrafik məlumatı əldə etməyi təmin edir. Elektron biblioqrafiyanın xarakteristik xüsusiyyəti onun qlobal təbiətə malik olmasıdır. O, qloballaşma, informasiyalaşdırma və kompüterləşdirilmə ilə eyni zamanda yaranan prosesdir və onların gələcək inkişaf vasitəsi deməkdir.

Elektron biblioqrafik fəaliyyətin strukturu ənənəvi biblioqrafik fəaliyyətin strukturu ilə eynilik təşkil edir. Buraya obyekt, subyekt, məqsəd, proses, vasitə və nəticə kimi komponentlər daxildir. Bu komponentlərin hər birinin fərqli və spesifik xüsusiyyətləri vardır.

Elektron biblioqrafik fəaliyyətin subyekti ənənəvi biblioqrafik fəaliyyətdə olduğu kimi biblioqraf və biblioqrafiya kollektivləridir. Elektron biblioqrafik fəaliyyətin subyektləri qarşısında professionallıq, kompüter bilik və bacarığı, informasiya mədəniyyəti kimi tələblər qoyulur.

Elektron biblioqrafik fəaliyyətin obyekti isə elektron mühitdə fəaliyyət göstərən sənəd-kommunikasiyaları sistemi, ənənəvi və elektron formada olan sənədlər və elektron informasiya istehlakçılarıdır.

Elektron biblioqrafik fəaliyyətin strukturunun mühüm komponenti nəticədir. Elektron biblioqrafik fəaliyyətin xüsusi nəticələri elektron biblioqrafiyalaşdırma prosesi və elektron biblioqrafik xidmətin nəticəsidir.

Rəqəmsal texnologiyalardan istifadə biblioqrafik fəaliyyət prosesində bir sıra dəyişikliklərə səbəb olmuşdur. Elektron biblioqafiya iki əsas proseslə xarakterizə olunur.

1. Elektron biblioqrafiyalaşdırma
2. Elektron biblioqrafik xidmət

Bu mənada elektron biblioqrafiyalaşdırmanın bütün mərhələləri, yəni biblioqrafik təsvir, annotasiyalaşdırma, referatlaşdırma, sənədlərin sistemləşdirilməsi və indeksləşdirilməsi və s. yeni məzmun keyfiyyətləri qazanır. Bu, informasiya texnologiyaları mühitində "onlayn" və ya "virtual" xidmət adlanan elektron biblioqrafik xidmətin hər bir mərhələsinə aiddir. (2, 8)

İnformasiyalaşmış cəmiyyətin reaktiv dəyişikliklərinin tələblərinə uyğun olaraq biblioqrafik resursun fikir və texnoloji cəhətdən daha təkmil forması olan biblioqrafik vəsaitlər yaradılır. Elektron biblioqrafiyalaşdırmanın nəticəsi olan elektron biblioqrafik məhsullar bir sıra növ və janr əlamətlərinə görə xarakterizə olunur: elektron kataloqlar, elektron kartotekalar və göstəricilər, virtual kitab sərgiləri, elektron bələdçilər, verilənlər bazası, elektron media kolleksiyası və s.

Elektron biblioqrafik xidmətin nəticəsi elektron biblioqrafik məlumatın istifadəçilərə çatdırılmasıdır. Hazırda veb saytlarla yanaşı, kitabxanalar sosial şəbəkələrdə səhifələr açır, özləri üçün bloqlar yaradır və oxuculara öz məhsullarını və xidmətlərini təqdim edirlər. Elektron biblioqrafik xidməti reallaşdırmağa imkan yaradan vasitələrə aşağıdakılar daxildir:

- Elektron kataloq;
- Elektron kartoteka;
- İnternet resursları (axtarış sistemləri, e-jurnallar, e-kitablar, e-soraq nəşrləri, virtual kitabxanalar, verilənlər bazaları);
- CD-ROM, DVD-ROM;
- Yerli verilənlər bazaları;
- Ödənişli biblioqrafik və tammətnli verilənlər bazaları

Elektron informasiya resursları ilə elektron biblioqrafik xidmət həyata keçirilir. Elektron poçt, internetdəki veb səhifələri, verilənlər bazaları, multimediya materialları, elektron kitablar, çap edilmiş əsərlərin elektron versiyaları və s. elektron resursların tərkib hissəsini təşkil edir. Bu elektron resursların onlayn (lokal və ya qlobal kompüter şəbəkələrində, o cümlədən internetdə yerləşdirilmiş) və oflayn (kompüter şəbəkələrində yerləşdirilməmiş) tipli növləri fərqləndirilir. Bir sıra kitabxanalarda sənədlərin elektron çatdırılması imkanından da istifadə edilir. Bunun üçün internet saytlar, elektron poçt (e-mail) xidmətindən istifadə olunur.

Elektron imkanlar informasiyanın əldə edilməsində zaman və məkan anlayışını ortadan qaldırır. Artıq ənənəvi soraq-biblioqrafiya xidmətləri elektron soraq-biblioqrafiya xidməti ilə əvəz edilmiş, müxtəlif sorğuların elektron

mühitdə ödənilməsi təmin olunmuşdur. Müasir kitabxanalar elektron biblioqrafik fəaliyyəti aşağıdakı şəkildə həyata keçirir.

- tammətnli elektron biblioqrafik informasiya resurslarını yaratmaq, mütəmadi olaraq yeniləmək;
- onlayn biblioqrafik sorğuları ödəmək və ədəbiyyatı virtual sifariş etmək, kitabxanada yaradılmış həm tammətnli, həm də biblioqrafik informasiya mənbələrinə girişi təmin etmək;
- soraq-biblioqrafik, biblioqrafik informasiya və sənədlərin elektron çatdırılması xidmətini həyata keçirmək;
- kitabxana-biblioqrafiya proseslərinin kompleks şəkildə avtomatlaşdırılmasına imkan verən kompüter şəbəkəsini qurmaq və təkmilləşdirmək.

Müasir biblioqrafik xidmət sahəsində ən mühüm problemlər elektron kataloqlar, onlayn verilənlər bazası, internet şəbəkə resursları vasitəsilə yaxın və uzaq məsafədəki istifadəçilərə xidmət göstərmək və s.-lə bağlıdır.

Elektron biblioqrafik informasiya resurlarının komponentlərinin kifayət qədər işlənməməsi hazırda bu resursların yaradılmasının təşkilati, texnoloji və struktur, maliyyə aspektlərini nəzərdən keçirmək problemini aktuallaşdırır.

**Nəticə**

Qloballaşma və inkişaf edən texnologiyalarla əlaqədar son illərdə artan rəqabət müəssisələrə fəaliyyət anlayışlarını yenidən nəzərdən keçirmələrini zəruri etmişdir. Hazırda kompüter və kommunikasiya texnologiyalarını tətbiq edən informasiya müəssisələri sahib olduqları informasiyadan daha məhsuldar istifadəni təşkil etməklə daha dinamik bir mühit formalaşdırırlar. Artıq sənaye cəmiyyətində olduğu kimi məhsul və xidmətlər deyil, yüksək texnologiyalar ilə informasiya yüklü məhsulları istehsal və təqdim edən müəssisələr qlobal rəqabət mühitində fəaliyyətini uğurla davam etdirə bilir.

Müasir texnoloji seçimlər daha mürəkkəbdir. Bəzi onlayn sistemləri mənimsəmək digərlərinə nisbətən daha çətindir. 1970-ci illərin sonunda onlayn axtarış sistemlərinin, 1980-ci illərin əvvəllərində isə CD-ROM verilənlər bazası və internetin təqdimatı ilə texnoloji yenilikləri və dəyişlikliyi qəbul edib yenidən təşkilatlanan kitabxanalar elekton biblioqrafik fəaliyyəti həyata keçirmək üçün ilk növbədə aşağıdakıları təmin etməlidir:

- əlaqədar infrastrukturun araşdırılması və analiz edilməsi;
- elektron biblioqrafik fəaliyyət sahəsində dünya təcrübəsinin öyrənilməsi;
- biblioqraf kadrlara texnoloji biliklərin aşılanması;
- elektron biblioqrafik xidmət sisteminin yaradılması və operativ xidmətin təşkil edilməsi;
- texnoloji yeniliklərə görə sistemin inkişaf etdirilməsi;

Ümumiyyətlə, mövcud sistemi dəyişdirmək yeni bir sistem yaratmaqdan daha çətindir. Bu problem kitabxanalar üçün də aktualdır. Ona görə də

məhsuldarlığı təmin etmək üçün ilk olaraq kadr potensialını formalaşdırmaq, sonra texnolgiyanı tətbiq etmək lazımdır. Çünki elektron xidmətlərin opreativliyi biblioqrafların xarici dil bilgisi, ümumi dünyagörüşü, kommunikasiya bilgisi və təcrübəsi, kompüter və informasiya mədəniyyəti ilə bağlı prosesdir. Bu baxımdan hər şeydən əvvəl gələcəyin kitabxanaçılarını dövrün tələblərinə uyğun hazırlamaq lazımdır.

**Ədəbiyyat**


1. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq. Dərs vəsaiti,- B.: Bakı Universiteti nəşriyyatı, 2001.-145 s.
2. Хомякова И.Г., Матенкова О.В. Электронная библиографическая деятельность: теоретико-методические аспекты изучения// Культура и образование. Москва, 2013, № 1, 8 с
3. Gary M. Pitkin, The impact of emerging technologies on reference service and bibliographic instruction. USA: Greenwood publishing group Inc, 1995, 179 p
4. Samuel T. Huang, Modern library tecnology and reference services: The Haworth Press Inc.USA, 1993, 138 p
5. William A. Katz, New technologies and reference services.USA: Greenwood publishing group Inc, 2000, 145 p
6. books.google.com
7. dergiler.ankara.edu.tr
8. searchcio.techtarget.com
9. stat.gov.az
10. tr.wikipedia.org
11. vestnik-rzi.ru

# MƏRKƏZLƏŞDİRİLMİŞ KİTABXANA SİSTEMLƏRİNDƏ İNFORMASİYA-AXTARIŞ İŞİNİN TƏŞKİLİ

**_Ruhanə Qasımova_**
*Kitabxana resursları informasiya axtarış sistemləri kafedrasının magistrantı*

***Организация информационного-поисковой работы Централизовонной библиотечной система***
***Резюме:*** *Централизованная библиотечная система, быстрый рост информации и важность организации информационных запросов в формировании информационно-поисковых систем*
***Organization of Central Library Systems Information retrieval***
***Abstract:*** *Centralized library system, the rapid growth of information and the importance of the organization of information requests in the formation of information retrieval systems*

***Açar sözlər:*** *informasiya, məlumat-axtariş sistemi, sənədlərin axtarışı, informasiya sorğuları*
***Ключевые слова***: *информация, информационно-поисковая система, поиск документов, информационные запросы*
***Keywords:*** *information, information-search system, document search, information requests*

İnformasiyanın sürətli artımı, informasiya axının mürəkkəbləşməsi, differensasiyası və inteqrasiyası ilə əlaqədar olaraq onun operativ yığılması, işlənməsi, axtarışı və verilməsi problemləri yaranır. Digər tərəfdən, elm-texnika-istehsalat elementləri arasında informasiya əlaqəsi yaratmaq zərurəti meydana çıxır. Göstərilən obyektiv proseslər bir tərəfdən geniş sosioloji və psixoloji tədqiqatlar aparılmasını, məlumatın təhlilini və sintezini, digər tərəfdənsə müasir avtomatlaşdırma vasitələrinin informasiya fəaliyyətində geniş tətbiqini tələb edir. Bütün bunlar öz təcrübi həllini informasiya-axtarış sistemlərinin (İAS) yaradılmasında tapmışdır.

XX əsrin 70-80-illəri Azərbaycanın inkişafında dönüş mərhələsi, xalq təsərüfatının bütün sahələrində - elm, mədəniyyət, təhsil sistemində böyük nailiyyətlərin əldə edilməsi dövrü kimi qiymətləndirilə bilər. Məhz bu dövrdə respublikamızda mədəni quruculuq sahəsində həyata keçirilən əsaslı tədbirlər kitabxana işinin inkişafında müsbət təsir göstərmiş, kitabxana işinin maliyyələşdirilməsinə, maddi-texniki bazanın möhkəmləndirilməsinə diqqət artırılmışdır. İctimai həyatın müasir inkişaf səviyyəsi cəmiyyətin informasiya sisteminin, o cümlədən də kitabxanaların müasir informasiya fəaliyyətinin qarşısında da ciddi tələblər qoymuşdur.

Elm və texnikanın sürətli inkişafı və məlumat əlaqələrinin mürəkkəbləşməsi, məlumat axtarışı və xidməti sahəsində ciddi problemlər

doğurur. Elm və texniki tərəqqinin qanunauyğun inkişafi ilə əlaqədar olaraq sənəd axtarışına nisbətən məlumat axtarışı getdikcə üstünlük təşkil etməyə başlayır. İlkin Məlumat Axtarış Sistemləri kitabxana kataloqları və kartotekalardır. Kütləvi kitabxanaların mərkəzləşdirilməsi, bir sıra iri kitabxanalarda elmi tədqiqat işlərinin intensivləşdirilməsi, avtomatlaşma vasitələrinin tətbiqi, yeni informasiya xidmətləri metodlarının təcrübi istifadəsi və s. kitabxanaların elmi informasiya idarələri kimi inkişafına əhəmiyyətli təsir edən tədbirlərdəndir. Xüsusilə kitabxana işinin ərazi baxımından mərkəzləşdirilməsi onların sənəd fondlarının universallaşmasına, iri komplekslər formasında təşkilinə və kitabxana-biblioqrafiya xidmətinin real inkişafına zəmin yaratmışdır. Həmçinin bütün bunlar kitabxana-informasiya ehtiyatlarının vəhdəti və qarşılıqlı əlaqələrinin təmini üçün şərait yaratmışdır.

Ölkəmizdə kütləvi kitabxanalar şəbəkəsinin yaradılması, əsasən, XX əsrin 20-ci illərindən başlanmışdır. Respublikada dövlət kütləvi kitabxanalar şəbəkəsinin mərkəzləşdirilməsinə isə Sov. İKP Mərkəzi Komitəsinin 1974-cü ildə qəbul etdiyi "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunun artırılması haqqında" qərarına müvafiq həyata keçirilmişdir.

Bu qərardan dərhal sonra Azərbaycan KP Mərkəzi Komitəsi onu həyata keçirmək üçün "Azərbaycanda kitabxana işi haqqında" xüsusi qərar qəbul etdi. Qərarda kitabxana işinin mərkəzləşdirilməsinə hərtərəfli kömək etmək rayon partiya komitələrinə bir vəzifə kimi tapşırıldı. Rayon xalq deputatları sovetləri icraiyyə komitələrinə kitabxana işinin yenidən təkmilləşdirilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə kömək etmək, bina və kadrla təmin etmək həvalə edildi. Kitabxana işinə bilavasitə rəhbərlik edən Azərbaycan Mədəniyyət Nazirliyi respublikada kitabxana işinin mərkəzləşdirilməsinə həsr edilmiş geniş kollegiya keçirdi. Kollegiya respublikada kitabxana işinin mərkəzləşdirilməsinin proqramını, mərkəzləşdirmə planını və müddətini müəyyənləşdirən qərar qəbul etdi". Bu plana əsasən MKS-lər yaxın illər ərzində respublikanın hər bir inzibati ərazisində özündə dövlət kütləvi kitabxanalarını birləşdirən yeni tipli iriləşdirilmiş kitabxana komplekslərinin formalaşmasını nəzərdə tuturdu.

1 975-ci ilin fevral ayında SSRİ Mədəniyyət Nazirliyi "Kütləvi dövlət kitabxanalarının mərkəzləşdirilməsi haqqında əsasnamə" təsdiq etdi. Əsasnamədə MKS-lərin yaradılması və formalaşmasının təşkilatı və metodik məsələləri, onların idarə edilməsi prinsipləri şərh edilmişdi. Nəhayət, kitabxanaların mərkəzləşdirilməsi nəticəsində əhaliyə kitabxana xidməti xeyli demokratikləşdirilir, bütün oxucular yaşadığı ərazidən asılı olmayaraq kitabxana resurslarından eyni-bərabər istifadə etmək hüquqları qazanırdılar.

**MKS-lərdə informasiya işinin təşkili məsələləri.** Kütləvi kitabxanaların mərkəzləşdirilməsi, bir sıra iri kitabxanalarda elmi tədqiqat işlərinin intensivləşdirilməsi, avtomatlaşma vasitələrinin tətbiqi, yeni informasiya xidmətləri metodlarının təcrübi istifadəsi və s. kitabxanaların elmi

informasiya idarələri kimi inkişafına əhəmiyyətli təsir edən tədbirlərdəndir. Xüsusilə kitabxana işinin ərazi baxımından mərkəzləşdirilməsi onların sənəd fondlarının universallaşmasına, iri komplekslər formasında təşkilinə və kitabxana-biblioqrafiya xidmətinin real inkişafına zəmin yaratmışdır. Həmçinin bütün bunlar kitabxana-informasiya ehtiyatlarının vəhdəti və qarşılıqlı əlaqələrinin təmini üçün şərait yaratmışdır.

Mərkəzləşdirilmiş kitabxana sistemlərinin yaradılması Azərbaycanda əhaliyə kitabxana xidmətinin təşkilində yeni mütərəqqi iş üsullarının tətbiqi üçün geniş imkanlar açmış, kitabxanaların zəngin informasiya resurslarının əhalinin bütün təbəqələri tərəfindən səmərəli istifadə etməsinə müsbət təsir göstərmişdir. Həmçinin məlum faktdır ki, kitabxana fondlarının müxtəlif oxucu qrupları tərəfindən istifadə edilməsinin səmərəliliyi əsaslı dərəcədə bu fondları əks etdirən soraq-biblioqrafiya, soraq-axtarış aparatından, ilk növbədə isə MKS-in kataloq və kartoteka sisteminin vəziyyətindən asılıdır.

Respublikada dövlət kitabxanalarının mərkəzləşdirilməsi nəticəsində bu kitabxanalarda ədəbiyyatın kataloqlaşdırılması prosesi də mərkəzləşdirilmiş və MKS-in kataloq və fondlarının müasir elmi baxımdan yenidən işlənməsi məsələsi gündəmə gətirilmişdi. Bu işlə artıq MKS-lərin mərkəzi kitabxanaları məşğul olduğundan, onların funksiyası genişlənmiş və MKS-lərin mərkəzi kitabxanalarının əksəriyyətində əlifba (toplu) kataloqu, mərkəzi sistemli kataloq, dövri nəşrlərin əlifba kataloqu, sistemli diyarşünaslıq kataloqu, not və səs yazılarının kataloqu, diafilm və videofilm slaydlarının kataloqları, həmçinin rayon və şəhər mərkəzi kitabxanalarında əsas kataloqlarla yanaşı, köməkçi fondların da (abonement, qiraət salonu, soraq-informasiya fondu və s.) əlifba, sistemli kataloqları yaradılmışdır. Bunlardan başqa, MKS şəraitində mərkəzi kitabxanaların uşaq şöbələrində və ya filiallarında kiçik yaşlı oxucular üçün əlifba, sistemli, albom və digər kataloqlar da təşkil edilmişdir. Son zamanlar kitabxana işinə yeni kompüter kommunikasiya texnologiyalarının tətbiqi ilə əlaqədar olaraq MKS-lərdə də elektron kataloqların yaradılmasına başlanmışdır.

İAS-ların mühüm xarakterik cəhətlərindən biri məlumat axtarışının dolğunluq, dəqiqlik və uyğunluq əmsallarının təyin edilməsidir. Hazırda sahəvi, çoxsahəli və lokal İAS-ın 2 tipi mövcuddur: 1) sənəd İAS-ları, 2) faktoqrafik İAS. Sənəd İAS-larında informasiya vahidləri sənədin biblioqrafik elementləri, anlayış və terminlərdir. Bunlar İAS-lara daxil edilən sənədlərin axtarış əlamətləri adlanır. İAS-ların təşkil edilmə dərəcəsindən asılı olaraq sənədlərin axtarış əlamətləri arasında müxtəlif məntiqi və qrammatik əlaqələr yaradılır. Qrammatik əlaqələr mətndə anlayışların və terminlərin bir-biri ilə və ümumi məna daşıyan sözlərlə müxtəlif əlaqələridir. Faktoqrafik İAS-lar sənəd kütləsinin faktiki informasiyalarını, kimyəvi düsturları, riyazi və statistik nəticələri əks etdirən sistemlərdir.

**İnformasiya sorğularının təhlili.** Avtomatlaşdırılmış İAS-larda məlumat axtarışı tələbatçıların informasiya sorğuları əsasında aparılır.

Tələbatçıların informasiya sorğularının öyrənilməsi və təhlili, əsasən, iki mərhələyə bölünür: I mərhələdə tələbatçıların fərdi və qrup halda sosioloji xarakteristikası (yaşı, ixtisası, fəaliyyət sahəsi, vəzifəsi, informasiya tələbatı, sorğunun intensivlik dərəcəsi və s.) müəyyən edilir. Bu informasiyalar İAS-ın yaradılmasından əvvəl meydana çıxarılır və onların layihələndirilməsində təcrübi baza rolunu oynayır. II mərhələ İAS-ın istismarı prosesində icra edilir və informasiyanın konkret tələbatçı sorğularına əsasən verilməsi nəticələrini əks etdirir. İnformasiya sorğuları əksər hallarda təbii dildə ifadə edilir. Onlar axtarış prosesində avtomatik olaraq İAS-ın informasiya axtarışı dilinə çevrilir. Çevrilmə prosesi İAS-ın deskriptor lüğəti və həmin lüğət üçün qəbul edilmiş kod sistemləri, işarələr və onlar arasındakı əlaqələr əsasında icra edilir. Deskriptor lüğətinə uyğun olaraq işlənmiş işarələr, simvollar, əlaqə və münasibətlər müəyyən İAS-ın informasiya axtarışı dilini təşkil edir. Bu dil vasitəsilə tələbatçı məlumat axtarışı prosesində İAS-la əlaqəyə girir.

MKS-lərdə informasiya işinin təşkili məsələlərindən bəhs edən əksər tədqiqatçılar belə bir fikir irəli sürürdülər ki, MKS-lərin informasiya xidməti elmin və istehsalatın müxtəlif sahələrində çalışan mütəxəssislərə elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin operativ və istiqamətli təbliği ilə məşğul olmalıdır. Əlbəttə, bu fikir doğrudur, lakin yarımçıqdır. Belə ki, MKS fondları universal və çoxsahəli fondlardır. Onlar vasitəsilə nəinki mütəxəssislərə, həm də idarəetmə orqanlarının işçilərinə, qulluqçulara da informasiya xidməti göstərmək olar. Digər tərəfdən, müxtəlif kateqoriyalı mütəxəssislər təkcə ixtisas ədəbiyyatı ilə maraqlanmır, siyasi, estetik, bədii, fəlsəfi və s. ədəbiyyatdan da istifadə edirlər. Belə geniş profilli informasiya tələbatını isə MKS-lərin çoxsahəli fondları vasitəsilə də ödəmək olar.

**Ədəbiyyat**


1. Xələfov A.A. Azərbaycanda dövlət kütləvi kitabxanalar şəbəkəsinin inkişafı (1970-1990).- B.- Bakı Universiteti nəşriyyatı.- 2007.- 160 s.
2. Xələfov A.A. Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsinin bəzi yekunları və təkmilləşdirilməsi məsələləri/ Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsi məsələləri: tematik məcmuə. Bakı: Bakı Universiteti nəşriyyatı, 1986, s. 12-15.
3. Kütləvi kitabxanalar şəbəkəsinin mərkəzləşdirilməsi (Təlimati-metodik materiallar)/ Tərtib edənlər M.H.Həsənov, N.V.Şorkina. Bakı: M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası, 1977, 118 s.

# ŞİRVAN ŞƏHƏR MƏRKƏZLƏŞDİRİLMİŞ KİTABXANA SİSTEMİNDƏ BİBLİOQRAFİK FƏALİYYƏTİN MÜASİR VƏZİYYƏTİ

***Vəzufə Xudiyeva***
*Bakı, BDU, Kitabxanaçılıq və İnformasiya fakültəsi,*
*Bibloqrafiyaşünaslıq kafedrası, Baş laborant*
*vazufe@mail.ru*

***Современного состояния библиографической деятельность централизованная библиотечная система города Ширван***
***Резюме:*** *В статье говориться о развитии Централизированной Библиотечной Системы (ЦБС) регионе Азербайджанской Республики – в районе Ширван, проявление заботы государства в этой области, о роли обеспечения в повышение интеллектуально-культурного развития населения*
***Centralized Library System of the city of Shirvan modern state of bibliographic***
***Abstract:*** *This Article deals with development of Centralized Library Systems (CLS) region - Shirvan region of Azerbaijan Republic, consern for this field provided by our government and the role of library - information supply in increasing intellectual and cultural level of the population.*

***Açar sözlər:*** *Mərkəzləşdirilmiş Kitabxana Sistemi, biblioqrafik fəaliyyət, soraq-biblioqrafiya aparatı, sosial institut, elektron biblioqrafik fəaliyyət*
***Ключевые слова:*** *Централизованная библиотечная система, библиографической работы, справочники Библиография Офис социального института, электронная библиографическая работа*
***Keywords:*** *Centralized Library System, bibliographic activity, Reference Bibliographical aids, social institution, electronic bibliographic activity*

## Giriş

Biblioqrafik fəaliyyətin təşkilində, inkişafında, informasiya mənbələrinin yaradılmasında, informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq müasir texnologiyanın tətbiqi istiqamətlərini nizama salan mərkəzlərdən biri də kitabxanalardır. Təsadüfi deyildir ki, "Azərbaycan kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamında (20 aprel 2007-ci il) da aparıcı kitabxanaların qarşısında cəmiyyətin informasiya təminatının həyata keçirilməsi, müasir texnologiyaların tətbiqi və Azərbaycanda kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramının hazırlanması məsələləri ön plana çəkilmişdir.(1)

Cəmiyyətimizin həyatının bütün sahələrində kitabxana bir informasiya ocağı kimi mühüm rol oynayır. Ölkənin sosial-iqtisadi, mədəni inkişafında kitabxanaların, onların biblioqrafik fəaliyyətlərinin əhəmiyyəti getdikcə artır. İndi ölkəmizdə böyüklüyündən, kiçikliyindən asılı olmayaraq elə kitabxana

yoxdur ki, orada biblioqrafik iş aparılmasın və ya biblioqrafiyadan istifadə olunmasın. Kitabxanalar sözün əsl mənasında biblioqrafik fəaliyyətin təşkilati mərkəzlərindəndir, həm də biblioqrafik informasiyanın yayılması kanallarından biridir.

Azərbaycan Respublikasında kitabxana-biblioqrafiya fəaliyyətinin yaxşılaşdırılması, elmi-mədəni sərvətlərdən hərtərəfli istifadə imkanlarının genişləndirilməsi, cəmiyyətin informasiya təminatının artırılması, o cümlədən respublika kitabxanalarının dünya informasiya məkanına daxil olmasının təmin edilməsi məqsədilə respublikamızın prezidenti İlham Əliyev cənabları 6 oktyabr 2008-ci il tarixdə "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramının qəbul edilməsi haqqında sərəncam imzalamışdır. Dövlət Proqramının əsas məqsədi ölkədə tarixi-mədəni, ədəbi-bədii, elmi-fəlsəfi sərvətlərin toplanmasını, mühafizəsini və onlardan istifadə imkanlarının artırılmasını təmin etməkdir. Müasir kitabxana-informasiya infrasturukturunun yaradılması, istifadəçilərə göstərilən kitabxana-biblioqrafiya xidmətinin dünya standartları səviyyəsinə qaldırılması da müvafiq sahədə qarşıda duran vəzifələrdəndir. Müasir dünyanın inkişaf qanunları ilə uzlaşan kitabxana-biblioqrafiya ehtiyatlarının formalaşması, onlardan səmərəli istifadənin təşkili bu vəzifələrlə sıx əlaqədardır.

**Məsələnin qoyuluşu**

Qlobal informasiya cəmiyyətinin yarandığı müasir dövrdə elmi biliklərin cəmiyyətin bütün fəaliyyət sahələrinə çatdırılmasında biblioqrafik resursların, bu resurslardan səmərəli istifadənin təşkilinin böyük əhəmiyyəti vardır. Azərbaycanın biblioqrafik ehtiyat sistemi zəngin tarixə və mürəkkəb quruluşa malikdir. Bu sosial institutun sənəd kommunikasiyaları sistemində əsas vəzifəsi ilkin sənədlərdən istifadənin təşkili, fəallaşdırılması və nəticə etibarilə cəmiyyətin informasiya tələbatının ödənilməsinə təsir göstərməkdir.

İnformasiya təminatı müasir dövrün və tarixi keçmişin hadisələri ilə yaxından tanış olmağa, ictimai münasibətlərin dərk edilməsinə, həyatda obyektiv baxışın formalaşmasına, eləcə də cəmiyyətin həyat tərzi üçün xarakterik olan etik, hüquqi və estetik normaların mənimsənilməsinə kömək edir və tədris, təhsil və tərbiyə funksiyaları kompleks xarakter daşıyır. Bir-biri ilə qırılmaz surətdə bağlı olan bu proseslər də mütaliənin nəticəsi olaraq cəmiyyət tərəfindən toplanmış biliklərin mənimsənilməsi, bu biliklərin sisteminin yaradılması və şəxsiyyətin inkişafı gedişinin idarə edilməsi kimi ifadə olunur. Bu funksiyaları isə kitabxana-biblioqrafiya fəaliyyəti həyata keçirir. Kitabxanaların səmərəliliyin artırılmasında biblioqrafik fəaliyyətin əhəmiyyəti isə danılmazdır.(3)

Kitabxanalar hər nə qədər yeri internetə buraxmış kimi görünsə də, ehtiyacımız olan məlumatı hər zaman doğru olaraq tapa bilmərik.

Dünyanın əksər ölkələrində cəmiyyətə göstərilən kitabxana xidmətinin, sənəd-informasiya təminatının təşkili səviyyəsi milli prioritetə malik məsələ

kimi qiymətləndirilir və bu sahənin inkişafına həm rəsmi orqanlar, həm işgüzar dairələr, həm də qeyri-hökumət təşkilatları tərəfindən böyük diqqət və qayğı göstərilir. Dünyanın inkişaf etmiş ölkələrində kitabxanalara həm də vətəndaşların informasiyaya azad müyəssərlik hüququnun reallaşdırıldığı bir məkan kimi də xüsusi önəm verilir. Belə bir yanaşma tərzi dünyanın BMT, YUNESKO və İFLA kimi ən nüfuzlu qurumlarının sənədlərində öz əksini tapmışdır. Kitabxana siyasəti dövlətin həm iqtisadi, həm təhsil, həm mədəniyyət, həm də informasiya siyasətinin üst-üstə düşdüyü sahədir.

Cəmiyyətin sənəd-informasiya tələbatının ödənilməsi funksiyasını həyata keçirən bir təsisat kimi kitabxanalar vətəndaş cəmiyyətinin formalaşmasında zəruri vasitə rolunu oynayır. Kitabxanaların informasiya resurslarının zaman və məkan məhdudiyyəti yoxdur. Digər tərəfdən, kitabxanalar mövcud sənədlərin saxlanc yeri olmaqla yanaşı, müasir texnologiyalar sayəsində informasiya dünyasına açılan qapı rolunu oynayır. Bu gün informasiya və kommunikasiya texnologiyaları ictimai-siyasi, sosial-iqtisadi, mədəni sahələri əhatə edərək cəmiyyətin inkişafına güclü təsir göstərən əsas amillərdən birinə çevrilmişdir. Hazırda informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin səviyyəsi hər bir ölkənin zehni və elmi potensialının, dövlət idarəçiliyində şəffaflığın və demokratiyanın inkişafının, sosial-iqtisadi problemlərin həllinin, yoxsulluğun aradan qaldırılmasının əsas göstəricilərindən hesab olunur. Son illərdə ölkəmizdə cəmiyyətin sənəd-informasiya tələbatını, o cümlədən ədəbiyyata olan tələbatını daha dolğun şəkildə ödənilməsi və bu işdə informasiya və kommunikasiya texnologiyalarından istifadə sahəsində bir sıra ciddi addımlar atılmışdır.

Məqalənin yazılmasında əsas məqsəd Aran İqtisadi zonasına daxil olan Şirvan şəhərinin Mərkəzləşmiş Kitabxana Sisteminin əhaliyə kitabxana-biblioqrafiya və informasiya xidmətinin səviyyəsini, müasir vəziyyətini müəyyən etməkdən ibarətdir.

**Məsələnin həlli**

Biblioqrafik iş müxtəlif növ kitabxanaların əsas fəaliyyət sahələrindəndir və kitabxanaların xidmət etdiyi ərazinin sosial-iqtisadi problemlərilə əlaqədar tələbatlara uyğun gəlməlidir. Bibloqrafik informasiya mənbələrinin yaradılmasında, yayılmasında və bir sistem kimi formalaşmasında məhz kitabxanalarımız mühüm yer tutur. 1976-cı ildən rayon kitabxanalarının mərkəzləşdirilməsi onların biblioqrafik fəaliyyəti üçün yaxşı şərait yaratmışdır. Mərkəzləşdirilmiş kitabxana sistemində biblioqrafik fəaliyyət ikipilləli xarakter daşıyır.

Respublikamızda biblioqrafik fəaliyyət sahəsində mühüm həlledici yeri olan Mərkəzləşdirilmiş Kitabxana Sistemləri (MKS) zəngin universal kitab fonduna malik olan ən böyük şəbəkədir. MKS-ləri artıq 30 ildən çoxdur ki, oxuculara kitabxana-biblioqrafiya xidməti sahəsində əsaslı uğurlara nail olmuş, biblioqrafiya işi sahəsində dövlət siyasətinin həyata keçirilməsinin mühüm

vasitələrindən biri kimi fəaliyyət göstərir. Respublikamızda dövlət kütləvi kitabxanaların mərkəzləşdirilməsi kitabxana işinin inkişafında yeni bir mərhələ idi. Məhz bu mərhələdə kitabxana işi sahəsində baş verən çox dərin dəyişikliklər biblioqrafik işin əsaslı şəkildə yenidən qurulmasını tələb edirdi. Bu dəyişikliklər bir çox mürəkkəb problemlərin həll edilməsinə imkan verdi. Belə ki, hər bir şəhərdə və rayonda filial sisteminə malik olan, əvvəllər müstəqil fəaliyyət göstərən kitabxanalardan müqayisə edilməz dərəcədə böyük üstünlüklərə və imkanlara malik olan vahid və böyük kitabxana müəssisələri yaradıldı. Vahid kitabxana sisteminin yaranması kəmiyyət və keyfiyyətcə böyük və güclü universal kitab fondlarının yaranmasına səbəb olmuşdur. Mərkəzləşdirmənin həyata keçirilməsi ilə əlaqədar olaraq onların funksiyaları daha da genişlənmişdir.(5)

Şirvan şəhərinin 84.000 nəfər əhalisi var. Əhalinin sıxlığı 1km-1200 nəfərdir. Şirvan əhalisinin 20 967 nəfəri (ali, orta ixtisas, ilk peşə, ümümi təhsil və digər təhsil) təhsillidir. Hazırda Şirvan şəhərində ümumilikdə 30 ədəd kitabxana var ki, bunun da 8 ədədi Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kütləvi kitabxanalardır. (8)

Şirvan şəhərində kitabxana işinin tarixi hələ 1950-ci illərə təsadüf edir. Şirvan sakinlərinin elmə, maariflənməyə, informasiyaya olan ehtiyacını ödəmək məqsədi ilə 1954-cü ildə Mərkəzi Kitabxana və uşaq kitabxanası yaradılmışdır. 1958-ci ildən isə digər kütləvi kitabxanalar fəaliyyətə başlayıb. 1979-cu ildən etibarən isə Şirvan şəhərindəki dövlət kütləvi kitabxanalarını özündə birləşdirən Mərkəzləşdirilmiş Kitabxana Sistemi yaradılıb.

1954-cü ildən fəaliyyət göstərən Mərkəzi Kitabxana 1982-ci ildən Azərbaycanın görkəmli şairi Seyid Əzim Şirvaninin adını daşıyır. Sahəsi 644kv.m olan Mərkəzi Kitabxana Sistemə daxil olan kitabxana bütün filiallara metodik rəhbərlik edir. Hal-hazırda Şirvan MKS-ə 6 Dövlət kütləvi kitabxanası - Seyid Əzim Şirvani adına Mərkəzi kitabxana, 1 Gənclər kitabxanası, 1 Uşaq kitabxanası, böyüklərə xidmət edən 5 kitabxana filialları daxildir. Kitabxananın 14823 min nüsxə fondu var. 2015-ci il ərzində 2006 nəfər oxucuya 25358 nüsxə kitab, elektron informasiya daşıyıcıları, jurnallar, qəzetlər və digər materiallarla xidmət edib. Statistik məlumatlara əsasən qeyd etmək olar ki, orta hesabla hər 1000 nəfər sakinə il ərzində 1765 ədəd sənədlə xidmət göstərilmişdir. (8)

Şirvan şəhər MKS-nin 5 filialı var. Bu filialların kitab fondu 2638 nüsxə, oxucu sayı hər filial üçün təxminən 365 nəfər, il ərzində kitab verilişi isə 5098 olmuşdur.

Mərkəzi Kitabxana və filiallar 17 ədəd komputer dəsti ilə təchiz edilib, internet sisteminə qoşulub, oxu zalında vi-fi zonası yaradılıb. İnformasiya tələbatçıları sərbəst olaraq internetə qoşulub öz tələbatlarını ödəyə bilirlər.

Soraq-biblioqrafik nəşrlər fondu kitabxananın soraq-biblioqrafiya aparatının bir tərkib hissəsi olmaqla əsas və direktiv xarakterli materialları,

soraq-məlumat ədəbiyyatını, ən mühüm biblioqrafik vəsaitləri və ödənilmiş arayışlar fondunu əks etdirir. (4)

Şirvan MKS-nin Soraq Biblioqrafik Nəşrlər Fondunun əsas hissəsini ödənilmiş arayışlar təşkil edir. Kitabxananın biblioqrafiya şöbəsi müntəzəm olaraq mütəxəssislərdən, idarə və müəssisələrdən aldıqları sorğuları ödəyir. Belə sorğulara bir qayda olaraq mövzuya dair ədəbiyyat siyahısından ibarət olan arayışlarda cavab verilir. Bu arayışları hazırlamaq üçün biblioqraf bir çox məlumat mənbələrini nəzərdən keçirir ki, bu da müəyyən vaxt tələb edir. Təcrübə göstərir ki, oxucu sorğuları bir neçə dəfə təkrar olunur. Oxucuların bu cür təkrar sorğularına vaxt itirmədən cavab vermək üçün ödənilmiş arayışlar fondu yaradılır. Belə ki, ödənilmiş arayışlar fondunun dəqiq təşkili, onun ardıcıl olaraq təkmilləşdirilməsi hər bir kitabxananın biblioqrafik fəaliyyətinin mühüm əsasıdır.

Mərkəzi kitabxananın biblioqrafik fəaliyyətinin həcmi ilə filialların biblioqrafik işlərinin həcmi arasında xeyli fərq var. Mərkəzi kitabxananın əsas fəaliyyəti təşkilati məsələ ilə əlaqədardır və həmçinin biblioqrafik fəaliyyətin düzgün istiqamətləndirilməsi, yeni tövsiyyələr, elmi məsləhətlər verilməsi də bilavasitə mərkəzi kitabxananın işinin başlıca istiqamətidir. Mərkəzləşdirilmiş Kitabxana Sistemi elmi tədqiqat işlərinin yaxşılaşdırılmasında fəal iştirak edir, qabaqcıl iş təcrübəsini tətbiq edir. Mərkəzi kitabxana filial-kitabxanaların plan və hesabatlarının tərtibində və göstəricilərin təhlilində fəal iştirak edir. Göstərilən bütün bu vəzifələrin həyata keçirilməsində yüksək ixtisaslı biblioqrafların və metodistlərin olması da vacibdir. Bu dövrdə metodika və biblioqrafiya şöbəsinin fəaliyyət dairəsi daha da genişlənmiş və zənginləşmişdir. Belə ki, şöbə soraq-biblioqrafiya, eləcə də biblioqrafik informasiya xidmətinin səmərələşdirilməsinə, filial-kitabxanaların biblioqrafik fəaliyyətinin planlaşdırılması, hesabatların hazırlanması və ümumiləşdirilməsinə öz müsbət təsirini göstərir. Beləliklə, məlum olur ki, MKS-də metodiki biblioqrafik işin düzgün təşkili sistemin ümumi fəaliyyətinin səmərəliləşdirir, xidmət işini sürətləndirir, zənginləşdirir və yeni nailiyyətlər üçün perspektivlər yaradır.

Kitabxanada 69 nəfər işçi çalışır. Onlardan 57 nəfəri kitabxana işçiləridir. Bu işçilərdən 12 nəfəri ali təhsilli, o cümlədən 11 nəfəri kitabxanaçılıq üzrə ali təhsili, 13 nəfəri isə kitabxanaçılıq üzrə xüsusi orta təhsilli mütəxəssislərdir. (7)

Şirvan şəhər MKS öz işində rəhbərlik üçün Azərbaycan Respublikası Mədəniyyət və Turizim Nazirliyinin, Nazirlər kabinetinin qərarlarını, Azərbaycan Respublikasının "Kitabxana işi haqqında" qanunu əsas götürmüşdür. MKS-nin kollektivi M.F.Axundov adına Milli kitabxananın, C.Cabbarlı adına Gənclər kitabxanasının, F.Köçərli adına Respublika Uşaq kitabxanasının da tövsiyələrindən istifadə etməklə əhaliyə kitabxana xidməti işinin daha da səmərəli təşkilinə nail olmuşdur.

Əhalini fəal mütaliəyə cəlb etmək, siyasi, iqtisadi, hərbi vəziyyətimizi, tariximizi, mədəniyyət və incəsənətimizi geniş oxucu kütləsi arasında təbliğ etmək məqsədi ilə MKS-də vaxtaşırı olaraq mədəni-kütləvi tədbirlər keçrilir. Kitabxananın nəzdində fəaliyyət göstərən "Uşaq kitabxanası" şəhərin azyaşlı sakinlərinə və məktəblilərə kitabxana xidməti göstərir. Uşaq şöbəsinin nəzdində xüsusi olaraq bəzədilmiş və texniki avadanlıqlarla təchiz olunmuş "Nağıl otağı" fəaliyyət göstərir. Öz işini daha yaxşı qurduğu və oxuculara xidmət işində nümunə göstərdiyinə görə uşaq kitabxanası 2011-ci ildə "İlin nümunəvi kitabxanası" nominasiyası üzrə müsabiqənin qalibi olmuşdur.

Kitabxanada oxuculara kömək məqsədi ilə əlifba və sistemli kataloqlar, mövzu və ölkəşünaslıq kartotekaları tərtib edilmişdir. Mərkəzi kitabxananın Oxuculara Xidmət, Uşaq, Kitabişləmə və komplektləşdirmə, Metodika və biblioqrafiya, Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, İnformasiya-resurs şöbələri vardır. Mərkəzi kitabxana oxuculara kitabxana xidmətini daha da yaxşılaşdırmaq, informasiyanı əhalinin bütün təbəqələrinə çatdırmaq, oxucu kütləsinin daha yüksək səviyyədə mütaliəyə cəlb etmək üçün müxtəlif mövzularda ədəbi-bədii gecələr, disputlar, kitab müzakirələri, söhbətlər, oxucu konfransları, görüşlər və s. mədəni-kütləvi tədbirlər keçirir.

Mərkəzi Kitabxana şəhərin əsas orqanı olan "İşıq" qəzeti vasitəsi ilə şəhərin ictimai-siyasi həyatında baş verən yenilikləri oxuculara çatdırılır. Kitabxanada keçirilən bütün tədbirlər bu qəzetdə və "Mədəniyyət" qəzetində, respublikamızda nəşr olunan digər qəzet və jurnallarda nəşr edilir. Həmçinin kitabxana hər il oxucu marağını nəzərə alaraq müxtəlif qəzet və jurnallara abunə yazılır. Məsələn, təkcə 2015-ci ildə 15 adda qəzet, 5 adda jurnala abunə yazılmışdır. Belə ki, bu nəşr olunan məqalələr də kitabxananın diyarşünaslıq kartotekasında öz əksini tapır.

Metodika və Biblioqrafiya şöbəsinin illik iş planlarına müntəzəm olaraq daxil edilən Diyarşünaslığın təbliği məsələsinə bu il də böyük diqqət ayrılmışdır. Bu məqsədlə metodiki vasitələr hazırlanmış, kitabxana filiallarının işçilərini təlimatlandırmaq üçün metodiki məktublar, tövsiyə ədəbiyyat siyahıları tərtib olunmuş, rayonumuzun tarixi, coğrafiyası, təbiətindən, yaradıcı insanlardan, tanınmış şəxsiyyətlərindən bəhs edən ədəbiyyatların, evlərdə, dini və mədəniyyət müəssisələrində ola biləcək nadir nüsxələrin toplanmasına dair filial işçiləri ilə bir çox söhbətlər aparılmış, yollar göstərilmişdir. Bu mövzu seminarlarda da önə çəkilmiş, daima diqqətdə saxlanılmışdır. Mərkəzi kitabxanada "Diyarşünaslıq" kartotekası tərtib olunmuş, burada 18 yarımbaşlıq yerləşdirilmiş, diyar haqqında rəngarəng materiallar toplanmışdır. ("Şirvanın tarixi", "Şirvanın folkloru", "Şirvanda Kitabxana İşi", "Şirvanda turizm", "Şirvan şəhidləri", "Şirvanın muzey və abidələri", "Şirvanın pedaqoqları", "Şirvanda teatr", "Fəxrimiz - qəhrəman Şirin Şükürov", "Milli qəhrəmanlarımız", "Şirvanda keçirilən bayramlar" , "Şirvanın yazarları" və s.) adlarında sərgi və guşə təşkil edilmişdir. Sərgidə kitablarla bərabər qəzet və jurnal materialları, tövsiyə ədəbiyyat siyahıları ,

mövzu kartotekaları, sənədlər və şəkillərdə nümayiş olunmuşdur. Bu guşə və sərgilərin tərtib və təşkilində əsas məqsəd diyarla yaxından tanış olmaq istəyənlərə bələdçilik etməklə bərabər, oxucuları, gəncləri öz diyarlarını yaxından tanımağa, onu daha çox sevməyə təşviq etməkdən ibarətdir.

"Folklorumuz və abidələrimiz" adlı bölmədə Uşaq Rəssamlıq məktəbi şagirdlərinin əl işləri və rəsm əsərləri nümayiş etdirilmişdir. Diyarşünaslıq mövzusu həmişə Metodika və biblioqrafiya şöbəsinin diqqət mərkəzindədir.

Kitabxanada ənənəvi kitabxana-informasiya xidmətinin inkişafı üçün yeni müasir meyllərin tətbiqi istiqamətində bir sıra tədbirlər görülür. Bununla yanaşı, bir sıra kütləvi tədbirlər, müxtəlif əlamətdar günlərə həsr olunmuş nəşr sərgiləri keçirilir. Tez-tez oxucuların kitabxana-informasiya resurslarından istifadəsi ilə əlaqədar maarifləndirici tədbirlər keçirilir. Bu tədbirlərdə oxucularla soraq-informasiya aparatlarından istifadə etmək (kataloq, kartoteka sistemi), axtarışı düzgün təşkil etmək barədə söhbətlər aparılır, müxtəlif mövzular üzrə nəşrlər, eləcə də dövrü nəşrlər haqqında məlumat verilir. Bu tədbirlərdə çox zaman əməkdaşlar tərəfindən müxtəlif mövzular üzrə seçilmiş nəşrlərlə bağlı şifahi icmallar da aparılır. Tədbirlər arasında müxtəlif istiqamətlərdə hazırlanmış sərgilər də böyük maraq doğurur. Sərgilər yeni daxil olan ədəbiyyat, müxtəlif əlamətdar hadisələr, aktual məsələlərə həsr edilmiş tematik nəşrlərdən ibarət olur.

Kitabxanada əyani təbliğat vasitələrinin daha geniş yayılmış formalarından biri hərəkətli sərgilərdir. Hərəkətli sərgilərin mahiyyəti müxtəlif orqanlarda məqsədəuyğun mövzulara həsr olunmuş nəşrlərin təqdimatından ibarətdir. Bu növ sərgilər əlavə vəsait tələb etdiyi üçün onları tez-tez təşkil etmək mümkün olmur. Lakin buna baxmayaraq kitabxananın əməkdaşları tərəfindən belə sərgilər uğurla təşkil olunmuş və oxucu kontingentinin genişlənməsinə, insanların kitabxanaya marağının artmasına səbəb olmuşdur.

Kitabxana-informasiya xidmətinin daha da təkmilləşdirilməsi üçün 2006-cı ildən müxtəlif mövzulu CD-lərdən ibarət fondun da təşkilinə başlanmışdır. Hazırda bu fondda 54 disk vardır. Gələcəkdə bu fondun genişləndirilməsi və zənginləşdirilməsi nəzərdə tutulur.

Oxuculara daha dolğun informasiya xidmətinin həyata keçirilməsi üçün internet xidmətlərindən istifadə olunur. Peşəkar əməkdaşlar oxuculara elmi saytlardan istifadə edilməsi, müxtəlif mövzular üzrə sorğuların formalaşdırılması və bu sorğu üzrə axtarışın aparılması istiqamətində metodiki köməklik göstərirlər. Daha bir xidmət forması kitabxanalararası abonementdir (KAA). Bu xidmət vasitəsilə ölkəmizin digər iri kitabxanaları ilə əlaqələr yaradılır və oxucuların sorğularının daha dolğun ödənilməsi üçün həmin kitabxanaların fondlarından istifadə edilir. Bu əməkdaşlıq qarşılıqlı olduğu üçün həmin kitabxanaların kitabxana-informasiya xidmətində də qarşılıqlı yardımçı olur. Həmin kitabxanalarla koordinasiyanın həyata keçirilməsi işində KAA şöbəsi ilə yanaşı elmi-metodiki, xidmət, biblioqrafiya, xarici ədəbiyyat şöbələri də məşğul olurlar. Metodika-biblioqrafiya şöbənin fəaliyyəti əsasən

filial kitabxanaları şəbəkəsinə metodiki köməklik göstərməkdən ibarətdir. Lakin buna baxmayaraq bu şöbə də kitabxana-informasiya işinin təşkilində bilavasitə iştirak edir.

Şirvan Mərkəzləşdirilmış Kitabxana sistemi öz işini əhatə dairəsində olan İHK, 9, 10, 16, 18, 21 saylı tam orta məktəblər, Təhsil şöbəsi, Peşə liseyi, Şirvan şəhər Humanitar və İqtisadiyyat Kolleci, sənaye müəsisələri, uşaq bağçaları və digər idarə və təşkilatlarla əlaqəli şəkildə qurur.

Şirvan mərkəzləşdirilmiş kitabxana sistemində sənəd informasiya tələbatını, o cümlədən ədəbiyyata olan tələbatın daha dolğun və operativ şəkildə ödənilməsi və bu sahədə informasiya və kommunikasiya texnologiyarından istifadə edilməsi istiqamətində müntəzəm olaraq mühüm layihələr həyata keçirir. Bu sahədə əhəmiyyətli addımlardan biri pərakəndə şəkildə fəaliyyət göstərən müxtəlif kitabxana sistemlərinin vahid strukturunda birləşdirilməsi və tabeçilikdə bütün kitabxanaların Vahid Mərkəzləşdirilmiş Kitabxana portalının (Shirvan.cls.az) yaradılmasıdır.

Şirvan MKS-də 2014-cü ildən IRBIS 64 proqramından istifadə edilir. IRBIS 64 avtomatlaşdırılmış kitabxana-informasiya sistemi Rusiya Dövlət Ümumi Elmi-Texniki Kitabxanasının mütəxəssisləri tərəfindən işlənib hazırlanmışdır və indiyədək müxtəlif versiyaları dünyanın 14 ölkəsindəki 1000-dən artıq kitabxanada tətbiq edilmişdir. Bu Avtomatlaşdırma Sistemi (AS) İnformasiya və kommunikasiya texnologiyaları sahəsində bütün beynəlxalq tələblərə və müasir kitabxana biblioqrafiya standartlarına və formatlarına cavab verir. Əsas xarakteristikası: Bütün tip lokal şəbəkələrdə işləyir; Korporativ kitabxana sistemlərinə və texnologiyalarına inteqrasiya edilə bilir; WEB-texnologiyası və Z39.50 protokolu ilə uzlaşır; UNIMARC, USMARC, MARC21 və RUSMARC formatlarına tam uyğunlaşır. IRBIS 64 Kitabxananın Avtomatlaşdırılması Sistemində "Komplektləşdirici", "Kataloqlaşdırıcı", "Oxucu", "Kitabverilişi" və "İnzibatçı" avtomatlaşdırılmış iş yeri fəaliyyət göstərir. Bundan əlavə "IRBIS 64 - Tammətnli verilənlər bazası"nın "İnzibatçı" və "Oxucu" avtomatlaşdırılmış iş yerləri də fəaliyyət göstərir.

Oxucularla münasibətləri sadələşdirən və digər mərkəzləşdirilmiş kitabxana sistemləri ilə inteqrasiyanı mümkün edən portalda məlumatların yerləşdirilməsi və elektron mübadilə sisteminin digər funksiyaları ilə kitabxana əməkdaşlarını yaxından tanış etmək məqsədilə treyninqlər keçirilib.

Hal-hazırda Şirvan MKSdə Milli Kitabxana Mədəniyyət və Turizm Nazirliyi ilə birgə hazırladığı Vahid Mərkəzləşdirilmiş Kitabxana-İnformasiya sistemi (ALİSA) tətbiq olunur. ULTRA şirkıti bu sistemin işlənib hazırlanma prosesində dünyanın ən qabaqcıl kitabxana sistemlərinin təcrübəsindən faydalanıb, xüsusi kitabxana işi üzrə mütəxəssis komandası ilə çalışıb. Hazırlanmış ALİSA sistemi ən son texnologiyaların tətbiqi ilə işlənmiş veb əsaslı sistemdir. Sistem MARC21, İSO2709, UNİCODE, Z39.50 və digər standart və protokollar üzərində qurularaq istənilən milli, ictimai, özəl,

universitet, məktəb kitabxana proseslerinin tam avtomatlaşdırılması üçün bütün funksionallıqları özündə əks etdirir. Birgə layihə olan ALİSA sistemi Milli Kitabxana tərəfindən rayon MKS-lərinə tətbiq olunacaq. Proqram komplektləşdirmə, kataloqlaşdırma, electron kataloq, idarəetmə və təşkilati struktur modulları, ətraflı axtarış, onlayn əməliyyatlar, rezervasiya, kitab verilişi, hesabat və statistika və digər modullardan ibarətdir. Bütün proseslərin reallaşdırılması üçün Azərbaycan Milli Kitabxanasında "Vahid Elektron Kitabxana Qeydiyyat və Məlumatların İdarəedilməsi Sistemi" üzrə avadanlıqların tətbiqi və proqram təminatının yaradılması işləri həyata keçirilib, kitabxana-informası şəbəkəsinə daxil olan kitabxanaların məlumatlarının idarə edilməsi və qorunması üçün ekranlaşdırılmış server otağı ("DATA" Mərkəz) yaradılıb.

Yeni texnologiyaların tətbiqi və kitabxanada baş verən texniki dəyişikliklər kitabxanada məkan dəyişikliklərini tələb edir. Yeni binalar, kommunikasiyalar, köhnə binaların yenidən təmiri, qurulması, yeni avadanlıqların əldə olunmasını zəruriləşdirir. Bu ona görə əhəmiyyətlidir ki, kitabxanalar yeni xidmət formaları, həm real, həm də virtual xidmət sferasını yaratmaqla istifadəçilərin tələbatına informasiyalaşdırılmış cəmiyyətin tələbləri baxımından cavab verməlidirlər. Bir tərəfdən dəyişmiş istifadəçilər kitabxananı innovasiyalara doğru itələyirlər, digər tərəfdən dəyişən kitabxana genişlənməyə və istifadəçilərin işdə, təhsildə və başqa sferalarda informasiya və mədəni potensialının dərinləşməsinə kömək edir. (2)

**Nəticə**

Hər bir ölkədə elmin, təhsilin, incəsənətin, mədəniyyətin inkişafında və təbliğində kitabın rolu əvəzsizdir. Kitab xalqın mənəvi sərvətidir, onun tarixidir. Bu sərvəti gələcək nəsillər üçün qoruyub saxlayan, bəşəriyyətin sənəd yaddaşı sayılan kitabların və digər çap əsərlərinin, məlumat daşıyıcılarının istifadəsini təşkil edən, biliklərin yayılmasını həyata keçirən kitabxanalar insanların intellektual və peşə səviyyəsinin yüksəlməsində, elmin və texnikanın tərəqqisində müstəsna rol oynayır. Bu baxımdan Şirvan şəhərində də kitabxana işini tənzimləmək, onların fəaliyyətini müasir tələblər səviyyəsinə çatdırmaq, ədəbiyyatın geniş təbliğini və bu sahədə xidmət işini genişləndirmək üçün bir sıra tədbirlər həyata keçirilmişdir.

Respublikamızda biblioqrafik fəaliyyət sahəsində mühüm həlledici yeri olan Mərkəzləşdirilmiş Kitabxana Sistemləri (MKS) zəngin universal kitab fonduna malik olan ən böyük şəbəkədir. MKS-ləri artıq 30 ildən çoxdur ki, oxuculara kitabxana-biblioqrafiya xidməti sahəsində əsaslı uğurlara nail olmuş, biblioqrafiya işi sahəsində dövlət siyasətinin həyata keçirilməsinin mühüm vasitələrindən biri kimi fəaliyyət göstərir. Respublikamızda dövlət kütləvi kitabxanaların mərkəzləşdirilməsi kitabxana işinin inkişafında yeni bir mərhələ idi. Məhz bu mərhələdə kitabxana işi sahəsində baş verən çox dərin dəyişikliklər biblioqrafik işin əsaslı şəkildə yenidən qurulmasını tələb edirdi. Bu dəyişikliklər bir çox mürəkkəb problemlərin həll edilməsinə imkan verdi.

Belə ki, hər bir şəhərdə və rayonda filial sisteminə malik olan, əvvəllər müstəqil fəaliyyət göstərən kitabxanalardan müqayisə edilməz dərəcədə böyük üstünlüklərə və imkanlara malik olan vahid və böyük kitabxana müəssisələri yaradıldı. Vahid kitabxana sisteminin yaranması kəmiyyət və keyfiyyətcə böyük və güclü universal kitab fondlarının yaranmasına səbəb olmuşdur. Mərkəzləşdirmənin həyata keçirilməsi ilə əlaqədar olaraq onların funksiyaları daha da genişlənmişdir.

"Oxuculara xidmətin təşkili kitabxana işinin inkişafının bütün mərhələlərində öz təbiəti və struktur quruluşu etibarı ilə mürəkkəb, çoxcəhətli və geniş məzmunlu anlayış olub həmişə kitabxananın əsas vəzifələrini və bütövlükdə kitabxana işinin mahiyyətini ifadə etmişdir. Cəmiyyətdə kitabxanaların rolu və əhəmiyyəti həmişə oxuculara kitabxana xidmətinin təşkili səviyyəsi, onun keyfiyyəti və əhatə dairəsi ilə ölçülmüşdür". (3)

Məlumdur ki, biblioqrafiya insanlar arasındakı informasiya münasibətlərini tənzimləyən əlaqə vasitəsidir. Bu mənada cəmiyyətimizin informasiyalaşdırılmasında kitabxanalarda aparılan bibiloqrafik xidmətin əhəmiyyəti əvəzolunmazdır. Çünki informasiya tələbatçılarının biblioqrafik təminatı məhz kitabxanada aparılan biblioqrafik informasiya və soraq-biblioqrafiya xidməti zamanı ödənilir. Hər bir MKS-də biblioqrafik informasiya xidməti elə təşkil edilməlidir ki, tələbatçı ona lazım olan informasiyanı tam və dolğun əldə edə bilsin. Bunun üçün isə ənənəvi bibiloqrafik xidmət vasitələrindən əlavə, müasir texnologiyadan da istifadə etmək lazımdır. Ölkəmizdə kənd təsərrüfatı və sənaye müəssisələrinin çoxu elmi və elmi-texniki kitabxanalar yerləşən mərkəzdən, ərazi məlumat orqanlarından uzaq olduqları bir vaxtda adları çəkilən müəssisələrin biblioqrafik təminatında MKS-lərin rolu və əhəmiyyəti inkaredilməzdir.

Aydındır ki, MKS-lər ancaq öz fondlarına əsaslanaraq yüksək ixtisaslı mütəxəssislərin biblioqrafik təminatını ödəmək iqtidarında deyillər. Ona görə də MKS-lər mütəxəssislərin biblioqrafik informasiya tələbatlarının ödənilməsində yüksək səviyyəli kitabxanaların informasiya ehtiyatlarından, ərazi məlumat orqanlarının xidmətlərindən geniş şəkildə istifadə edirlər. Beləliklə də ərazi və sahəvi məlumat orqanlarının olmasına baxmayaraq mütəxəssisləri MKS-in iştirakı olmadan kitabxana-biblioqrafiya xidməti ilə əhatə oluna bilməz. Artıq bu gün MKS-lər ayrılıqda deyil, bir-biri ilə əlaqədar, bir-birini tamamlayan vahid sistem kimi fəaliyyət göstərir. Kompüter texnologiyasının biblioqrafik proseslərə tətbiqi, internet əlaqələrinin genişlənməsi, elektron informasiya daşıyıcılarının ildən-ilə artması MKS-lərdə də bu işlə məşğul olacaq xüsusi şöbənin açılması zərurətini yaradır. Bunun üçün isə birinci növbədə maddi-texniki baza və həmin texnologiya ilə işləməyi bacaran mütəxəssislər olmalıdır. Onu da qeyd etmək lazımdır ki, artıq bu gün bir çox rayon MKS-də Regional İnformasiya Mərkəzləri yaradılmışdır. Təəssüflə qeyd etmək lazımdır ki, bunu bütün kitabxana sistemləri haqqında demək olmaz.

Bütün tip kitabxanalarda olduğu kimi MKS-lərdə də soraq biblioqrafiya aparatı (SBA) biblioqrafik fəaliyyətin əsas bazası hesab edilir. SBA-nın əsas məqsədi kitabxana fondunu tam əks etdirməkdən ibarətdir. Onun ayrı-ayrı tərkib hissələri qarşılıqlı əlaqədə olmalı və bir-birini tamamlamalıdırlar. SBA-nın tərkib və məzmununa kitabxananın xidmət göstərdiyi rayonun profili və onun oxucu kontingentinə təsir göstərir. SBA-nın optimal təşkili, onun elmi idarə olunmasını tələb edir ki, SBA elementlərinin təkmilləşdirilməsi də onun xüsusiyyətləri sistem halında nəzərə alınaraq tərtib edilsin. Bununla əlaqədar olaraq MKS-nin xüsusiyyətlərinə və onun mürəkkəbliyinə diqqət yetirmək lazımdır. SBA-nın bugünkü tərkibi uzun illər davam edən tarixi inkişafın nəticəsidir. Əvvəllər SBA ancaq kitabxana fondunun tərkibini açan kataloqlardan ibarət idi. Daha sonralar SBA-nın tərkibinə müxtəlif məlumat nəşrləri, biblioqrafik nəşrlər, eləcə də kitabxanada tərtib olunan kartotekalar və əvvəllər yerinə yetirilmiş yazılı arayışlar da daxil edilir. Bu onu göstərir ki, SBA yarandığı gündən bu günə kimi onun tərkibi daima dəyişmiş və təkmilləşmişdir. Bu proses bu gün də davam edir. Belə ki, müasir texnologiyanın, xüsusilə kompüter texnologiyasının biblioqrafik proseslərə tətbiqi MKS-nin soraq-biblioqrafiya aparatını daha da zənginləşdirir. MKS-də SBA-nın funksiyaları çox müxtəlifdir və biblioqrafik fəaliyyətin bütün istiqamətlərində ondan istifadə olunur. Biblioqrafik proseslərə yeni texnologiyaların tətbiq edilməsi MKS-lərdə ənənəvi kataloq və kartotekaların elektron formaya keçirilməsinə imkan yaradır. Bu məsələnin həlli Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün bu gün ən vacib problemlərdən biridir. Çünki onlarla filial kitabxanaları özündə birləşdirən Mərkəzi Kitabxana fəaliyyət göstərdiyi regionun metodiki mərkəz funksiyasını yerinə yetirir. İnformasiyalı cəmiyyətə keçdiyimiz bir dövrdə MKS-lərin əsas vəzifəsi informasiya ehtiyatlarını yaratmaq və formalaşdırmaqdan ibarətdir.

Mərkəzləşdirilmiş kitabxana sistemlərində aparılan biblioqrafik fəaliyyəti daha düzgün və səmərəli təşkil etmək üçün müasir texnologiyadan və ixtisaslı kadrlardan istifadə etmək vacibdir.

Biblioqrafiya münasibətlərinin ənənəvi formadan elektron formaya keçidinin sürətləndiyi bir vaxtda Şirvan şəhər MKS-də biblioqrafik fəaliyyətin bir çox sahəsinin transformasiyasına imkan verən informasiya-kommunikasiya texnologiyalarını tətbiq etməyə başlamışdır. Təbii ki, kitabxanada elektron mühitin formalaşması, informasiyanın telekommunikasiya kanalları vasitəsilə ötürülməsi bibloqrafik məhsul və xidmət modellərinə də ciddi təsir göstərmişdir. Artıq “elektron biblioqrafiya” adlandırılan yeni və praktiki fəaliyyət sahəsi formalaşmışdır. ”Elektron biblioqrafik fəaliyyət”, “elektron biblioqrafik informasiya”, ”elektron biblioqrafik resurs”, ”elektron biblioqrafik xidmət”, ”onlayn verilənlər bazası” və s. bu müasir fəaliyyət istiqamətini ifadə edən anlayışlardır. (6) Belə bir şəraitdə bölgə olaraq Şirvan MKS-də hələ də təcrübə mərhələsində olan elektron biblioqrafiyanın komponentlərinin və xidmət mexanizlərinin lazımi səviyyədə işlənməməsi

qeyd edilən məsələlərin nəzəri-təcrübi aspektlərini nəzərdən keçirmək problemini aktuallaşdırır.

MKS-nin formalaşmasında, fondun mühafizəsində, bütün bu çoxşaxəli fəaliyyətlərin fövqündə hərtərəfli və intellektual biliyə malik kitabxana işini mükəmməl mənimsəyən, yüksək səviyyəli kitabxanaçı-biblioqraf durur. İxtisaslı, məsuliyyətli və xeyirxah kitabxanaçı-biblioqraf istifadəçi ilə informasiya arasında əsas vasitəçidir. Onların bu sahədəki fədakar əməyi danılmazdır. Bu məsələyə əhəmiyyət verməyən kitabxanalar öz işində müvəffəqiyyət qazana bilməz.

**Ədəbiyyat**


1. ”Azərbaycan kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. -B., 2009.-№1.s.7.
2. Ağayeva X. Kitabxana innovasiyaları və müasir dünyada kitabxanaların inkişafının perspektivləri// Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və təcrübi jurnal.-2015.-№ 2(37).-s.32-38.
3. Библиографическая работа в библитеке: организация и методика. М.,1990,256с
4. Əliyev Z. Müasir biblioqrafik fəaliyyətin təşkili, inkişafı və tətbiqi məsələləri// Kitabxanaşünaslıq və biblioqrafiya.- B.,2009.-№1.- S.91-98.
5. Xələfov A. Kitabxanaşünaslığa giriş: Dərslik, III hissə Kitabxana işi haqqında təlim.- B., 2003.- s. 179
6. Nəbiyeva N. Elektron biblioqrafiya: Ümum-nəzəri yanaşma// Kitabxana-İnformasiya fəaliyyəti və fənlərarası inteqrasiya - Mövzusunda Beynəlxalq Elmi konfrasın materialları.Bakı,15 noyabr 2016-cı il.- Bakı: Mütərcim,2016,-s.62.
7. Şirvan Mərkəzləşdirilmiş Kitabxana Sisteminin statistik və mətn hesabatları-2015.-s.1-4.
8. http://www.stat.gov.az/source/regions/

# AZƏRBAYCANDA ÖLKƏŞÜNASLIQ VƏ DİYARŞÜNASLIQ ÜZRƏ BİBLİOQRAFİK FƏALİYYƏTİN BƏZİ MƏSƏLƏLƏRİ

***Arzu Çələbi***
*AMEA Füzuli adına Əlyazmalar İnstitutunun dissertantı*

***Некоторые вопросы библиографической деятельности по страноведение и краеведения в Азербайджане***
***Резюме:*** *В статье анализируются научно-теоретические и организационные вопросы системы библиографической информации азарбайджане в контексе государтвенной помогие социально-экономомоческая пазвития региона республики.*
***Some issues on country study and local lore bibliographic activity in Azerbaijan***
***Abstract:*** *Government support for development of the republic define important requirements for country study and local lore as well as allows to create bibliographic information and transmit it to users. The paper investigates important issues of country study and local lore bibliography and defines future duties*

***Açar sözlər:*** *Azərbaycan, regional inkişaf, diyarşünaslıq üzrə informasiya, nəzəri-təşkilati məsələlər.*
***Ключевые слова:*** *Азербайджан, региональное развитие, краеведческая информация, теоретические и организационные вопросы.*
***Keywords:*** *Azerbaijan, regional development, information on local history, theoretical and organizational issues.*

## Giriş

Müasir dövrdə respublikamızda sosial-siyasi və iqtisadi inkişafının aktivləşməsi ölkənin və regionların təsərrüfat fəaliyyətinə və mədəni-tarixi ənənələrinə diqqəti artırmağı tələb edir. Xalqımızın əvəzsiz sərvəti olan müstəqilliyin qorunub möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunun həyata keçirilməsi, yeni iqtisadi münasibətlər sisteminin yaradılması, ölkədə ictimai siyasi sabitliyin bərqərar edilməsi və digər sahələrdə qazanılmış nəaliyyətlər Azərbaycanın intensiv inkişaf dövrünə qədəm qoymasına imkan vermişdir.

9-10 noyabr 2001-ci il tarixində dünya azərbaycanlılarının Bakıda keçirilən I qurultayında ümummilli liderimiz H.Ə.Əliyev demişdir: “Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq”.

1105 nümayəndənin, o cümlədən dünyanın 36 ölkəsindən 403 nümayəndənin iştirak etdiyi həmin qurultayın başlıca məqsədi ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlıların həmrəyliyinin möhkəmləndirilməsindən ibarət olmuşdur. Bu gün dünya azərbaycanlılarının əsl milli özünüdərk və

ümummilli ideya - azərbaycançılıq, müstəqil dövlətçilik və milli mənəvi dəyərlər ətrafında birləşməsi prosesi başlanmışdır. Harada yaşamalarından asılı olmayaraq bütün dünya azərbaycanlıları vahid bir xalqı, bir milləti, bir Vətəni təmsil edirlər. Bu vətənin şərəfini qorumaq isə hər bir azərbaycanlının müqəddəs vəzifəsidir. Qurultayda Azərbaycan klassiklərinə, çağdaş yazıçılara, uşaq ədəbiyyatına dair çoxcildli kitabların çap edilməsi, dilimizin, mədəniyyət və incəsənətimizin, ədəbiyyatımızın, bugünkü həyatımızın təbliğində informasiya mübadiləsinin genişləndirilməsi, azərbaycanşünaslıq üzrə mütəxəssislərin hazırlanması məsələləri də xüsusi olaraq irəli sürülmüşdür.

**Əsas hissə**

1998-ci ildə qəbul olunmuş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanununda göstərilir: "Kitabxana - elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur". Vətəndaş cəmiyyətində informasiya, kitabxana, biblioqrafiya müəssisələri həm dövlət, həm özəl, həm də şəxsi və ictimai ola bilər. Lakin onların hamısı cəmiyyətdə inteqrasiyalı rol oynayaraq müxtəlif strukturların yaradılmasına, fəaliyyət göstərməsinə, qarşılıqlı əlaqəsinə təsir göstərir. Nəticədə biblioqrafik ehtiyatların, xidmətlərin və tələbatların optimal uyğunluğu yaranır. Hal-hazırda biblioqrafik səviyyədə kommunikativ prosesin bərpa edilməsi, vətəndaş cəmiyyətinin sosial strukturunun müdafiəsinin təmin olunması başlıca vəzifələrdəndir. Biblioqrafik informasiya mənbələri cəmiyyətin müxtəlif sahələrində istiqamətlənməyə kömək edir, indiki elektron məlumat axtarış sistemində və kompüter şəbəkəsində şəxsiyyətlərarası kommunikasiyaya təsir göstərir.

Bütövlükdə respublikamızın və regionların inkişafına dövlət qayğısı ölkəşünaslıq və diyarşünaslığın qarşısına mühüm vəzifələr qoymaqla yanaşı, bu haqda biblioqrafik informasiyanın hazırlanması və tələbatçılara çatdırılmasının əhəmiyyətini daha da artırır. Ümumi biblioqrafik sistemin mühüm tərkib hissəsi kimi diyarşünaslıq üzrə kitabxana-biblioqrafiya ehtiyatlarının formalaşması, biblioqrafik xidmətin səmərəliliyinin yüksəldilməsi bilavasitə ölkəşünaslıq və diyarşünaslıq biblioqrafiyasının təşkili səviyyəsindən, onun nəzəri-metodiki aspektlərinin işlənmə dərəcəsindən asılıdır.

Diyarşünaslıq üzrə bitkin informasiya sistemi formalaşdırmadan diyarı elmi əsaslarla öyrənmək qeyri-mümkündür. Cəmiyyətin informasiyalaşdırılması diyarşünaslıq biblioqrafiyasının əsas vəzifələrinin kompleks şəkildə həyata keçirilməsini tələb edir. Bunun üçün ilk növbədə kitabxanalarda diyarşünaslıq biblioqrafiyasının səmərəli təşkili səviyyəsi yüksəldilməlidir.

Bununla əlaqədar olaraq bütövlükdə ölkənin və onun regionlarının kitab-xana-biblioqrafiya və informasiya təminatı mühüm əhəmiyyət kəsb edir. İnfor-

masiya təminatının əsas istiqamətləri arasında ölkəşünaslıq və diyarşünaslıq istiqamətinin mühüm əhəmiyyəti vardır. Hazırda ölkəşünaslıq və diyarşünaslıq biblioqrafiyası inkişaf dövrünü yaşayır və ölkənin və regionların kitabxana-informasiya təminatının optimallaşdırılması əsas vəzifə kimi qarşıda durur.

XX əsrin 90-cı illərindən başlayaraq yeni informasiya-kommunikasiya texnologiyaları kitabxana-biblioqrafiya proseslərinə fəal təsir etməyə başladı və bu ölkəşünaslıq və diyarşünaslıq da daxil olmaqla bir çox sahələrin inkişafına səbəb oldu. Bu proses ölkəşünaslığın və diyarşünaslığın həm ənənəvi və həm də elektron resurs bazasına təsir etdi. Hazırda ölkəşünaslıq və diyarşünaslıq biblioqrafik resurslarının tərkibinə xəritə kataloqları və biblioqrafik və faktoqrafik kartotekalar, tam mətnli verilənlər bazaları, ənənəvi və elektron informasiya daşıyıcıları daxil edilmişdir.

Ölkəşünaslığın resurs bazasının formalaşmasının müasir problemlərinin kifayət qədər tədqiq olunmaması ölkəşünaslıq biblioqrafik resurslarının yaradılmasının təşkilati-texnoloji və struktur-məzmunlu aspektlərinin tədqiqini aktual edir. Bununla əlaqədar olaraq ölkəşünaslıq biblioqrafik resurslarının yaradılması üzrə universal, elmi və kütləvi kitabxanaların təcrübəsinin sistemli öyrənilməsi, onların komponent tərkibinin analizi, optimal inkişafının nəzəri əsaslarının işlənilməsi qarşıda duran mühüm problemlərdəndir. Buna görə də “Azərbaycan Respublikasında ölkəşünaslıq üzrə biblioqrafik resursun inkişafı, müasir vəziyyəti və perspektivləri” mövzusu Azərbaycanda tədqiqini gözləyən məsələlərdəndir.

Qarşıda duran mühüm məsələlərdən biri də ölkəşünaslığın terminologiyasının düzgün və sistemli inkişafı məsələsidir. "Ölkəşünaslıq biblioqrafik resursları" anlayışının təyini, "ölkəşünaslıq biblioqrafiyası" anlayışlarıyla onun əlaqələri, "regional biblioqrafiya", "yerli nəşrlərin biblioqrafiyası", "ölkəşünaslıq ədəbiyyatının biblioqrafiyası" və "yerli xadimlərin biobiblioqrafiyası" terminlərinin düzgün izahı vacib məsələlərdəndir. Ölkəşünaslıq biblioqrafik resurslarının tədqiqi üçün onların tərkibinin analizi mühümdür. Kitabxanalar və ya başqa müəssisələrdə ölkəşünaslıq biblioqrafik informasiyasının təşkil olunmuş massivi, kadr və maddi-texniki potensialı istifadəçilərin ölkəşünaslıq üzrə informasiya ehtiyaclarının təmin olunması məsələsi bu gün üçün tədqiq olunması vacib olan problemlərdəndir.

Azərbaycan Respublikasının universal elmi və kütləvi kitabxana sistemində mövcud olan ölkəşünaslıq üzrə biblioqrafik resurslar apardığımız tədqiqatın obyektini təşkil edir. Tədqiqat işində M.F.Axundov adına Milli Kitabxana, AMEA Kitabxana-informasiya resurs mərkəzi, Mədəniyyət və Turizm Nazirliyinin kütləvi kitabxana sistemi tədqiqatın obyekti kimi götürülmüşdür. Ölkəşünaslıq və diyarşünaslıq üzrə biblioqrafik resursların inkişaf istiqamətləri tədqiqatın predmetini təşkil edir.

Tədqiqat işinin əhatə dairəsi ölkənin və regionların tarixi, iqtisadi və mədəni əlaqələrinin ölkəşünaslıq və diyarşünaslıq baxımından kompleks tədqiqi

təşkil edir.

Tədqiqatda ölkənin və onun regionlarının tarixi, iqtisadiyyatı və mədəni əlaqələri, regionların ərazisində ədəbiyyatın, incəsənətin və elmin inkişafını stimullaşdıran vahid milli mədəniyyət, regional ictimai-iqtisadi problemlərin həllində səylərin koordinasiyası, təbii və istehsal potensiallarından istifadə, maddi və əmək resursları, həmçinin vahid tarixi-mədəni ənənələrin inkişafı məsələləri əsas götürülmüşdür.

Ölkəşünaslıq üzrə biblioqrafik fəaliyyət və onun nəticəsi olan biblioqrafik resursun inkişafı çox onilliklər boyunca ölkənin və onun regional kitabxanalarının biblioqrafik fəaliyyətinin tarixi, nəzəri və tətbiqi xarakterli istiqamətlərindən biri kimi qalmaqda davam edir.

Keçmiş SSRİ məkanında Rusiya ölkəşünaslıq biblioqrafiyasının inkişafının nəzəri modelinin yaradılmasında N.V.Zdobnov, M.A.Briskman, V.A.Nikolayev, L.Y.Şrayberq, A.V.Mamontov, A.N.Buçenkov, N.N.Şerba, Q.A.Ozerov, A.N.Maslov, İ.İ.Mixlina, Y.N.Burinski, A.V.Suvorov, S.N.Akuliç və başqaları öz əsərlərində ölkəşünaslıq üzrə biblioqrafik resursun yaradılması metodikasının problemlərini tədqiq etmişlər.

"Ölkəşünaslıq və diyarşünaslıq üzrə biblioqrafik resurslar" anlayışlarının mahiyyətinin və onların komponent tərkibinin analizini Q.L.Levin, A.N.Maslov, İ.Q.Morqenştern, B.K.Stepanov, N.V.Şatalovoy elmi-tədqiqata cəlb etmişlər.

Elektron mühitdə ölkəşünaslıq üzrə biblioqrafik informasiyanın mövcudluğu problemləri rus tədqiqatçılarından N.M.Balatski, Y.D.Jabko, A.İ.Zemskov, Q.L.Levin, T.V.Maystroviç, S.D.Manqutovoy, A.N.Maslov, İ.Q.Morqenştern, V.K.Stepanov, Q.N.Şvetsov-Araqlar, L.Y.Şrayberq əsərlərində ölkəşünaslıq biblioqrafik informasiyasının problemləri tədqiqata cəlb olunur.

Ölkəşünaslıq və diyarşünaslıq biblioqrafik resurslarının inkişafının perspektivləri önəmli ölçüdə kadr potensialından asılıdır. Professional kitabxanaçı-biblioqrafın, ölkəşünas-biblioqrafın hazırlaması məsələləri İ.Q.Morqenştern, O.P.Korşunov, A.S.Çaçko, V.P.Leonov, M.İ.Davudov və başqa müəlliflər elmi əsərlərində kitabxanalarda ölkəşünaslıq üzrə biblioqrafik xidmət problemləri ilə məşğul olmuşlar. M.A.Briskman, A.V.Mamontlar, N.N.Şerba, İ.İ.Mixlina, N.N.Kuşnarenko və başqalarının əsərlərində isə müasir praktik ölkəşünaslıq fəaliyyətində mütəxəssis ölkəşünas-biblioqraflar qarşısında qoyulan tələblər öz əksini tapır.

Problemin mənbəşünaslığının tədqiqi göstərir ki, "Azərbaycan Respublikasında ölkəşünaslıq üzrə biblioqrafik resursun inkişafı, müasir vəziyyəti və perspektivləri" mövzusunun ayrı-ayrı aspektləri görkəmli azərbaycanlı alim və tədqiqatçıların sanballı elmi əsərlərində qismən araşdırılmışdır. Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Əməkdar elm xadimi, tarix elmləri doktoru, prof. A.Xələfov, prof. Z.Əliyev, prof. B.Allahverdiyev, prof. X.İsmayılov, fil.e.dok. A.Əliyeva-Kəngərli, dos.

N.İsmayılov, dos. K.Aslan, dos. E.Əhmədov, dos. M.Məmmədov, dos. S.Xələfova universal və sahəvi kitabxanaların istər kitabxanaşünaslıq, istərsə də biblioqrafiyaşünaslıq baxımından tədqiqinə dair sanballı elmi tədqiqat işi aparmışlar. Bu elmi əsərlərdə onlar ölkəşünaslıq və diyarşünaslığın kitabxana-informasiya təminatının müəyyən aspektlərinə də toxunmuşlar.

Professor A.Xələfovun zəngin elmi yaradıcılığında, professor X.İsmayılovun "Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi" adlı monoqrafiyasında və bir sıra elmi əsərlərində professor Z.Əliyevin bir sıra elmi əsərlərində, dos. N.İ.İsmayılovun elmi yaradıcılığında, tanınmış biblioqraf Ə.Əliyevin elmi yaradıcılığında bu problemin ayrı-ayrı aspektləri öz əksini tapmışdır.

Eyni zamanda mövzunun öyrənilməsi nəticə çıxartmağa imkan verir ki, ölkənin və diyarın resurs təminatı problemlərinə olan marağa baxmayaraq Azərbaycanda bu sahə yenidir və aparılmış tədqiqatlar ənənəvi və elektron texnologiyaların bir yerdə fəaliyyəti sayəsində Azərbaycan Respublikasının kitabxanalarının ölkəşünaslıq və diyarşünaslıq biblioqrafik resurslarının inkişafı məsələsini tədqiqata cəlb etməyi tələb edir.

Azərbaycan Respublikasında ölkənin və regionların kitabxanalarının ölkəşünaslıq biblioqrafik resurslarının inkişafının tarixi müxtəlif dərəcədə öyrənilmişdir. Biblioqrafiyaşünaslıq kafedrasının dosenti N.İ.İsmayılov və kafedranın baş müəllimi Q.S.Hacıyevanın "Kitabxanada ölkəşünaslıq (diyarşünaslıq) üzrə biblioqrafik fəaliyyət (nəzəri-tarixi, təşkilati-metodiki məsələləri)" adlı tədris vəsaitində və dos. A.Əliyevin Naxçıvan Muxtar Respublikasında kitabxana işinin tarixi və tarix üzrə fəlsəfə doktoru Ə.Nəcəfovun "Dağlıq Qarabağ Muxtar Vilayətində kitabxanaların tarixi ilə bağlı yazdığı dissertasiya işlərində, Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi İ.Bayramovanın "Azərbaycan Respublikasının regionlarının kitabxana-biblioqrafik informasiya təminatı sistemi: müasir vəziyyəti və perspektivləri (2000-2012-ci illər) (Gəncə-Qazax, Quba-Xaçmaz və Lənkəran iqtisadi regionlarının materialları əsasında)" mövzusunda dissertasiya işində respublikanın regionlarının kitabxana-biblioqrafik informasiya təminatı sisteminin müxtəlif problemləri araşdırılmışdır. Lakin "Azərbaycan Respublikasında ölkəşünaslıq üzrə biblioqrafik resursun inkişafı, müasir vəziyyəti və perspektivləri" mövzusu müstəqil tədqiqat obyekti olmamışdır. Ölkəşünaslıq və diyarşünaslıq biblioqrafiyasının inkişafına aşağıdakı vacib məsələləri həll etməklə nail olmaq olar.

- Ölkənin və regionlarının milli mənəvi dəyərlərinin öyrənilməsi, kitabxana-informasiya infrastrukturunun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi zərurəti;
- Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsində diyarşünaslıq və ölkəşünaslıq aspektlərinin tədqiq edilib nəticələrin ümumiləşdirilməsi;
- Regional kitabxanaşünaslığın ölkəşünaslıq və diyarşünaslıq üzrə nəzəri

və metodoloji əsaslarının işlənib hazırlanmasının vacibliyi;

- Ölkədə və regionlarda ölkəşünaslıq və diyarşünaslıq kitabxana-informasiya resurslarının formalaşmasına təsir edən amillərin tədqiq edilməsi zərurəti;

- Ölkənin və hər bir regionun ölkəşünaslıq və diyarşünaslıq üzrə kitabxana-informasiya infrastrukturuna verdiyi töhfələri regionların xarakterik cəhətlərinə uyğun öyrənib ümumiləşdirmək əsasında müvafiq sahə üzrə regional layihənin işlənib hazırlanması.

Azərbaycan Respublikasının Konstitusiyası, informasiya texnologiyaları və "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu, sahə üzrə qəbul edilmiş dövlət qanunları, kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq sahəsində aparılmış tədqiqatlar, kitabxanaşünas və biblioqrafiyaşünas alimlərin zəngin təcrübəsi nəticəsində meydana çıxan elmi-tədqiqat işlərinin tövsiyələri araşdırılan mövzu üçün nəzəri-metodoloji bazadır.

Məqalənin yazılmasında əsas məqsəd ölkəşünaslıq və diyarşünaslıq üzrə sənəd-informasiya resurslarının yaranması və inkişaf mərhələlərini tədqiqata cəlb etmək, ölkəşünaslıq və diyarşünaslıq üzrə biblioqrafik informasiya tələbatının xüsusiyyətlərini təhlil etmək və ölkəşünaslıq və diyarşünaslıq üzrə biblioqrafik informasiya sisteminin formalaşması və onun inkişaf perspektivlərini ilk dəfə tədqiqata cəlb etməkdən ibarətdir.

Tədqiqat zamanı araşdırılan problemlərə dair ədəbiyyatın nəzəri təhlilinə, həmçinin uzunmüddətli müşahidələrin nəticələrinə diqqət yetirilmişdir. Bununla yanaşı, tədqiqat aparılan sahə üzrə kitabxanalarının iş təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi, biblioqrafik informasiya tələbatçıları ilə söhbətlərin, müsahibələrin keçirilməsi metodlarına da müraciət olunmuşdur.

**Nəticə**

Nəticə olaraq qeyd etmək lazımdır ki, alim və mütəxəssislərin informasiya tələbatlarının formalaşmasında diyarşünaslıq və ölkəşünaslıq sorğuları mühüm yer tutur. Ona görə də Azərbaycan Milli Kitabxanası və regionlarda fəaliyyət göstərən MKS-lərlə birgə apardığı monitorinq zamanı diyarşününaslıq üzrə mövcud informasiya resurslarının, xüsusilə elektron informasiya resurslarının real informasiya tələbatına uyğunluğu məsələlərinin kompleks tədqiqat obyekti kimi diqqətdə saxlamalıdır. Xüsusilə hər bir region üzrə öz diyarı üzrə həm analitik, həm də ümumi xarakterli verilənlər bazasını yaratmalıdır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri, metodiki və təcrübi jurnal. 2008, № 2, s.6-29.
2. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti.- B.: BDU, 2001, 145 s. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. I hissə. B., 2004, 326 s.

3. Xələfov A.A. İnformasiya cəmiyyətinin formalaşmasında kitabxanaların vəzifələri// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi, nəzəri və təcrübi jurnal. 2005, №2, s.5-17.
4. İsmayılov X.İ. Azərbaycanda kitabxanaların metodik təminat sisteminin inkişaf tarixi (1918-19200-cı illər): Monoqrafiya. -Bakı, 2000, 415s.
5. İsmayılov N.İ. Azərbaycan biblioqrafiyasının biblioqrafiyası: Biblioqrafik vəsaitlərin göstəricisi. -Bakı: Mütərcim, 2003, 111 s.
6. İsmayılov N.İ. Kitabxanada ölkəşünaslıq (diyarşünaslıq) üzrə biblioqrafik fəaliyyət (nəzəri-tarixi, təşkilati-metodiki məsələləri) /N.İsmayılov, Q.Hacıyeva.- Bakı: Mütərcim, 2004.- 112 s.
7. Hacıyeva, Q. Müasir dövrdə ölkəşünaslıq biblioqrafiyasının təşkili /Q.Hacıyeva //Kitabxanaşünaslıq və biblioqrafiya.- 2011.- №1.- S.78-86.
8. Громов Г.Р. Национальные информационные ресурсы. Проблемы промышленной эксплуатации / Г.Р.Громов. — М.: Наука, 1988. 240 с.
9. Жабко Е.Д. Справочно-библиографическое обслуживание в электронной среде: теория и практика: моногр. / Е.Д.Жабко. СПб.: Изд-во РНБ, 2006. -388 с.
10. Земсков А.И. Электронные библиотеки: учеб. для студентов вузов культуры и искусств и др. высш. учеб. заведений / А.И.Земсков, Я.Л.Шрайберг. М.: Либерея, 2003. - 352 с.
11. Карташов Н.С. Региональное библиотековедение: науч.-практ. пособие / Н.С.Карташов. М.: Либерея, 2004. - 224 с.
12. Коршунов О.П. Библиографоведение: основы теории и методологии: учеб. для библ.-информ. фак. вузов / Моск. гос. ун-т культуры и искусств; О.П.Коршунов, Т.Ф.Лиховид, Т.А.Новоженова. М: ГРАНД-ФАИР, 2009. -336 с.
13. Крылова Т.Д. Краеведческие информационные ресурсы и развитие культурного потенциала региона / Т.Д.Крылова, Н.З.Шатохина// Библиотечное дело — 2003: гуманитарные и технологические аспекты развития. -М., 2003. -С. 117-118.
14. Кузнецова Т. Вызовы нового времени и кадровая ситуация: возможные пути решения // Независим, библ. адвокат. -2007. №-4. -С. 21-26.
15. Кушнаренко Н.Н. Краеведческая деятельность библиотеки / Н.Н. Кушнаренко. М., 1993. - 89 с.
16. Моргенштерн И.Г. Информационный и книжный мир. Библиография: (избранное) / И.Г.Моргенштерн. СПб.: Профессия, 2007. - 439 с.
17. Шрайберг Я.Л. Электронная информация и электронные ресурсы: публикации и документы, фонды и библиотеки / Я.Л.Шрайберг, А.И.Земсков. М.: Изд-во ФАИР, 2007. - 528 с.
18. Щерба Н.Н. Теория, методика, история краеведческой библиографии: указ. лит.: (1958-1985г.)/ Н.Н.Щерба; Центр. ГПБ им. Н.А.Некрасова. - М., 1986. - 155 с.
19. www.anl.az
20. www.azerbaijan-news.az
21. www.heydar-aliyev-foundation.org
22. www.preslib.az

# M.F.AXUNDOV ADINA MİLLİ KİTABXANADA SƏNƏD AXINININ TƏDQİQİNİN BƏZİ MƏSƏLƏLƏRİ

***Nigar Əlibəyli***
*BDU, Biblioqrafiyaşünaslıq kafedrası, Magistr*
*Nigaralibeyli267@gmail.com*

***Некоторые вопросы исследование документального потока в Национальной Библиотеки имени М.Ф.Ахундова***
***Резюме:*** *Документальный поток - это совокупность функционирующих в обществе первичных документов. А также изменяемое во времени множество документов, находящихся в движении, в динамике. В отличие от понятий документальный фонд, документальная БД, «поток» представляется некоторой абстракцией. Реальным объектом он становится лишь в процессе его выявления и анализа.*
***Some research issues of document flow at Azerbaijan National Library named M.F.Akhundov***
***Abstract:*** *The documentary flow a collection of primary documents functioning in society. As well as a time-varying number of documents, which are in motion and dynamics. In contrast to the concepts of documentary fund, documentary database, "document flow" is represented by some abstraction. The real object becomes only in the process of identification and analysis.*

***Açar sözlər:*** *Milli kitabxana, müasir kitabxanaçılıq, sənəd axını , biblioqrafik fəaliyyət, sənəd kütləsi,sənəd axınının tərkibi*
***Ключевые слова:*** *Национальная библиотека, современное библиотековедение, Документальный поток, Библиографическая деятельность, Масса документов, Состав документального потока*
***Keywords:*** *National library, modern librarianship, document flow, bibliographic work, documentary array*

Hər bir xalqın intellektinin əsasını, bünövrəsini təşkil edən, illərlə, əsrlərlə yaranan təcrübəni toplayan, bu gündən sabaha daşıyan xüsusi mühafizə obyektlərindən biri də kitabxanalardır. Kitabxanalar mədəniyyətin mühüm tərkib hissələrindən biridir. Azərbaycan ərazisində kitabxananın nə vaxt və harada yaranması haqqında dəqiq məlumat olmasa da, tarixin erkən çağlarından bu xalqın təhsilə, elmə, kitab və kitabxanalara böyük qiymət verməsi, onu qoruyub saxlaması haqqında faktlar vardır. Çox qədim tarixi kökləri olan Azərbaycan kitabxanaları bu gün çox böyük şəbəkəni əhatə edir. Bu kitabxana sistemində Azərbaycan Milli Kitabxanasının xüsusi yeri vardır. Milli Kitabxananın yaranması ideyası hələ XX əsrin əvvəllərində qabaqcıl ziyalılar tərəfindən irəli sürülmüşdür. Əsrin əvvəllərində yaranmış Azərbaycan Xalq Cümhuriyyəti də Milli Kitabxananın yaranmasını mühüm əhəmiyyət kəsb edən zəruri məsələ saymış və hətta bu barədə xüsusi qərar da qəbul etmişdir. (1, səh 98-99)

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası Azərbaycanda kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, xarici ölkələrdə Azərbaycan haqqında nəşr olunmuş çap məhsullarını və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə çap olunmuş məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli xəzinə və dövlət kitabsaxlayıcısıdır. Azərbaycanın baş kitabxanası nəinki Qafqazda, yerləşdiyimiz Avropa qitəsində, eləcə də bütün dünyada şöhrət tapan ən böyük milli kitabxanalardan və ən iri kitabsaxlayıcılardan biridir.

Kitabxana 1922-ci ildə yaradılmış, rəsmi açılışı isə 1923-cü ilin may ayının 23-də olmuşdur.

Günümüzdə isə Milli Kitabxanaya hər il minlərlə sənəd daxil olur. Sənəd axınının isə sahə üzrə sənəd-kommunikasiyalar sisteminin tərkibində xüsusi əhəmiyyəti vardır. Bu axın ən müxtəlif nəşriyyatların, dövlət və qeyri-dövlət qurumlarının nəşr etdiyi kitablardan və digər monoqrafik nəşrlərdən, o cümlədən elmi-texniki hesabatlardan və konfrans materiallarından, normativ-texniki sənədlərdən, ən müxtəlif dövri və ardıcıl davam edən nəşrlərdən ibarətdir.

Aşağıdakı cədvəldə isə nəşr tarixi üzrə Milli Kitabxananın fonduna daxil olan sənədlərin sayı göstərilmişdir:

| | | | | |
|---|---|---|---|---|
| **2010-2019** | **245838** | | **1800-1809** | **97** |
| **2000-2009** | **101754** | | **1790-1799** | **44** |
| **1990-1999** | **42681** | | **1780-1789** | **58** |
| **1980-1989** | **20152** | | **1770-1779** | **31** |
| **1970-1979** | **16982** | | **1760-1769** | **12** |
| **1960-1969** | **13731** | | **1750-1759** | **16** |
| **1950-1959** | **10073** | | **1740-1749** | **8** |
| **1940-1949** | **5117** | | **1730-1739** | **7** |
| **1930-1939** | **7135** | | **1720-1729** | **5** |
| **1920-1929** | **3766** | | **1710-1719** | **2** |
| **1910-1919** | **1264** | | **1700-1709** | **4** |
| **1900-1909** | **1245** | | **1690-1699** | **1** |
| **1890-1899** | **722** | | **1660-1669** | **1** |
| **1880-1889** | **313** | | **1610-1619** | **1** |
| **1870-1879** | **197** | | **1590-1599** | **1** |
| **1860-1869** | **172** | | **1540-1549** | **2** |
| **1850-1859** | **167** | | **1500-1509** | **1** |
| **1840-1849** | **147** | | **1490-1499** | **4** |
| **1830-1839** | **180** | | **1480-1489** | **1** |
| **1820-1829** | **116** | | **1440-1449** | **2** |
| **1810-1819** | **103** | | **0200-0209** | **1** |

Cədvəldən də göründüyü kimi, illər üzrə Milli kitabxanaya daxil olan sənəd axını artan xətlə çoxalır. Bu sənədləri növlərinə görə təsnifləşdirsək aşağıdakı cədvəl ortaya çıxar.

Dövri nəşrlərin sənəd axını isə 2016-cı ildə bu şəkildə olmuşdur:

| | |
|---|---|
| **Məqalələr** | **280732** |
| **Monoqrafiya** | **191269** |
| **Dövri mətbuat** | **1735** |
| **Kitab məqaləsi** | **674** |

Xüsusi ixtisaslaşmış fondlar isə müəyyən əlamətləri özündə birləşdirən xüsusi nəşrləri əhatə edir. Bunlara aşağıdakı fondları aid etmək olar:

| | |
|---|---|
| **Kitab** | **182165** |
| **Elektron resurslar** | **837** |
| **Kartoqrafik materiallar** | **10** |
| **Kitab məqaləsi** | **670** |
| **Film** | **1** |
| **Notlar** | **979** |
| **Dövri mətbuat** | **1712** |
| **Məqalələr** | **280226** |
| **Səsyazma** | **518** |
| **Audio kitab** | **21** |
| **Audio kaset** | **1** |
| **CD** | **175** |

İxtisaslaşmış fondun sənəd axının əsas hissəsini ilk növbədə:

- Qanunvericilik sənədləri
- Vəsaitlər
- Annotasiyalar, xülasələr, avtoreferatlar təşkil edir. Nəşrlərin ixtisaslaşmış fondunun sənəd axınına yaxından nəzər salaq:

| | |
|---|---|
| **Annotasiyalar, xülasələr, avtoreferatlar** | **11321** |
| **Biblioqrafik göstəricilər** | **969** |
| **Kataloqlar** | **378** |
| **Lüğətlər** | **1962** |
| **Ensiklopediyalar** | **1622** |
| **Vəsaitlər** | **33710** |
| **Qanun məqalələri** | **10** |
| **Bioqrafiya** | **613** |
| **Göstəricilər** | **178** |
| **Qanunvericilik** | **34733** |
| **Dissertasiyalar** | **9581** |
| **Ədəbiyyat icmalları** | **24** |

| | |
|---|---|
| **İcmallar** | **1218** |
| **Layihələrin yazılması** | **42** |
| **Filmoqrafiyalar** | **4** |
| **Soraq göstəriciləri** | **786** |
| **Statistikalar** | **1451** |
| **Texniki hesabatlar** | **50** |
| **Standartlar/Spesifikasiya** | **15** |
| **Qanun hadisələri və onlara şərhlər** | **12** |
| **Qanun məruzələri və xülasələri** | **12** |
| **Elmi əsərlər** | **904** |

Dilinə görə isə kitabxananın fondundakı sənədlərin sayı aşağıdakı cədvəldə əks olunmuşdur:

| | |
|---|---|
| **Azərbaycanca** | **344935** |
| **Rus dili** | **121763** |
| **İngilis dili** | **3334** |
| **Türk dili** | **814** |
| **Alman dili** | **668** |
| **Aa** | **403** |
| **Ukrayna dili** | **129** |
| **Fransız dili** | **116** |
| **Fars dili** | **89** |
| **Alman dili (qədim)** | **86** |
| **Ərəb dili** | **60** |
| **Çex dili** | **41** |
| **Macar dili** | **40** |
| **İtalyan dili** | **25** |
| **Aa** | **19** |
| **Oa** | **13** |
| **Latış dili** | **12** |
| **Polyak dili** | **8** |
| **Müəyyən olunmayıb** | **7** |
| **Gürcü dili** | **6** |
| **Belarus dili** | **4** |
| **Qazax dili** | **4** |
| **Moldovan dili** | **4** |
| **Slovak dili** | **4** |
| **Özbək dili** | **4** |
| **Bolqar dili** | **3** |
| **Eston dili** | **3** |
| **Osmanlı türkçəsi** | **3** |

| | |
|---|---|
| **Roman dili** | **3** |
| **Tatar dili** | **3** |
| **Türkmən dili** | **2** |
| **Rundi dili** | **2** |
| **Bable və Asturiya dili** | **1** |
| **Avstraliya dilləri** | **1** |
| **İngilis dili orta əsrlər** | **1** |
| **Fin dili** | **1** |
| **Müasir yunan dili** | **1** |
| **Latın dili** | **1** |
| **Çoxsaylı dillər** | **1** |
| **Sloven dili** | **1** |
| **İspan dili** | **1** |
| **Tacik dili** | **1** |

Cədvələ nəzər salsaq, görərik ki, kitabxanaya daxil olan sənədlərin dili, əsasən, Azərbaycan, rus və ingilis dilidir. Dili isə müəyyən olunmamış 7 adda sənəd mövcuddur.

- Şərq dillərində (ərəb, fars, türk)
- İngilis dilində 15.6 faiz
- Alman dilində 14.6 faiz
- Fransız dilində 13.2 faiz

Yuxarıda qeyd edilən ədəbiyyat fondun əsasını təşkil edir. (1, səh.108-109)

Nəşr yerlərinə görə ədəbiyyat axını isə aşağıdakı cədvəldə əks olunmuşdur:

| | |
|---|---|
| **Azərbaycan** | **405385** |
| **Rusiya** | **54290** |
| **Ukrayna** | **1901** |
| **İngiltərə** | **1361** |
| **Qırğızıstan** | **1311** |
| **Türkiyə** | **950** |
| **Gürcüstan** | **943** |
| **Belarus** | **910** |
| **Özbəkistan** | **767** |
| **Almaniya** | **674** |
| **İran** | **417** |
| **Qazaxıstan** | **404** |
| **ABŞ** | **382** |
| **Ermənistan** | **359** |
| **Moldova** | **279** |

| | |
|---|---|
| **Nyu-York** | **267** |
| **Yer yoxdur/ məlum deyil** | **250** |
| **Tacikistan** | **171** |
| **Avstriya** | **127** |
| **Latviya** | **93** |
| **Macarıstan** | **62** |
| **Çex Respublikası** | **56** |
| **İsveçrə** | **54** |
| **İsveç** | **47** |
| **Estoniya** | **44** |
| **Koreya (cənub)** | **43** |
| **Türkmənistan** | **42** |
| **Polşa** | **35** |
| **Bolqarıstan** | **33** |
| **Fransa** | **33** |
| **Çin** | **27** |
| **Kolumbiya federal dairəsi** | **25** |
| **İsrail** | **25** |
| **Litva** | **24** |
| **Danimarka** | **20** |
| **Koreya (şimal)** | **20** |
| **Misir** | **20** |
| **Yaponiya** | **19** |
| **Böyük Britaniya** | **17** |
| **Belçika** | **15** |
| **Hindistan** | **15** |
| **İtaliya** | **12** |
| **Niderland** | **12** |
| **Birləşmiş Ərəb Əmirlikləri** | **12** |
| **Kanada** | **12** |
| **Amerika Samoası** | **11** |
| **Florida** | **11** |
| **Nyu-Cersi** | **11** |
| **Slovakiya** | **11** |

Göründüyü kimi, müasir kitabxana öz elektron sənəd fondunu, elektron resurslarını mütəmadi olaraq zənginləşdirir, verilənlər bazası yaradır, istənilən elektron materialı bütün sutka boyu, həm də kitabxana binasından kənarda belə çatdıra bilir. Yəni kitabxana bu gün kitab əldə etmək, onu saxlamaq, qorumaq və oxuculara müvəqqəti istifadəyə vermək kimi ənənəvi funksiyaları

ilə yanaşı, həm də bütün kitabxana proseslərinin tam kompüterləşdirilməsi nəticəsində virtual (elektron) informasiya mərkəzinə çevrilməkdədir.

**Ədəbiyyat**


1. Azərbaycan Milli Kitabxanası - 90: məqalələr məcmuəsi /baş red. və burax. məsul K.Tahirov; red. A.Abdullayeva.- Azərbaycan Milli Kitabxanası.- Bakı, 2013.- 152 s.
2. Xələfov A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi [Mətn] Abuzər Xələfov.- Bakı: Azərnəşr, 2006.- 312 s.
3. Tahirov Kərim Məhəmməd oğlu. Dünya milli kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası [Mətn]: dərs vəsaiti K.M.Tahirov; elmi red. A.Xələfov; rəyçi. K.Aslan, P.Kazımi; Azərb. Resp. Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti, 2013.- 211s, [1]
4. http://ek.anl.az/search/query?theme=e-kataloq

# MÜASİR KİTABXANA-İNFORMASİYA FƏALİYYƏTİNDƏ LAYİHƏ MENECMENTİ

***Elnur Nəzərəliyev***
*AMEA-nın Məhəmməd Füzuli adına*
*Əlyazmalar İnstitutunun dissertantı*
*Bakı şəhəri XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi*
*nazaraliyev_elnur@mail.ru*

***Проектной менеджмент в современной библиотечно информационной деятельноси***
***Резюме:*** *Статья исследует современную информационную деятельность библиотеки и задачи проектного менеджмента библиотеки. В том числе, в статье опубликованы разные проекты, которые организовываются с помощью библиотек.*
***Project management in library-information activity***
***Abstract:*** *The article explores the modern library information activity project management problems in the contest of library information activity. At the same time in the article were reflected different projects enforce by libraries.*

***Açar sözlər:*** *müasir kitabxana informasiya fəaliyyəti, layihə menecmenti, kitabxanaların maddi texniki bazası, müəllif hüquqlari problemi.*
***Ключевые слова:*** *современные виды деятельности библиотек, управление проектом, материально-техническая база библиотек, проблемы авторских прав.*
***Keywords:*** *modern library activities, project management, the material-technical base of libraries, copyright issue.*

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra beynəlxalq münasibətlərin müstəqil subyekti olaraq müxtəlif strukturlara, birliklərə, qurumlara üzv olmağa başladı. Xüsusilə, Avropa birliyi və Avropa standartlarını təmin edəcək addımlar qətiyyətlə atılır, ölkənin dinamik inkişafının təmin olunması istiqamətində əməli işlər görülürdü.

Elm və təhsilə informasiya xidməti kitabxana fəaliyyətinin tarixi və ənənəvi predmetidir. Cəmiyyətin sosiallaşması ilə kitabxanalar yeni sosial funksiyaları öz üzərinə götürsə də, onun tarixi vəzifələri dəyişmədi. Təhsilə və elmin inkişafına informasiya xidməti kitabxanaların yaranmasından başlayaraq onun əsas vəzifəsi olaraq qarşıya çıxır.

Müasir kitabxana-informasiya fəaliyyəti elm və təhsilə informasiya təminatında layihə menecmenti istiqamətində fəaliyyətinə yenidən və müasir tələblər çərçivəsində baxmalı, layihələrin stareji əhəmiyyəti, texnoloji icra prosesi, innovativlik səviyyəsi, rasionallığı kitabxana-informasiya fəaliyyətinin əsas prinsiplərinə əsaslanmalıdır.

Kitabxanaların həyata keçirdiyi müasir layihələri aşağıdakı kimi təsnifləşdirmək olar.

Ərazi prinsipinə görə: 1. Beynəlxalq layihələr, 2. Regional layihələr.

Məzmununa görə: 1. Universal layihələr, 2. Sahəvi layihələr.

Mahiyyətinə görə: 1. İnnovativ layihələr (startaplar), 2. İnteqrasiya layihələri.

Maliyyə tutumuna görə: 1. Kommersiya layihələri, 2. Sosial layihələr.

Kitabxanaların maddi-texniki bazası və layihələrin idarə olunması (Proekt menecment) kitabxana-informasiya fəaliyyətinin əhəmiyyətli istiqamətidir.

Kommersiya tipli Elektron kitabxanaların inkişaf perspektivləri və vəzifələri olaraq bunları qeyd etmək olar:

- Elektron nəşrlər axınının artması hesabı ilə kitabxana fəaliyyətinin planlaşdırılmasına yeni yanaşma;
- Bütün kateqoriyalardan olan istifadəçilər üçün kitabxana fondları və məlumatın eyni səviyyədə əldə olunmasını təmin etmək;
- Kitabxanlarda və kitabxanalar üçün elektron resurslar; elektron partlayışın aradan qaldırılmasında kitabxanaların rolu;
- Açıq məlumat arxivlərinin yaradılması;
- Kitabxanalar və tədris, e-learning;
- Müəllif hüquqları və intellektual mülkiyyət hüququn qorunması.

Elektron nəşrlərin sayı xüsusilə elm sahəsində çox sürətlə artmaqdadır. Nəşr olunan hər 3 jurnaldan 1-i referativ jurnallardır ki, bunların da elektron və ya çap formasında olmasından asılı olmayaraq əksəriyyəti ödənişli əsaslarla təqdim olunur. Buna görə də nəşrlərin əldə edilməsi məsələsi elmi araşdırmaların inkişafına yönələn ən vacib məsələdir. İnternet vasitəsilə tədqiqatçı işlərinin nəşrlərinin sərbəst əldə edilməsinə imkan yaradan Açıq Arxiv Təşəbbüsü bu məsələnin həllinə yönəlmişdir.

ABŞ-da 1999-cu ildə biologiya elmləri və biotibb sahəsində jurnalların elektron arxivi kimi yaradılan **PubMedCentral** dünyanın aparıcı jurnallarına nəşriyyatlarla müqavilə əsasında ödənişsiz girişi təmin edir (o cümlədən, Elsevier, Springer, Blackwell kimi nəşriyyatlara).

Elektron nəşrlərin istifadəsi sahəsində səylərin birləşdirilməsi məqsədilə Rusiyada 2002-ci ilin noyabrında Kitabxana Konsorsuimu kimi fəaliyyət göstərən təşkilat yaradıldı. Qeyri-kommersiya əməkdaşlığı olan "Milli Elektron İnformasiya Konsorsiumu"na **(«Национальный Электронно Информационный Консорциум»[11])** Rusiya Dövlət Kitabxanası, Rusiya Milli Kitabxanası, xarici ədəbiyyatın Ümumrusiya dövlət kitabxanası daxil oldular.

[11]http://www. neicon.ru

Təəssüflə qeyd edilməlidir ki, Azərbaycanda kitabxana-informasiya təminatı sahəsində belə inteqrasiya prosesləri həyata keçirilmir. Eləcə də informasiya bazarının öyrənilməsi, istehlakın öyrənilməsi, bazarın proqnozlaşdırılması kimi fəaliyyətə də beynəlxalq təcrübəni öyrənmək və tətbiq etmək baxımından ehtiyac var. Bu istiqamətdə aşağıda qeyd olunan istiqamətlərdə əməli işlər görülməlidir.

**Lisenziyalaşdirma problemi.**

Müasir kitabxana fəaliyyətində mühüm yeri qlobal şəbəkədə mövcud olan tammətnli sənəd və resurslara əlçatarlığın təmin olunması problemidir. Bu planda əsas əhəmiyyət kəsb edən problem lisenziyalaşdırma - qlobal şəbəkədən əldə edilmiş materialların statusunun müəyyənləşdirilməsidir. Kitabxanalar elektron resurslardan istifadə zamanı yeni bir problemlə üzləşirlər ki, bu da məlumat çatdırıcıları ilə müqavilə məsələsidir. Lisenziyalaşdırma zamanı bəzi aspektlər mühüm əhəmiyyət kəsb edir. Məsələn, vəziyyətin proqnozlaşdırılması (əgər abunə yazılışı dayandırılsa, jurnalın köhnə nömrələrinin aqibəti necə olacaq, istifadəçilər çap formasından istifadə edəcəklərmi?), müəllif hüquqlarını öyrənilməsi (milli və beynəlxalq qanunlar).

Qeyd emək lazımdır ki, lisenziyalaşdırmanın vahid sxemi hələlik mövcud deyildir. Lakin belə problemli ümumi cəhətləri sadalamaq olar:

- Lisenziyalaşdırma təcrübəsinin çatışmazlığı;
- Xarici partnyorlarla danışıqların çətinliyi, eyni zamanda lisenziya alacaq ölkələrdəki dil müxtəlifliyi və ölkələrin qanunlarındakı fərqlilik;
- Danışıqlar aparılmasında təcrübənin az olması;
- Elektron resurs bazarının qeyri-stabilliyi;
- Kitabxanalarda maliyyə vəsaitinin çatışmazlığı.

Kitabxanalar özləri bütün sadalanan problemləri həll etmək qüdrətində deyil. Gözləmək olar ki, bu sahədə hüquqşünasların fəaliyyəti artacaqdır. Burada sadalanan məsələlərdə kitabxanaçıların təcrübə qazanması heç də az əhəmiyyət kəsb etmir. Mövzunu məqsədyönlü şəkildə kitabxanaçıların təhsili və yenidən hazırlanması proqramına daxil etmək lazımdır.

Lisenziyalar və müəllif hüququ haqqında qanunlar intellektual və elmi sənədlərdən vicdanla istifadəni təmin edir. Kitabxanaları bir məsələ narahat edir ki, lisenziyalar kitabxanalararası abonementin fəaliyyətini məhdudlaşdırır və bununla da kitabxananın yerləşdiyi ölkənin deyil, jurnalın nəşr olunduğu ölkənin qanunlarına əsaslanır. Digər tərəfdən, kitabxanalar başa düşməlidirlər ki, nəşriyyatlar kommersiya təşkilatları olduqları üçün öz nəşr etdikləri materialların istifadəsindən gəlir əldə etməlidirlər. Lisenziyalaşdırmaya dair damşıqlara təsirlərini artırmaq üçün elmi və akademik cəmiyyətlər konsorsium və şəbəkələrdə birləşməyə başlamışlar.

**Administrativ problemlər.** Kitabxanaçılar elm və təhsil sisteminə informasiya təminatı sahəsində əsas kadr heyətini təşkil etməlidir. İT mütəxəssisləri və proqram təminatı, dilçi mütəxəssislər kitabxananın funksional sahələrinə cəlb olunmalı, fəaliyyətin yüksək keyfiyyətinə və rasionallığına xidmət etməlidirlər.

**Avadanlıq və texniki təchizat.** Qeyd etməliyik ki, kitabxana-informasiya təminatının müasir innovativ layihələri ənənəvi olaraq çox böyük vəsaitlər tələb edir. Alimlər, müəllimlər, tələbələr və digər istifadəçi qrupları üçün informasiya əldə olunmasını təmin etmək məqsədilə kitabxana müvafiq sayda istifadəçi kompüterinə malik olmalıdır. Texniki və proqram təminatı da dövrlə uyğun olmalıdır. Hər 2-3 ildən bir onu daha yeni model və versiya ilə əvəz etmək lazımdır. Əgər kitabxana abunə yazılışında vəsaitə qənaət edə bilərsə, bu vəsait avadanlıq və şəbəkəyə qoşulmağa sərf olunacaqdır.

**Çap və elektron versiya.** Etiraf etməliyik ki, ali təhsil müəssisələri elektron kitablarla yanaşı, çox sayda ədəbiyyatın çap olunmuş versiyalarını da komplektləşdirmək məcburiyyətindədir. İnformasiyanın çap versiyası əvvəlki kimi rəngli illüstrasiyalar üçün əsas daşıyıcı olaraq qalır; Mətnləri çap formasında ekranda olduğundan daha asan oxumaq mümkündür. Elmi və riyazi simvolların təqdim olunması daha mürəkkəb daxili kodlaşdırma və proqramlar tələb etdiyindən onları hələ çap versiyasında ötürmək daha asandır. Digər tərəfdən, elektron məhsullar istifadəçiyə illüstrasiyanın müxtəlif hissələrinin miqyasını dəyişməyə, hipermətn isnadlardan istifadəyə, səs fayllarına və interaktiv mətn elementlərinə girişə imkan yaradır. Hələlik elektron jurnalların arxivləşdirilməsi standartlaşmamışdırsa jurnalların çap versiyası fondlardan çıxarıla bilməz. Jurnalın həm elektron, həm də çap formasının paralel olaraq nəşr edilməsi isə onun qiymətinin yüksək olmasına səbəb olur ki, bu da kitabxanaların öz büdcələrini qənaətlə istifadə etməyə imkan vermir. Buradan aydın olur ki, hələ bir müddət jurnalların elektron versiyası çap versiyasına əlavə olaraq nəşr ediləcək ki, bu da bütün dünyada kitabxanaların müxtəlif tələbatlarına cavab verəcəkdir.

**Tam və natamam mətnlər.** Kitabxanaçılar və alimlər bəzi nəşriyyatların "tammətn" kimi təqdim etdikləri sənədlərdən narazılıq edirlər. Kitabxanaçılar göstərirlər ki, tibbi jurnalların redaksiyasında olan və tibbi göstəricilərə daxil edilən məktublar "tammətnli" jurnallarda nəşr edilmir. Kimyaçı alimlər də jurnallarda redaksiyaya məktubların olmamasından narahatdırlar, çünki bu məktublarda laboratoriyalarda baş verən qəzalar və sıradan çıxmış avadanlıqlar haqqında məlumatlar verilir. Bir çox tammətnli məqalələrə istifadəçilər üçün çox əhəmiyyətli olan cədvəllər, qrafiklər, yüksək keyfiyyətli foto şəkillər daxil edilmir.

**Redaktəetmə.** İstehlakçı və oxucular əmin olmalıdırlar ki, onların müraciət etdikləri materiallar heç bir dəyişiklik edilmədən olduğu kimi təqdim olunur. Buna görə də hər bir faylın müvafıq olaraq təhlükəsizliyinin təmin

edilməsi vacib şərtdir. Alim məqaləni oxuyan zaman dəqiq bilməlidir ki, bu məqalə bütövdür, referat deyildir.

**Əlavə ödəniş.** Elsevier kimi qabaqcıl nəşriyyatlar nəşr etdikləri jurnalları tamamlayıcı funksiyalarda təmin etməyə başlamışlar ki, bu da onların qiymətlərinin artımına səbəb olmuşdur: indeksləşdirmə, hipermətn istinadlar, göstəricilər, illüstrasiyalar və s. Bu isə kifayət qədər zəhmət tələb edən, mürəkkəb informasiyanın emalı prosesidir, belə ki, format müxtəlifliyi, daxili kodlaşdırma sxemi, faylların strukturu mövcuddur. Hələlik elektron nəşrlərin tamamlayıcı funksiyalarına aid olan standartlar mövcud deyildir. Bu isə o deməkdir ki, kitabxanalar nəşriyyatların məhsullarının müxtəlifliyi ilə əlaqədar olan problemləri özləri müstəqil olaraq həll etməlidirlər.

**Abunə qiymətləri.** Kitabxanalarda ümumi qəbul olunmuş stereotip mövcuddur ki, elektron jurnalların nəşri çap nəşrlərindən az olmalıdır. Çünki elektron nəşrlər üçün kağıza, çapa, cildləməyə, mühafizəyə və poçtla göndərmə xərclərinə ehtiyac yoxdur. Lakin bu zaman başqa xərclər meydana çıxır ki, bunlar da texniki təminat, elektron işləmə və tədqiqatla bağlıdır. Hər iki nəşr formasını müqayisə etdikdə kompüterlərin, avadanlıqların yenilənməsinin və bütün heyətin təhsilinin yüksək qiymətlərini nəzərə almaq lazımdır. Nəşriyyatlar xeyriyyə təşkilatları deyildir və onlar öz məhsullarının qiymətlərini özləri üçün daha əlverişli səviyyədə saxlayacaqlar. Belə hadisə də baş verə bilər ki, jurnalların qiymətləri çox yüksələ bilər və kitabxanalar onlar üçün pul ödəməyə razı olmazlar. Bu zaman nəşriyyatlar seriyalı nəşrlər bazarında sıxışdırılacaq və ya tamamilə bazardan çıxmalı olacaqlar. Kitabxanaların narahat olduqları bir məsələ də budur ki, onlar elmi sənədlərə yalnız daxil olmaq üçün pul ödəyirlər, əslində isə bu sənədləri özəlləşdirə bilmirlər. Abunə yazılışından imtina edərlərsə, sərf etdikləri vəsaitin əvəzində onlara heç nə qalmayacaq. Bu zaman onlar hakimiyyət və vergi ödəyicilərinin nəzərində öz xərclərini sübut edə biləcəklərmi? Bu problem elmi konsorsium və şəbəkələrin yaradılması ilə həll edilə bilər. Belə ki, daha nəhəng birliklərin resurslarından korporativ istifadə imkanı yarana bilər.

**İnformasiyanin mötəbərliyi.** Elektron jurnalların elmi informasiyanın nüfuzlu daşıyıcısı kimi qəbul edilməsi üçün nəşriyyatlar onların nəşrinə çox ciddi yanaşmalıdırlar. Bunun üçün elektron jurnalların məzmun və mahiyyətinə təsir edə biləcək müvafiq təhlükəsizlik tədbirlərinin görülməsi mütləqdir. Eyni zamanda alimlərin bu və ya digər məqalə ilə əlaqədar öz xəbərdarlıqlarını yerləşdirmələrinə imkan yaratmaq lazımdır ki, müəllif buna cavab verə bilsin. Xəbərlər, çat, şəxsi veb-səhifələr şəbəkəsinin mövcud olduğu bir zamanda nəşriyyatlar oxucuları jurnalın kimlər üçün nəzərdə tutulması barədə aydın surətdə məlumatlandırmaq üçün vəsait axtarmalıdırlar. Kitabxanaçılar və alimlər təhsil müəssisələrinin rəhbərliyini inandırmalıdırlar ki, elmi elektron jurnallar çap formasında olan öz analoqları ilə eyni elmi status daşıyırlar.

Lisenziyalar və müəllif hüququ haqqında qanunlar intellektual və elmi sənədlərdən vicdanla istifadəni təmin edir. Kitabxanaları bir məsələ narahat edir ki, lisenziyalar kitabxanalararası abonementin fəaliyyətini məhdudlaşdırır və bununla da kitabxananın yerləşdiyi ölkənin deyil, jurnalın nəşr olunduğu ölkənin qanunlarına əsaslanır. Digər tərəfdən, kitabxanalar başa düşməlidirlər ki, nəşriyyatlar kommersiya təşkilatları olduqları üçün öz nəşr etdikləri materialların istifadəsindən gəlir əldə etməlidirlər. Lisenziyalaşdırmaya dair danışıqlara təsirlərini artırmaq üçün elmi və akademik cəmiyyətlər konsorsium və şəbəkələrdə birləşməyə başlamışlar.

**Arxivləşdirmə.** Elektron arxivlərin yaradılması, mühafizəsi bütün nəşr olunan materialların surətlərinin mühafizəsindən fərqlidir. Belə arxivləşdirmə materiallara daim müraciət olunmasına, yenilənməsinə, onların gələcəkdə də istifadəsinə zəmanət verir.

Lakin mühafizə olunan materialların tamlığına xidmət edən avadanlıqların qiymətləri, mütəxəssislərin əmək haqları, təhlükəsizlik və iqlimə nəzarət sistemlərinin qiymətləri çox yüksəkdir. Bəzi nəşriyyatlar hesab edir ki, onların nəşr etdikləri jurnalların arxiv mühafizəsinə milli kitabxana, böyük universitet kitabxanaları, arxiv mərkəzləri və ya kitabxana koalisiyaları cavabdeh olmalıdır. Elsevier kimi bəzi nəşriyyatlar öz nəşrlərinin arxiv mühafizəsini özləri təmin edirlər.

**Müəllif hüquqları problemi.** Amerika və Avropada fəaliyyət göstərən müəllif hüquqları haqqında qanunlar əhəmiyyətli dərəcədə fərqlənir. Əgər hesab etsək ki, elmi məlumat mübadiləsi sərbəst, onların əldə edilməsi isə onlayn olaraq həyata keçirilməlidir, o zaman müəllif hüquqları haqqında yeni qanunlar qəbul edərkən sənədlərin mübadiləsi və əldə edilməsi proseslərinin beynəlxalq aspektləri nəzərə alınmalıdır. Əgər ölkə qanunları müvafiq qanunların daha çox məhdudiyyətlər tələb etdiyi digər ölkələrdə istehsal olunan materialların sərbəst eksport olunmasına icazə verirsə, bu zaman hüquqi xaosun yaranması qaçılmazdır. Baxmayaraq ki, intellektual mülkiyyət mühafizə olunmalıdır, lakin bu zaman qanunlar sənədlərin intellektual istifadəsini həddən artıq məhdudlaşdırmamalıdır.

**Texniki və texnoloji problemlər:** Bu problemlərin həlli ilə əlaqədar olaraq kitabxana-informasiya müəssisəsi maddi-texniki bazasından asılı olaraq aşağıdakı məsələləri həll etməlidir.

- İnformasiya fondunun formalaşdırılması texnologiyasının hazırlanması;
- Məlumatın eyniləşdirilməsi və təsviri-məlumat obyektlərinin seçilməsi, meta informasiyanın effektiv sisteminin yaradılması;
- Məlumatın mühafizəsi və yayılması problemi (məlumatın yayılma sürəti, məlumat fondlarının istifadəsinə nəzarət, hesabat və s.).
- Təşkilati problemlər:

- Elektron kitabxananın işlənilməsi və istifadəsi üçün müxtəlif profilli mütəxəssisləri birləşdirən ixtisaslı kollektivlərin yaradılması zərurəti;
- İxtisaslı kadrların çatışmazlığı və onların hazırlanması üçün şəraitin olmaması.
- İqtisadi problemlər:
- Elektron kitabxana yaradılmasının yüksək qiyməti;
- Avadanlıqların yüksək qiymətləri;
- Fondun təşkili və istifadəsinə sərf olunan əmək qabiliyyəti.
- Hüquqi problemlər:
- Elektron kitabxananın statusunun müəyyən edilməsi, elektron kitabxananın hansı hüquq və öhdəlikləri vardır;
- Elektron kitabxanadakı məlumatın statusunun müəyyən edilməsi - məlumatın nüfuzluluğunun təmin edilməsi, onun əslinə uyğun olub-olmaması (əgər yalnız elektron versiyadadırsa), elektron abunə yazılışı;
- Elektron kitabxanada mövcud olan məlumatdan kommersiya məqsədləri üçün istifadə olunması problemi;
- Vətəndaşların məlumat əldə etmək haqqında konstitusiya ilə müəyyən olunmuş hüquqları və məlumatın ayrı-ayrı növlərinin yayılmasına qoyulan məhdudiyyətlərlə bağlı problemlər (şəxsi, gizli və s. məlumatlar).
- Sosial problemlər:
- Elektron məlumatların və elektron kitabxanaların yaradılmasına elmi cəmiyyətin hazır olmaması və öz fəaliyyətlərinə tətbiq edə bilməməsi;
- Müəllim və tələbələrin elektron kitabxanalardan istifadə etməkdə və təhsil prosesində istifadədə az təcrübəli olmaları.

Bütün sadalanan problemlər yalnız bir təşkilat tərəfindən həll edilməsi qeyri-mümkün olan problemlərdir və informasiya texnologiyaları, idarəetmə, hüquq və təhsil sahəsində fəaliyyət göstərən mütəxəssislərin qüvvələrini birləşməsini, imkanların inteqrasiyasını tələb edir. Bu problemlərin həlli eyni zamanda böyük maliyyə və intellektual investisiya tələb edir. Elektron kitabxanaların yaradılmasına lazımi işi peşəkarcasına və keyfiyyətli həyata keçirən ixtisaslaşmış müəssisələr və yaradıcı kollektivlər cəlb edilməlidir. Eyni zamanda dəqiq və aydın konsepsiya və işin effektiv olaraq əlaqələndirilməsi vacibdir. Əks halda gözlənilən nəticənin alınması qeyri-mümkün ola bilər.

Yaxın illərdə informasiya bazarının tənzimlənməsi məqsədi ilə dünya çapında bir sıra hüquqi tədbirlər həyata keçirilməlidir. Bir tip beynəlxalq qanunvericilik bazasının təmin olunması elektron kitabxana resurslarının genişlənməsi və müasir kitabxana-informasiya fəaliyyətinin daha artıq məzmun daşıyacağını müşahidə edəcəyik.

- Müəyyən müddət ərzində bütün şəbəkə elektron kitabxanalara nəzarət olunmalıdır;

- Bu müddətdə EK-ın status və fəaliyyət reqlamentini təyin edən qanun hazırlanmalıdır;
- EK-ın müəlliflə razılaşma mexanizmi hazırlanmalıdır;
- EK-lar müəllifin razılığı ilə onun əsərlərinə ödənişli giriş etməli və ya məlumatı şəbəkədən çıxarmalıdır.

Elektron kitabxanaların inkişafının vacibliyi milli mədəniyyətin qorunub saxlanılması, elmin və təhsilin dinamik inkişafını təmin olunmasının ən əhəmiyyətli üsulu kimi dövlətin həll edəcəyi prioritet məsələlərdən biri olmalıdır.

Ölkəmizdə inkişaf etmiş digər ölkələrlə müqayisədə hələ bu məsələnin geniş miqyaslı həyata keçirilməsi üçün heç bir xüsusi proqramlar mövcud deyildir. Elektron kitabxanaların inkişafı haqqında aydın konsepsiya işlənib hazırlanmamışdır.

Elektron kitabxanaların yaradılmasının və bu sahədə müvafıq tədqiqatların aparılmasının yeganə düzgün yolu həmin məsələlərin milli və dövlət səviyyəsində həll edilməsidir. Bu sahədə görülən işlər çox profılli olduğundan dilçilik problemləri və rabitə texnalogoyalarını da əhatə edir. Eyni zamanda bu istiqamətdə həyata keçirilməli məsələlər əlaqələndirilməsi və böyük həcmdə maddi vəsait tələb olunur.

**Ədəbiyyat**


1. Xələfov A.A. Kitabxana və cəmiyyət. Bakı, Azərnəşr, 2012, 305 s.
2. Mahmudov M.C. Bolonya prosesi problemlər, perspektivlər reallıqlar: [monoqrafiya] /.- Bakı: Elm və Təhsil, 2010.- 503.
3. Kazımi P.F. İnformasiya mühəndisliyi (müasir kitabxana fəaliyyətində). Bakı, BDU, 2013, 235 s.
4. Оганова О.А. Совокупный потенциал академических библиотек как ресурс развития науки, Новосибирск, 2012.
5. www.mendeley.com
6. www.thomsonreuters.com
7. http://www.wdl.org/ru/
8. www. gallica.bnf.fr
9. http://www. neicon.ru

# ƏSASLI BİOBİBLİOQRAFİK GÖSTƏRİCİ

**[Abdulla Şaiq: Biblioqrafiya. Uşaq ədəbiyyatı seriyası**/ Tərt. ed.: N.Tahirova, L.Qafarova, T.Əzizova; İxtisas red. Ş.Qəmbərova; red. G.Səfərəliyeva; Respublika Uşaq Kitabxanası. - Bakı, 2016. - 448 s.]

Bu günlərdə F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsus "Uşaq ədəbiyyatı xəzinəsindən" seriyası altında növbəti biobiblioqrafik göstərici işıq üzü görmüşdür.

Biobiblioqrafik göstərici Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, görkəmli şair Abdulla Şaiq Talıbzadənin anadan olmasının 135 illiyi münasibətilə nəşr olunmuşdur. Əsər kitabxananın əməkdaşları Əməkdar mədəniyyət işçisi N.Tahirova, L.Qafarova və T.Əzizova tərəfindən tərtib edilmişdir. Göstəricinin strukturu haqqında məlumat verən "Tərtibçilərdən" sərlövhəli yazı və ədib haqqında dolğun informasiya əks etdirən fil.e.d., prof. A.Bayramoğlu tərəfindən "Abdulla Şaiq (1881-1959)" başlıqlı geniş oçerk yazılmışdır. Günümüzdə biblioqrafik göstəricilərə olan müxtəlif münasibət "Zər qədrini zərgər bilər" deyimi ilə A.Bayramoğlunun qələmində öz birmənalı təsdiqini tapmışdır. Biblioqrafik göstəricilər aid olduğu mövzu üçün ayna rolunu oynayır.

Professor A.Bayramoğlu oçerkdə A.Şaiqin görkəmli ədib C.Məmmədquluzadənin əsərlərində adına tez-tez rast gəldiyimiz Şeytanbazar məhəlləsində (Tiflisdə) anadan olduğu tarixdən başlayaraq 78 illik bir ömrün həyat və yaradıcılığı haqqında geniş avtobioqrafik məlumat təqdimetməklə yanaşı, şairin əsərləridən bəzilərini filoloji aspektdən təhlil etmşdir.

Biobiblioqrafiya xarakterli tərtib edilmiş biblioqrafik göstərici tərtibçi-müəlliflərin də qeyd etdiyi kimi dörd hissədən ibarətdir. Birinci hissədə Abdulla Şaiqin əsərləri, ikinci hissədə Abdulla Şaiq haqqında, üçüncü hissədə müəllifin müxtəlif dillərdə çap olunmuş əsərləri və onun haqqında nəşr olunmuş mənbələrin biblioqrafik təsvirləri əks etdirilmişdir. Dördüncü hissədə məlumat-informasiya aparatı təqdim edilmişdir. Sonda beşinci hissə adlandıra biləcəyimiz "Əlavələr" bölməsi tərtib edilmişdir.

Biblioqrafik göstəricidə tərtibi böyük zəhmət tələb edən xüsusi bölmələrdən biri olan "Abdulla Şaiqin müdrik deyimləri" sərlövhəli ədibin nəzm və nəsrlə əks etdirdiyi aforizmləri yer almışdır. Burada ədibin təlim, tərbiyə və s. haqda müdrik fikirləri öz əksini tapmışdır. Bunun davamınca "Abdulla Şaiq görkəmli şəxsiyyətlər haqqında" adlı digər bir bölmə tərtib edilmişdir. Bölmədə Azərbaycan ədəbiyyatında mühüm mövqeyə malik söz sahibləri – Füzuli, Nəsimi, A.Səhhət, S.Ə.Şirvani, M.Fətəli (Axundzadə), Vaqif (M.P.Vaqif), Sabir əfəndi (M.Ə.Sabir), N.Nərimanov, C.Məmməd-

quluzadə, S.S.Axundov, Cavid əfəndi (H.Cavid), S.Vurğun, Cəfər (C.Cabbarlı) və s. kimi dövrünün görkəmli şəxsiyyətləri haqqında A.Şaiq düşüncəsi öz əksini tapmışdır. Lakin bölmələrdə təəssüf ki, fikirlərin nəşət tapdığı mənbə qeyd edilməmişdir. Bu, tədqiqatçılar üçün operativ istiqamətverici rol oynaya bilərdi.

A.Şaiq şəxsiyyətinin tanıdılmasına xidmət edən bölmələrdən növbətisi "Görkəmli şəxsiyyətlər, elm və mədəniyyət xadimləri Abdulla Şaiq haqqında" adlanır. Burada ümummilli lider H.Əliyev imzasından başlayaraq ilk Cümhuriyyətimizin banilərindən olan M.Ə.Rəsulzadə, A.Zamanov, M.Cəfər, T.Şahbazi (Simurq) və onlarla görkəmli şair və yazıçıların, elm adamlarının şair haqqında dəyərli sözləri öz əksini tapmışdır.

Biblioqrafik göstəricinin birinci hissəsi ədibin əsərlərini, dərsliklərini xronoloji qaydada əks etdirir. Buradan məlum olur ki, şairin ilk kitabı 1906-cı ildə çap olunmuş "İki uşaq" adlı 32 səhifədən ibarət mənzum hekayəsidir. Bu dövr çapçılıq işinin tarixi baxımından da maraq doğurur. Məsələn, bu mənzum hekayə Orucov qardaşlarının mətbəəsində çap olunmuşdur. Orucov qardaşlarının mətbəəsinin fəaliyyətə başlaması tarixi haqqında fikir ayrılığı mövcuddur. Bu mənzum hekayə tarixi baxımdan müəyyən bir faktdır. Yaxud biblioqrafik göstəricilərin əhəmiyyətli tərəflərindən biri onun çoxyönlü informasiya vermək gücünə malik olmasıdır. Məsələn, bu tərtibin konkret bir ədibə həsr edilməsinə baxmayaraq ondan bir çox məqsədlər üçün yararlanmaq mümkündür. Fikrimizi əsaslandırmaq üçün bir misal göstərək. Biblioqrafik göstəricini məhz XX əsrin ilk onillikləri üçün Azərbaycan elmində pedaqoji fəaliyyət (dərsliklər əsasında), kitab tarixi, kitab çapı, ədəbiyyatşünaslıq (uşaq ədəbiyyatı, bədii ədəbiyyat, xatirələr və s.), incəsənət və digər müxtəlif aspektlərdən qiymətləndirmək mümkündür.

Göstəricinin birinci hissəsi 1906-cı ildən başlayaraq 2015-ci ilə qədər 109 illik bir dövrü əhatə edir. Burada A.Şaiqin əsərləri – kitabları, dərsliklər və dövri mətbuatda dərc edilmiş məqalələri xronoloji qaydada əks etdirilmiş, eyni zamanda müəllifin sözlərinə yazılmış musiqi əsərləri – notlar və mahnı mətnləri də daxil edilmişdir.

İkinci hissədə A.Şaiq haqqında 1923-cü ildən başlayaraq son illərə qədər işıq üzü görmüş kitablarda, dərsliklərdə və müxtəlif nəşrlərdə yer almış əsərlərin biblioqrafik təsviri öz əksini tapmışdır.

Üşüncü hissədə A.Şaiqin (11 dildə) nəşr olunmuş əsərləri və onun haqqında 8 dildə yazılmış əsərlər xronoloji qaydada (daxildə əlifba prinsipi üzrə) təsvir edilmişdir. Burada müəllifin əsərlərinin alman, eston, fransız, fars, ingilis, litva və s. dillərə tərcümə edilərək nəşr edildiyini, yaxud onun haqqında gürcü, özbək, litva, ukrayna və s. dillərdə yazılmış əsərlərin olduğunu görmək mümkündür.

Yuxarıda qeyd etdiyimiz kimi dördüncü hissəni biblioqrafik göstəricilər üçün mühüm əhəmiyyət kəsb edən köməkçi göstəricilər təşkil edir. Məlumat-informasiya aparatı biblioqrafik təsvirlərə bir çox aspektdən yanaşaraq

müxtəlif sərlövhələrlə zənginləşdirilmişdir. 13 adda köməkçi aparat tərtib edilmişdir. Müasir dövrümüzdə biblioqrafik göstəricilərdə bu qədər adda köməkçi aparatla qarşılaşmaq mümkün deyil. Biblioqrafik təsvirlərin müəyyən edilməsi, strukturun yaradılması qədər böyük əhəmiyyət daşıyan köməkçi aparatın bölmələr baxımından dolğunluğu informasiyanın istifadəçilərə bir çox aspektdən hazır formada təqdim edilməsi deməkdir. Günümüzdə biblioqrafik göstəricilərin demək olar ki, böyük əksəriyyətini iki adda məlumat aparatı müşayiət edir.

Doğrudur, biblioqrafik göstəricilər özlərində çap əsərlərini ehtiva edirlər. Lakin biblioqrafik tərtib işlərinin əhəmiyyətli funksiyalarından biri istifadəçiyə maksimum informasiya verməkdir. Bu baxımdan düşünürük ki, müəllif haqqında tam informasiyanın çevrələnməsi aspektindən arxiv materiallarının da biobiblioqrafik göstəricilərə xüsusi olaraq "əlavələr" şəklində salınması metodik baxımdan qanunazidd olsa da, təcrübi baxımdan müsbət qiymətləndirilməlidir. Çünki burada məqsəd operativlik və relevantlıqdır. Arxiv materiallarının biobiblioqrafik göstəricilərə daxil edilməsi artıq təcrübədə sınanmış, eyni zamanda arxivşünaslar tərəfindən müsbət rəy almış bir metoddur. 2012-ci ildə nəşr edilmiş AMEA Mərkəzi Elmi Kitabxanasının "Elm və mədəniyyət xadimləri" seriyası altında görkəmli ədəbiyyatşünas "Abbas Zamanov: Biblioqrafiya" adlı tərtib edilmiş biblioqrafik göstəriciyə ilk dəfə alimin *Salman Mümtaz adına Respublika Dövlət Ədəbiyyat və İncəsənət arxivində* mühafizə edilən *4 siyahı üzrə 526 №li fondda qorunan şəxsi arxiv materialları* daxil edilmişdir. Biblioqrafiyaşünas alimlər bu metodu dəstəklədikləri təqdirdə onu arxiv işinə inteqrasiya edərək fərqli istiqamətdə inkişaf etdirmək mümkündür.

Biblioqrafik göstəricinin "Əlavələr" hissəsində maraq doğuran məlumatlardan biri də 4№-li əlavələrdir. Burada A.Şaiqin əsas arxiv materialları və əlyazmaları, ev muzeyində muhafizə edilən əsərlərinin əlyazmaları, publisistik yazıları, dərsliklər üçün işlədiyi materiallar və xatirələrinin əlyazmaları, tərcümələri, məktubları və sənədləri xüsusi başlıqlar altında qruplaşdırılmışdır. Bu sənəd axını içərisində xüsusi olaraq diqqət yetirdiyimiz bir məqam vardır. A.Şaiq 1930-cu illərin burulğanından, Sovet qılıncından necə xilas ola bilmişdir. O dövrün təlatümdə boğulmamaq üçün qələm və söz sahibi olmaq kifayət deyildi. 15 dəqiqəlik istintaq və məhkəmə qərarının müqəssiri Cavid əfəndi, ittihamsız qətl edilən F.Köçərli kimi "xalq düşmənləri" ilə olan yazışmaları daşnaklar üçün kifayət qədər böyük dəlil ola bilərdi. Günümüzdə iynəylə torpaq qazmağa bənzəyir 30-cu illərin fırtınasına düşən insanların qələminə məxsus bir yazı tapmaq. A.Şaiqin arxivinin o dövrdən keçərək günümüzə gəlib çatması heyrət doğurmaya bilmir. "Oxu tar"da antisovet izlər aşkar edənlər üçün A.Şaiq arxivində "A dostlar yurdumu mələdir yağı", "Başlanğıc" və s. kimi əsərləri var. Yaxud 1926-cı ildə türkçülüyün dostlarının siyahısını müəyyən etmək üçün keçirilmiş "I Türkoloji Qurultay"dan sonra nə əsərlərinin, nə də canlarının sağ qala bilmədiyi bir çoxlarından fərqli olaraq

onun arxivində "Türk dilinin qrameri" adlı bir mənbə var. Bəlkə də bunun səbəbi müəllifin C.Məmmədquluzadə, C.Cabbarlı ədəbi taktikası idi. 1937-ni 1918 kimi ifadə etmək idi.

Təqdim edilən biblioqrafik göstərici məhz bu baxımdan əvəzolunmaz bir mənbədir. Burada biblioqraflar öz üzərlərinə düşən işi layiqincə yerinə yetirmişdirlər. Digər həyata keçirilməsi geniş rəğbətə səbəb ola biləcək məsələ arxivşünas və muzeyşünasların üzərinə düşür. A.Şaiq yaradıcılığının işıq düşməmiş səhifələrini geniş oxucu auditoriyasına təqdim etməklə tədqiqatçılar üçün ədibin həmdövrünün görkəmli şəxsiyyətləri ilə əlaqəli dəyərli mənbələrin üzə çıxmasına səbəb ola bilər. Çünki bu bölmədə şairin həmdövrləri, müxtəlif zamanların görkəmli şəxsləri ilə bağlı (Sənan, Xəqani, Ömər Xəyyam, Firdovsi, Nizami Gəncəvi, Cəlaləddin Rumi, Ə.Hüseynzadə, H.Cavid, M.Ə.Sabir, F.Köçərli, M.Arif, M.Hadi, M.Mahmudbəyov və s.) dəyərli mənbələr, xatirələr və s. kimi məxəzlərin olduğu öz əksini tapmışdır.

Biblioqrafik göstəricidə əlavə olaraq təqdim edilmiş bölmələr içərisində "Abdulla Şaiqin tamaşaya qoyulmuş əsərlərinin" xroniki əksi (əlavə 2), "A.Şaiqə həsr edilmiş şeirlər" (əlavə 3), "A.Şaiqin sözlərinə yazılmış mahnıların notları" (əlavə 4) və internet resursları kimi kifayət qədər geniş informasiyaya malik bölmələr də təqdim edilmişdir.

A.Şaiq haqqında daha öncələri tərtibçi müəlliflərin də qeyd etdiyi kimi, 1985-ci ildə AMEA Mərkəzi Elmi Kitabxanasının uzun illər nəşr etdirdiyi "Elm və mədəniyyət xadimləri" adlı seriyası altında da elmi biblioqrafik göstərici nəşr olunmuşdur. M.M.Həsənova və N.M.Teymurova tərəfindən tərtib olunmuş bu göstəricidə biblioqrafik təsvirlər "Kitabları", "Dərsliklər", "Dövri mətbuatda, məcmuələrdə və dərsliklərdə çıxan bədii əsərləri", "Ədəbi-tənqidi və publisistik məqalələri", "Tərcümələri", "Redaktə etdiyi əsərləri", "Həyat və yaradıclığı haqqında ədəbiyyat" və s. kimi bölmələr daxilində qruplaşdırılmışdır. O dövrdən bu günə 31 il keçmişdir. Lakin təqdim edilən növbəti biblioqrafik göstərici hələ neçə əsrlər A.Şaiq yaradıcılığının tədqiqat obyekti olacağına işarə verir.

**_N.İsmayılov_**
_Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, dosent_

**_V.Əliyeva_**
_AMEA-nın M.Füzuli adına əlyazmalar institutunun doktorantı_

***KORREKTOR - Elçin ƏHMƏDOV***

*Jurnal «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində çap olunmuşdur.*

Çapaimzalanıb: 05.01.2017.
Format: 70x100 1/16. Qarnitur: Times.
Həcmi: 8,5 ş.ç.v. Tiraj: 120.
Sifariş № 06. Qiyməti müqavilə ilə.

MÜTƏRCİM

**TƏRCÜMƏ VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ**

**Az 1014, Bakı, Rəsul Rza küç., 125**
**596 21 44; 497 06 25; (055) 715 63 99**
**e-mail: mutarjim@mail.ru**

www.mutercim.az